8 NOYABR - ZƏFƏR GÜNÜMÜZ MÜBARƏK!

Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 42 (6184) 6 noyabr 2026-cı il | Qiyməti 40 qəpik

Ərdoğan Zəfər Günü Azərbaycana gəlir

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 8 Noyabr - Zəfər Günü münasibətilə Azərbaycana səfər etməyi planlaşdırdığını bildirib.

Adalet.az NTV-yə istinadən xəbər verir ki, o bu barədə mediaya açıqlamasında məlumat verib.

"Fövqəladə bir vəziyyət yaranmasa, 8 noyabrda Azərbaycana səfər etməyi düşünürəm. İnşallah, bu səfər çərçivəsində lazımi addımları atmaq imkanımız olacaq", - Türkiyə Prezidenti bildirib.

"Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər klassik diplomatik təmasların çox fövqündədir. İki ölkənin qırılmaz bağı ortaq tariximizin, mədəniyyətimizin, taleyimizin və inşallah gələcəyimizin məhsuludur. Türkiyə-Azərbaycan qardaşlığının aşa bilməyəcəyi heç bir maneə yoxdur", - Ərdoğan vurğulayıb.



"Azərbaycanda qanunsuz fəaliyyət göstərən kriminal rejimin varlığına son qoyulub"



"Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin tarixi qələbəsinin əhəmiyyəti ildən-ilə daha dolğun şəkildə üz çıxır".

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında spiker Sahibə Qafarova deyib.

MM sədri bildirib ki, 44 günlük Vətən müharibəsində qələbənin mahiyyəti 4 fundamental anlayışla ifadə edilə bilər - ədalət, dövlətçilik, hüquq və quruculuq:

"Ədalət anlayışı odur ki, torpaqlarımızın 30 illik işğalına son qoyuldu. 2023-cü ilin sentyabrında keçirilən anti-terror əməliyyatı hərb tariximizin yeni şanlı səhifəsini təşkil edib. Beləliklə Azərbaycanda qanunsuz fəaliyyət göstərən kriminal rejimin varlığına son qoyulub. 8 noyabr Zəfəri xalqın, ordunun və dövlətin birliyinin ən yüksək ifadəsi olub".

Media və Yayım Şurasından jurnalistlərə hücumlarla bağlı bəyanat



"Son günlər media nümayəndələrinin hadisə yerlərində çəkiliş apararkən hücuma məruz qalması, onlara qarşı fiziki zorakılıq tətbiq edilməsi və peşə fəaliyyətlərinə maneələrin yaradılması ciddi narahatlıq doğurur. Jurnalistlərin təhlükəsizliyini təhdid edən bu cür hərəkətlər eyni zamanda cəmiyyətin ictimai əhəmiyyətli hadisələr barədə məlumat almaq hüququna müdaxilədir".

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Media və Yayım Şurasının bəyanat yayıb.

"Media haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə edilməsi, onlara təzyiq göstərilməsi və təqib olunması yolverilməzdir.

Azərbaycan Respublikası Media və Yayım Şurası jurnalistlərə qarşı zorakılıq və onların qanuni peşə fəaliyyətinə maneə yaradılması hallarını qətiyyətlə qınayır, baş vermiş hadisələrin operativ, hərtərəfli və obyektiv araşdırılacağına əminliyini ifadə edir, hər kəsi media nümayəndələrinin qanuni fəaliyyətinə hörmətlə yanaşmağa və onların peşə vəzifələrini təhlükəsiz, sərbəst və maneəsiz yerinə yetirmək hüququna riayət etməyə çağırır", - bəyanatda deyilir.

Səbinə Əliyeva yenidən ombudsman seçildi



Milli Məclisin plenar iclasında Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) seçilməsi haqqında məsələ müzakirəyə çıxarılıb.

Adalet.az xəbər verir ki, namizədlər hazırkı Ombudsman Səbinə Əliyeva, Konstitusiya Məhkəməsinin keçmiş hakimi, hüquq elmləri doktoru, professor Ceyhun Qaracayev və Ali Məhkəmənin hakimi, Hakimlərin Seçki Komitəsinin üzvü Elşana Valiyeva olub. Səbinə Əliyevanın, Ceyhun Qaracayevin və Elşana Valiyevanın namizədliyi ayrı-ayrılıqda səsə qoyulub. Səbinə Əliyeva 100 səs çoxluğu ilə İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) vəzifəsinə seçilib.

"Ermənistan TRIPP layihəsinin icrasına faktiki olaraq başlayıb"

Ermənistanın baş naziri Nikol Paşinyan TRIPP layihəsinin praktiki icra mərhələsinə keçdiyini elan edib. Təşəbbüs Sünik vilayətində nəqliyyat infrastrukturunun, o cümlədən dəmir yollarının, avtomobil yollarının və elektrik ötürücü xətlərinin inkişafını əhatə edir.

Adalet.az xəbər verir ki, bu barədə o, Ermənistan Parlamentinin iclasında deyib. Paşinyanın sözlərinə görə, yaxın gələcəkdə TRIPP-in inkişafı ilə məşğul olacaq Ermənistan-ABŞ birgə müəssisəsinin yaradılması gözlənilir; indiyədək görülmüş hazırlıq işləri isə həmin quruma təhvil veriləcək.

Əbülfət MƏDƏTOĞLU

PAYIZI ŞƏRƏFLƏNDİRƏN ZƏFƏR

Bax:səh-8

Aİ vətəndaşlarına böhran xəbərdarlığı

Avropa İttifaqı (Aİ) Komissiyası Avropanın daha tez-tez və mürəkkəb böhranlarla üzləşdiyini bildirərək, fövqəladə hallar üzrə yeni təlimat dərc edib. Sənəddə vətəndaşların ictimai yardım səfərbər olunana qədər, yəni ilk üç gün (72 saat) ərzində əsas ehtiyaclarını özlərinin qarşılaması tövsiyə edilir.

Adalet.az xəbər verir ki, Bərabərlik, Hazırlıq və Böhranların İdarə Edilməsi üzrə Aİ komissarı Haca Lahbib tərəfindən Brüsseldəki 9-cu Avropa Mülki Müdafiə Forumunda elan edilən təlimata əsasən, fövqəladə hallara hazırlığın məktəbəqədər və ibtidai təhsil proqramlarına daxil edilməsi, təhsil işçilərinə təlimlərin keçilməsi və əlilliyi olan şəxsləri əhatə edən inklüziv tədbirlərin görülməsi planlaşdırılır.

Sənəd həmçinin səlahiyyətli orqanların fövqəladə haldan əvvəl, hadisə zamanı və sonrasında əhaliyə etibarlı məlumat verməsini nəzərdə tutur. Fövqəladə hallara hazırlığı bütün Avropada ortaq prioritetə çevirmək məqsədilə 2027-ci ildən etibarən hər il oktyabrın 23-nün "Aİ Hazırlıq Günü" kimi qeyd olunması təklif edilir.

GÜNÜN LƏTİFƏSİ

Bir ovçu digərinə deyir:

- Köpəyinizi almaq istəyirəm. Amma onun sahibinə necə sadiq oldugunu bilmirəm?

- Çox sadiqdir. Əmin ola bilərsiniz.

- Necə sübut edə bilərsiz?

- Bunu sizə sübut etmək çox asandır. Mən onu 5 dəfə satmışam, hər dəfə qaçıb gəlib.

İlham Əliyev Zəngilan Aqroparkının yaradılması ilə bağlı Fərman imzalayıb



İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialından səmərəli istifadə olunması, kənd təsərrüfatının bərpası və inkişafı məqsədilə Zəngilan və Qubadlı rayonlarının ərazilərində Zəngilan Aqroparkı yaradılacaq.

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev müvafiq Fərman imzalayıb. Sənədin mətni Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Fərmana əsasən, Zəngilan Aqroparkı müasir texnologiya və üsulların tətbiqi ilə rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, qablaşdırılması və saxlanılması, çeşidlənməsi, satışı, eləcə də müvafiq xidmətlərin göstərilməsi üçün istifadə olunacaq.

Aqroparkın fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı tədbirlərin hazırlanması və icrası, həmçinin dövlət dəstəyi tədbirlərində iştirakın təmin edilməsi İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinə həvalə olunub.

Sənəddə qeyd olunur ki, Zəngilan Aqroparkının yaradılması, ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturunun qurulması üçün layihələndirmə işlərinin aparılmasına Prezidentin 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondundan Agentliyə ilkin olaraq 500 min manat ayrılacaq.

Nazirlər Kabineti iki ay müddətində Zəngilan şəhəri yaxınlığında 1424,55 hektar, Qubadlı rayonunun Tatar kəndi yaxınlığında isə 164,15 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin icarəyə vermək hüququ ilə Agentliyin daimi istifadəsinə verilməsini təmin etməlidir.

Bundan başqa, İqtisadiyyat Nazirliyi iki ay müddətində Prezidentin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəliyinin təkliflərini nəzərə almaqla, aqroparkda istehsal və emal olunacaq aqrar-sənaye məhsulları üzrə prioritet istiqamətləri müəyyən etməlidir.

Fərmana əsasən, aqroparkda elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, yol-nəqliyyat, yanğından mühafizə, istehsal və emal, inzibati və sosial təyinatlı infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur.

Sənədlə, həmçinin aqroparkın idarə olunması və sahibkarlıq fəaliyyətinin təşviqi ilə bağlı bir sıra normativ hüquqi aktlara dəyişiklik edilib.

"ASAN xidmət" beynəlxalq maraq doğuran unikal Azərbaycan brendidir

Dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidinə zəmin yaradan "ASAN xidmət" bu gün yalnız qabaqcıl milli idarəçilik təcrübəsi deyil, həm də beynəlxalq maraq doğuran unikal Azərbaycan brendidir.

Bu barədə Prezident İlham Əliyevin "BMT İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə hazır təsisatların inkişafı" beynəlxalq tədbirinin iştirakçılarına müraciətində bildirilib.

"Bu təcrübəmizin 50-dən çox ölkə ilə paylaşılması və artıq müxtəlif ölkələrdə uğurlu tətbiqi "ASAN xidmət"in dövlət xidmətlərinin təşkilində səmərəli institusional model olduğunu sübut edir", - deyə müraciətdə qeyd olunur.

Qeyd edək ki, Bakıda "BMT (Birləşmiş Millətlər Təşkilatı) İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə Hazır Təsisatların İnkişafı" (UN Governance Innovation Summit: Advancing Future-Ready Institutions) adlı beynəlxalq sammit keçirilir.

2024-cü ilin noyabr ayında Azərbaycan Respublikası Hökuməti ilə (BMT) arasında imzalanmış Töhfə Sazişi çərçivəsində reallaşan sammit Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Departamentinin birgə təşkilatçılığı ilə baş tutur.

Sammitdə BMT-ə üzv ölkələrin nazirləri və yüksək səviyyəli rəsmiləri, beynəlxalq və regional təşkilatların rəhbər vəzifəli şəxsləri, inkişaf tərəfdaşları, eləcə də özəl sektorun və akademik dairələrin təmsilçiləri olmaqla 200-ə yaxın qonaq iştirak edir.

Parlament Zəfər Günü ilə bağlı bəyanat qəbul edib

Milli Məclisdə 8 Noyabr - Zəfər Günü ilə əlaqədar bəyanat qəbul olunub.

Adalet.az bəyanatı təqdim edir:

"44 günlük Vətən müharibəsində qələbənin mahiyyəti dörd fundamental anlayışla ifadə olunur: ədalət, dövlətçilik, hüquq və quruculuq.

Ədalət ondan ibarətdir ki, torpaqlarımızın 30 illik işğalına son qoyulmuşdur. 8 Noyabr Zəfəri dövlətimizin ərazi bütövlüyünün bərpasına yol açmışdır. 2023-cü ilin sentyabr ayında keçirilən antiterror əməliyyatı xalqımızın tarixində yeni şanlı səhifə açmış, Azərbaycan ərazisində qanunsuz fəaliyyət göstərən kriminal xunta rejiminin mövcudluğuna son qoyulmuşdur.

Dövlətçilik haqqında danışarkən qeyd edilməlidir ki, qələbə Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyev tərəfindən ardıcıl həyata keçirilmiş güclü dövlət quruculuğu siyasətinin qanunauyğun nəticəsi olmuşdur.

Böyük səylər hesabına yaradılan siyasi, iqtisadi, diplomatik və hərbi potensial tarixi qələbədə öz təcəssümünü tapmışdır. 8 Noyabr Zəfəri xalqın, ordunun və dövlətin birliyinin ən yüksək ifadəsi olmuşdur.



Hüquq anlayışı isə beynəlxalq hüququn prinsiplərinin bərqərar olması ilə bağlıdır. BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların onilliklər boyu kağız üzərində qalmış qərarları həyata keçirilmişdir. Dövlətlərin ərazi bütövlüyü prinsipi və beynəlxalq hüququn gücü bərpa olunmuşdur.

Quruculuq anlayışına gəlincə, Qarabağın və Şərqi Zəngəzurun bərpası, Böyük Qayıdış proqramının icrası qələbəmizin məzmununu zənginləşdirir. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına dönməsi azad olunmuş torpaqlarımıza həyat gətirir.

Böyük Qələbə Cənubi Qafqazda regional sülhün bərqərar edilməsi üçün də tarixi imkan yaratmışdır. Dövlət başçısı, cənab İlham Əliyevin növbəti illərdə regionda dayanıqlı təhlükəsizlik arxitekturasının qurulmasına və əməkdaşlıq imkanlarının reallaşdırılmasına yönəlmiş səyləri xüsusi əhəmiyyət daşıyır. Əminliklə söyləmək olar ki, möhtərəm Prezidentin bütün layihələri kimi, bu layihələr də uğurla başa çatdırılacaqdır.

İcazə verin, Azərbaycana tarixi Zəfər qazandırmış Müzəffər Ali Baş Komandanımıza, qəhrəman əsgər və zabitlərimizə minnətdarlığımızı bildirək, onları ürəkdən təbrik edək. Şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə möhkəm cansağlığı arzulayırıq. Onların fədakarlığını heç vaxt unutmamalıyıq".

"Ən çox məskunlaşma Ağdam rayonundadır"

"6 il öncə Azərbaycanın əldə etdiyi Zəfərdən sonra işğaldan azad olunan ərazilərimiz genişmiqyaslı bərpa-quruculuq mərhələsinə qədəm qoydu. Böyük Qayıdışla bağlı birinci Dövlət Proqramının icrası bu il başa çatacaq və növbəti Proqram 2027-2030-cu illəri əhatə edəcək".

Adalet.az xəbər verir ki, bunu deputat Vüqar Bayramov Milli Məclisin plenar iclasında bildirib.

Deputat qeyd edib ki, işğal müddətində tamamilə dağıdılaraq xarabalığa çevrilən həmin ərazilərimizdə ilkin mərhələdə nəqliyyat, sosial, kommunal və digər infrastrukturun formalaşdırılması zəruri idi: "Bu müddətdə yalnız dövlət büdcəsindən həmin ərazilərimizin bərpasına 26 milyard manat vəsait ayrılıb. Zəfərdən keçən müddətdə işğaldan azad olunmuş ərazilərdə ümumi uzunluğu 3 min 720,5 kilometr təşkil edən 64 adda avtomobil yolunun tikintisi icra edilir. İndiyədək ümumi uzunluğu 1338 kilometr olan 17 avtomobil yolunun tikintisi tam başa çatdırılıb. Strateji əhəmiyyət daşıyan 3 beynəlxalq hava limanı istifadəyə verilib.

Zəfərdən sonra milli təhlükəsizliyimizin və müdafiə qabiliyyətimizin daha da gücləndirilməsi ilə yanaşı, işğaldan azad olunan ərazilərimizdə intensiv məskunlaşma əsas prioritetlərdən olub. Hazırda işğaldan azad olunan ərazilərimizdə 100 minə yaxın vətəndaşımız yaşayır, işləyir və təhsil alır. Onlardan 41213 nəfəri daimi məskunlaşmış keçmiş məcburi köçkünlərdir. Ən çox məskunlaşma isə Ağdam rayonunda qeydə alınıb. 8300 nəfər artıq bu rayonumuzda məskunlaşıb. Cəbrayıl rayonunda isə 7112 keçmiş məcburi köçkün öz ata-baba yurdlarına qayıdıb".



Millət vəkili qeyd edib ki, infrastrukturun formalaşması intensiv məskunlaşma üçün xüsusi zəmin yaratmaqdadır: "Növbəti aylarda və eləcə də 2027-ci ildə həmin ərazilərimizdə kütləvi məskunlaşma olacaq. Hər bir keçmiş məcburi köçkünə öz ata-baba yurdlarında ev təklif ediləcək. Heç bir keçmiş məcburi köçkün prosesdən kənarda qalmayacaq. Bu Möhtərəm Prezidentin siyasi iradəsidir. Ötən müddətdə Prezident işğaldan azad edilmiş ərazilərə 600 dəfədən çox səfər edib. Bu səfərlər və tədbirlər çərçivəsində dövlət başçısı 180-dən çox layihənin təməlini qoyub və 170-dən çox obyektin açılışında iştirak edib. Dünyanın heç bir ölkəsində dövlət başçısı bir bölgəyə bu qədər çox səfər etməyib. Bu, cənab Prezidentin məskunlaşma və yenidənqurma prosesinə xüsusi diqqətini bir daha təsdiq edir.

Zəfərdən sonra Qarabağın iqtisadiyyatı 4 dəfə böyüyüb. Qarabağ iqtisadi rayonunda iqtisadiyyatın əsas sahələri üzrə məhsulun ümumi buraxılışı 2020-ci ildə 1 milyard 548 milyon manat idisə, indi bu göstərici 6 milyard manata çatır.

Zəfərdən sonra Şərqi Zəngəzurun iqtisadiyyatı 30 dəfə böyüyərək 4 milyard manatı keçib. 2020-ci ildə sözügedən iqtisadi rayonumuzda iqtisadiyyatın əsas sahələri üzrə məhsulun ümumi buraxılışı cəmi 134 milyon manat idi. Artıq Şərqi Zəngəzurun 100 milyon manatlıq sənayesi, 170 milyon manatdan çox aqrar sektoru var".

Türkiyədə seçki tarixi dəyişdirilə bilər

Türkiyə prezident administrasiyası prezident və parlament seçkilərini may ayından 2028-ci ilin mart-aprel aylarına təxirə salmaq üçün parlament dəstəyinə ümid edir.

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidentinin baş hüquq məsləhətçisi Mehmet Uçum deyib. Onun sözlərinə görə, bu qərar hazırkı Prezident Rəcəb Tayyib Ərdoğanın yenidən prezidentliyə namizədliyini irəli sürməsinə imkan verəcək.

Mövcud qanunvericiliyə görə, Türkiyədə növbəti ümumi seçkilər 7 may 2028-ci il tarixinə planlaşdırılır.



Uçum parlamentin səsvermə tarixini dəyişdirmək üçün lazımi səs çoxluğunu təmin edə biləcəyinə əminliyini ifadə edib. O vurğulayıb ki, məsələ erkən seçkilərin keçirilməsi deyil, planlaşdırılan səsvermənin təxirə salınmasıdır.

Məsləhətçinin hesablamalarına görə, təxminən 500 parlament üzvü təşəbbüsü dəstəkləyə bilər və bu da Ərdoğanın yenidən ölkənin ən yüksək vəzifəsinə namizəd olmasına yol açacaq.

"Rəqəmsal Media Ayı" başlayıb

Azərbaycan Respublikası Media və Yayım Şurasının təşəbbüsü ilə 2026-cı ilin noyabr ayını əhatə edən "Rəqəmsal Media Ayı" çərçivəsində tədbirlərə başlanılıb.

Bu barədə Adalet.az-a Şuradan məlumat verilib.

Bildirilib ki, təşəbbüsün əsas məqsədi cəmiyyətdə media savadlılığının artırılması, müasir informasiya mühitinə dair bilik və bacarıqların təkmilləşdirilməsi, etibarlı məzmun yaradılmasının təşviqi, eləcə də gənclərin bu sahədə peşəkar inkişafına dəstək göstərilməsidir. "Rəqəmsal Media Ayı" yeni texnologiyaların yaratdığı imkanlar barədə məlumatlılığın artırılmasına, bu imkanlardan səmərəli istifadəyə və rəqəmsal platformalarda təhlükəsizlik mədəniyyətinin gücləndirilməsinə də xidmət edir.



Təşəbbüs çərçivəsində təşkil olunan təlim proqramının ilk günü rəqəmsal media trendləri, platforma alqoritmləri, şəxsi brendin formalaşdırılması və auditoriya ilə qarşılıqlı əlaqənin qurulması mövzularına həsr olunub.

Rəqəmsal marketinq və süni intellekt üzrə mütəxəssis Cəfər Nəcəfov "Rəqəmsal media trendləri və platforma alqoritmləri" mövzusunda çıxış edərək rəqəmsal platformaların fəaliyyət prinsipləri, alqoritmlərin məzmunun yayılmasına təsiri və müasir informasiya mühitində formalaşan yeni tendensiyalar barədə məlumat verib.

Kontent yaradıcısı Pərviz Sadıqov isə "Şəxsi brend və auditoriya ilə qarşılıqlı əlaqə: rəqəmsal kontent strategiyaları" mövzusunda təqdimatla çıxış edib. O, şəxsi brendin inkişaf etdirilməsi, hədəf auditoriyanın müəyyənləşdirilməsi, sosial media üçün effektiv məzmun strategiyalarının hazırlanması və auditoriya ilə davamlı kommunikasiyanın qurulması məsələlərindən bəhs edib.

Təlim proqramı mövzular ətrafında müzakirələr və sual-cavab sessiyaları ilə davam edib.

Qeyd edək ki, noyabr ayı ərzində müxtəlif hədəf qrupları üçün maarifləndirmə və inkişaf proqramlarının, praktiki təlimlərin, seminarların, şəbəkələşmə görüşlərinin və media kampaniyalarının təşkili nəzərdə tutulur. Proqram çərçivəsində rəqəmsal media trendləri, sosial media platformalarının fəaliyyət prinsipləri, məzmun strategiyalarının hazırlanması, süni intellekt texnologiyalarının tətbiqi, informasiya təhlükəsizliyi və dezinformasiya ilə mübarizə kimi aktual mövzulara xüsusi diqqət yetiriləcək.

«İnsan belə bir qardaşla münasibətləri korlayarmı?»

"Ankara ilə Bakı arasında gərginliyin guya Azərbaycanda məktəblərdə hicabın qadağan edilməsi məsələsindən qaynaqlandığı zənn edilir, mediada belə bir təəssürat yaradılır. Əslində isə problem başqadır və daha dərindədir".

Adalet.az xəbər verir ki, bu barədə türkiyəli jurnalist və yazar Yılmaz Özdil "YouTube" kanalında yayımladığı videoda danışıb.

Y.Özdil çıxışında Azərbaycanın yürütdüyü siyasəti təqdir edərək ölkəsinin tutduğu mövqeyi tənqid edib. Onun sözlərinə görə, Azərbaycan öz xarici siyasətində məsələlərə öz xalqının prizmasından yanaşır: "Azərbaycan İsraillə hərbi müdafiəyə dair əməkdaşlıq sazişi imzaladığı eyni gündə Ermənistanın paytaxtı İrəvanda ticarət sərgisinin açılışı keçirilib, həmin açılışda isə cəmi 2 ölkə iştirak edib. Bunlar isə Ermənistan və İrandır. Çünki Ermənistandakı sərgi İranın sərgisi idi. Yəni İran Ermənistanın yanında, İsrail isə Azərbaycanın yanında dayanır. Çünki bu ölkələr həyata daim öz paytaxtlarının pəncərəsindən baxırlar. Bizdən başqa heç kəs din, məzhəb pəncərəsindən baxmır. Hər kəs



öz millətinin xeyrini, faydasını nəzərə alır. Təl-Əvivlə Bakı, İrəvanla Tehran. Gözümüzün önündə bu cür dərin ittifaqlar qurulur, biz isə Fələstin, baş örtüsü məsələsinə ilişib qalmışıq. Buradan Azərbaycanın dövlət siyasətinə qarışmağa çalışırıq. Can Azərbaycanla bu gün Fələstin səbəbindən gərginlik yaşayırıq, elə deyilmi?

Bəs Fələstin rəhbəri Mahmud Abbas haraya səfər etdi? Tam da 29 oktyabr - Cümhuriyyət Bayramı günü Kiprə gedib yunanlarla, onların lideri ilə görüşdü. O, bununla Şimali Kipri yox saydığını, yunanların yanında olduğunu göstərir. Biz isə bu fələstinlilər üçün Azərbaycanı məyus edirik. Qəzzada öldürülən qadınlara, uşaqlara üzülmək başqa, öz millətini düşünmək başqa şeydir. Məyus olmaq başqa, qardaşımız Azərbaycana qarşı sərt mövqe nümayiş etdirmək tamam ayrı şeydir".

Türkiyəli jurnalist həmçinin Azərbaycanın Türkiyəyə etdiyi mühüm tarixi jestdən də bəhs edib: "Qarabağda müharibə 2020-ci il noyabrın 10-da zəfərlə nəticələndiyi üçün həmin tarix Azərbaycanda rəsmi Zəfər Bayramı elan edildi. Lakin bundan bir gün sonra bayramın tarixi dəyişdirildi. Çünki 10 noyabr Mustafa Kamal Atatürkün vəfat ildönümü olduğu üçün şəxsən Prezident İlham Əliyev tərəfindən Zəfər Bayramı 8 noyabr tarixinə keçirildi. Azərbaycan Atatürkə hörmətsizlik olmasın deyə rəsmi Zəfər Bayramı gününü belə dəyişdirdi. Biz belə bir qardaşdan bəhs edirik. İnsan belə bir qardaşla münasibətləri korlayarmı?"

O həmçinin çıxışında Azərbaycanın müxtəlif dövrlərdə və tarixi hadisələr zamanı Türkiyənin yanında olmasından da bəhs edib.

"Əgər ABŞ və İran arasında danışıqlar yenidən nəticəsiz qalarsa..."

"Müctəba Xamenei yenidən ABŞ ilə danışıqları Məsud Pezeşkiana həvalə etdi. ABŞ-nin İrana qarşı mümkün hərbi əməliyyatlarla bağlı planının artıq müzakirə masasında olduğu və İran ətrafında hərbi qüvvələrini cəmləşdirdiyi görünür. Bir müddət əvvəl İranın ali dini rəhbəri Müctəba Xamenei ölkənin hərbi məsələlərinin idarə olunmasını Möhsün Rzaiyə, iqtisadi məsələlərini isə prezident Məsud Pezeşkiana həvalə etmişdi. Beləliklə, İranın hərbi-siyasi idarəçiliyində Rzainin rolu əhəmiyyətli dərəcədə artmışdı".

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd



Əsədullazadə deyib. Politoloq bildirib ki, bu müddətdə ABŞ ilə danışıqları Pezeşkian hökuməti aparsa da, prezidentin prosesdəki siyasi təsirinin məhdudlaşdırıldığı müşahidə olunurdu:

"Lakin hazırda Dohada ABŞ və İran arasında aparılan danışıqlar fonunda Müctəba Xamenei qərarına yenidən dəyişiklik edərək diplomatik prosesi hökumətə və prezidentə həvalə edib. Bu qərarın ABŞ-ın artan hərbi təzyiqləri fonunda verilməsi diqqət çəkir. Qeyd edim ki, Rusiya prezidenti Vladimir Putinin İranın təhlükəsizlik strukturlarında mühüm mövqeyə malik Möhsün Rzai ilə telefon danışığı aparması da xüsusi əhəmiyyət daşıyır. Bu təmas İranın hərbi-siyasi idarəçiliyində Rzainin rolunun nə qədər artdığını göstərir.Bütün bunlar onu deməyə əsas verir ki, İran həm diplomatik müstəvidə ABŞ-la danışıqları davam etdirməyə çalışır, həm də hərbi qarşıdurma ehtimalına hazırlaşır. Tehran bir tərəfdən danışıqlar vasitəsilə gərginliyi azaltmağa çalışsa da, digər tərəfdən mümkün müharibə ssenarisinə hazırdır. Əgər ABŞ və İran arasında danışıqlar yenidən nəticəsiz qalarsa, Vaşinqtonun İrana qarşı məhdud və ya daha genişmiqyaslı hərbi əməliyyatlara başlaması ehtimalı istisna edilmir. Hazırkı hərbi-siyasi vəziyyət isə regionda gərginliyin daha da artacağını göstərir".

Sübhan

Rüstəm Hacıyev

Avropa konqressə seçkilərin nəticələrindən narahatdır...



Birləşmiş Ştatların Şimali Atlantika Alyansındakı tərəfdaşları, Konqressə keçirilən seçkilərin nəticələrindən narahatlıq keçirməyə başlayıblar. Onlar ehtiyat edirlər ki, respublikaçıların bu seçkilərdə məğlubiyyəti, prezident Trampı Avropaya və NATO-ya qarşı daha sərt mövqe tutmağa sövq edə bilər.

Qərb dövlətlərinin prezidentləri, adətən prezidentlik müddətlərinin sonuna yaxınlaşmasından daha çox qıcıqlanırlar və xarici siyasətdə avantyuralara yol verirlər. Donald Trampın hazırda NATO-ya qarşı aqressiv mövqe göstərməsi bundan irəli gələ bilər.

Politico qəzeti yazır ki, Birləşmiş Ştatların alyans tərəfdaşları olan avropalılar 3 noyabr tarixindən sonra daha pis ssenariyə hazırlaşırlar. Qərbin bir çox liderləri düşünürlər ki, demokratlar bu seçkilərdə üstünlük qazanarlarsa, Trampın daxili siyasətdə səlahiyyətlərini məhdudlaşdıra bilərlər.

Belə olan halda, ABŞ prezidenti öz nüfuzunu qorumaq üçün gücünü xarici siyasətə yönəldəcək. Bunun üçün isə, onsuzda əvvəldəndə narazı olduğu NATO əsas hədəfə çevriləcək.

Mətbu orqanın jurnalistləri hesab edirlər ki, Tramp "avropanın təhlükəsizliyi ilə bağlı" bəzi məhdudiyyətlər həyata keçirə bilər. Məsələn, Avropanın təhlükəsizliyi üçün alyansa ödənilən maliyyə vəsaiti azaltmaq adı altında bir neçə min hərbiçisini geri çağıra bilər, Rusiya ilə yaxınlaşmaq məqsədiylə Ukraynaya silah alınmasını məhdudlaşdıra bilər.

Xatırladıtıq ki, ABŞ prezidenti əvvəllərdə Almaniyadan 5 minə yaxın hərbiçisinin çıxarılacağını bildirmişdi. İndi İtaliyadan da hərbiçilərin çıxarılacağını gözləmək olar.

Rəqəmlərə baxsaq, ABŞ-nin hazırda Avropada 80 min hərbiçisi yerləşdirilib. Ekspertlər hesab edirlər ki, İstənilən sayda amerikan əsgərlərinin sayının azalması, Avropanın təhlükədizliyinin zəifləməsi kimi qiymətləndirilə bilər.

İkinci təhlükə- maliyə məsələsidir. Tramp dəfələrlə vurğulayıb ki, ABŞ Şimali Atlantika Alyansı vasitəsiylə Avropanın təhlükəsizlik məsələsində maliyyə yükünün hamısını öz üzərinə götürməməlidir və Avropa müdafiə xərclərini özü həll etməlidir. Məlumdur ki, Avropa bu xərcləri ödəmək iqtidarında deyil.

Bundan başqa, Tramp NATO-nun ifrastruktur, komandanlıq, xəbərdalıq sistemləri proqramlarınında maliyələşdirilməsini məhdudlaşdıra bilər. Bu isə Avropa dövlətlərini əlavə maliyyə mənbələrinin axtarılması kimi çıxılmaz vəziyyətə sala bilər.

Nəzərə alınsa ki, Avropanın təhlükəsizliyi ilə bağlı büdcə vəsaitləri getdikcə artmaqdadır, onda bu dövlətlərin hansı maliyyə sıxıntıları ilə üzləşə biləcəklərini təsəvvür etmək o qədər də çətin olmaz.

Avropa liderləri hələlik özlərini heç nə olmamış kimi aparmağa, ABŞ prezidenti Donald Trampı daha da qıcıqlandırmamağa çalışırlar.

Lakin, Brüssel kuluarlarında baş verə biləcək ən pis ssenarilərə hazırlıq həyəcanı özünü açıq şəkildə göstərməkdədir.

Beləliklə, hətta Trampın okeanın o tayındakı rəqiblərində, konqressə seçkilərdə demokratların qələbəsinə ümüd etməklərinin, onlara necə bəlalar gətirə biləcəyini düşünmürdülər...

"Bu səfər Türkiyə və Ukrayna arasında müəyyən fikir ayrılıqlarına son qoydu"

"Ukrayna prezidenti V. Zelenskinin ötən həftə Türkiyəyə səfəri əsasən iki ölkə arasında son aylar yaranan siyasi böhrandan irəli gəlirdi".

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

"Ukraynanın Qara dənizdə Türkiyə gəmilərinin atəşə tutması Ankaranın Kiyevə sərt xəbərdarlıq etməsinə və hərbi texniki əməkdaşlıq məsələlərinə son qoyacağına gətirib çıxara bilərdi.

Türkiyənin yenidən Kiyev və Moskva arasında danışıqlarda vasitəçilik etməsi xahiş edilib. Bu səfər Türkiyə və Ukrayna arasında müəyyən fikir ayrılıqlarına son qoydu. Türkiyənin vasitəçiliyinə gəldikdə bu yalnız humanitar məsələlərdə uğurlu olub".

Vasif

"Bu, bizim dövlətimizin toxunulmaz marağıdır"

”Azərbaycanın milli iradəsi müzakirə mövzusu deyil, dövlətimizin toxunulmaz strateji xəttidir! Azərbaycanın milli kimliyini, milli düşüncəsini formalaşdırmaq, qorumaq, strateji hədəflərimizi həyata keçirmək o qədər mürəkkəb və çətindir ki... Çünki müasir dünyada dövlətlərin maraqları çox zaman bizim ruhumuza və milli dəyərlərimizə yad olan prinsiplər əsasında formalaşır. Biz özümüzə dost, tərəfdaş bildiyimiz ölkələrə qarşı səmimiyyətimizi daim nümayiş etdirmişik”.

Adalet.az xəbər verir ki, bunu ”Yeni Xətt” Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

Onun sözlərinə görə, çox təəssüf ki, bəzi ölkələr bizi çətin anlarda dəstəkləmək əvəzinə, bizə çətinlik yaşatmaq üçün planlar qurublar:

”Bax, bu, heç bir siyasi və mənəvi kriteriyaya uyğun deyil. Amma biz bunları yaşamağa məhkumuq. Bütün bunları nəzərə alaraq, dövlət olaraq siyasi kimliyimizin hədəflərini möhkəmləndirmək üçün kifayət qədər ciddi addımlar atmışıq və bu strateji hədəflərimiz səmimi olmayan ölkələrin rəhbərlərini narahat edir. Bu, danılmaz faktdır.Milli kimliyin qorunması yalnız mövcud dəyərləri saxlamaq deyil, gələcək nəsillər üçün müstəqil və öz milli iradəsinə sahib cəmiyyət formalaşdırmaqdır. Milli şüuru daim gücləndirməliyik. Hər bir vətəndaşın dövlətə, Vətənə, milli tarixə və suverenliyə bağlılıq hissini möhkəmləndirməliyik. Milli ideoloji təhlükəsizliyimizi gücləndirməliyik. Xarici ideoloji təsirlərə, informasiya manipulyasiyalarına uymamalı və düşüncə müstəqilliyimizi qo-



rumalıyıq. Dilimizin və mədəniyyətimizin gələcəyinə təminat vermək üçün addımlar atmalıyıq”.

Politoloq gənc nəslimizi milli düşüncə ilə yetişdirməyimizin vacib olduğunu bildirib:

”Yəni milli köklərə bağlı, müasir dünyagörüşlü, analitik düşüncəyə malik vətəndaş formalaşdırmalıyıq. İnformasiya suverenliyi, milli həmrəylik, milli maraqların beynəlxalq səviyyədə müdafiəsi... Milli-mənəvi dəyərlərimizi müasirliklə uzlaşdırmalı, ümumilikdə, gələcək nəsillərə güclü dövlət miras qoymalıyıq. Biz artıq görürük ki, müstəqil düşüncəyə malik, dövlətin maraqlarını dərk edən və qlobal rəqabətdə öz sözünü deyə bilən bir cəmiyyət formalaşdırmışıq. Bu, strateji hədəflərimizin uğurudur. Azərbaycanı zəfər ölkəsinə çevirən bu strategiya beynəlxalq siyasi müstəvidə ölkəmizin mövqeyini sürətlə möhkəmləndirib. Bu, bizim dövlətimizin toxunulmaz marağıdır. Bu maraqlara toxunmaq olmaz və bu siyasi yolu bütövlükdə səmimiyyətlə ”Azərbaycan, can Azərbaycan” deyə bilən hər kəs müdafiə etməlidir. Biz coğrafi olaraq bu gün balaca ölkə ola bilərik, amma siyasi və diplomatik baxımdan çox böyük ölkəyik. Öz gücümüzlə, öz ağlımızla, düşüncəmizlə, müdrikliyimizlə, qətiyyətimizlə və prinsipiallığımızla ölkəmizi dünya siyasi mərkəzlərinin diqqət mərkəzinə çevirmişik.Bu siyasət cənab Prezident İlham Əliyevin mühüm siyasi və milli uğurudur”.

Sübhan

Politoloq: «Rusiya Türk Dövlətləri Təşkilatına üzv olmaq istəyir»

”Türk Dövlətləri Təşkilatının Türkiyədə keçirilən XIII Zirvə görüşündə Qazaxıstan Prezidenti tərəfindən Rusiyanın təşkilata müşahidəçi üzv statusunda qoşulması ilə bağlı irəli sürdüyü təklif birliyə xidmət etmir. Bu təşəbbüs birbaşa Moskvanın maraqlarına xidmət edir və Rusiyanın Türk Dövlətləri Təşkilatına cəlb olunması ideyasının arxasında Kremlin siyasi maraqları dayanır”.

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, Qazaxıstan Prezidentinin belə bir təşəbbüslə çıxış etməsi Türk dünyasının birliyinin möhkəmləndirilməsinə və təşkilatın institusional inkişafına xidmət etmir:

”Əksinə, bu, təşkilat daxilində gələcəkdə fikir ayrılıqlarının yaranmasına və birliyin zəifləməsinə gətirib çıxara bilər. Xatırladım ki, Qazaxıstan Prezidenti Qəbələdə keçirilən zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətləri Təşkilatının hərbi əməkdaşlığının gücləndirilməsi və gələcəkdə hərbi blokun formalaşdırılması ilə bağlı yanaşmasına müəyyən etirazını bildirmişdi. O, təşkilatın əsasən siyasi-iqtisadi platforma kimi fəaliyyət göstərməsinin tərəfdarı olduğunu vurğulamışdı.



Bununla belə, Azərbaycan, Türkiyə və Özbəkistan arasında hərbi əməkdaşlıq və birgə təlimlər istiqamətində proseslər davam edir”.

Politoloqun fikrincə, Rusiyanın Türk Dövlətləri Təşkilatına müşahidəçi üzv kimi cəlb edilməsi təşkilatın gələcək fəaliyyəti üçün ciddi risklər yarada bilər:

”Moskva çalışacaq ki, öz siyasi və geosiyasi maraqlarını bu platforma vasitəsilə reallaşdırsın.

Nəzərə almaq lazımdır ki, Türk Dövlətləri Təşkilatının coğrafiyası Cənubi Qafqazı və Mərkəzi Asiyanı əhatə edir. Rusiya isə uzun illərdir bu regionları özünün ənənəvi təsir dairəsi hesab edir və burada nüfuzunu qorumağa çalışır.Belə bir şəraitdə Rusiyanın təşkilata daxil olması Türk Dövlətləri Təşkilatının müstəqil siyasi xəttinə mənfi təsir göstərə, həmçinin Qərb ölkələrinin təşkilata münasibətində də müəyyən narahatlıqlar yarada bilər.

Çünki Moskvanın bu platformada təmsil olunması təşkilatın geosiyasi mahiyyətini dəyişdirmək cəhdi kimi qiymətləndirilə bilər. Türk Dövlətləri Təşkilatına üzv ölkələr Rusiyanın müşahidəçi üzvlüyü məsələsinə prinsipial yanaşmalı və bu təşəbbüsə etiraz etməlidirlər. Çünki təşkilatın əsas mahiyyəti türk dövlətləri arasında siyasi, iqtisadi, mədəni və strateji əməkdaşlığın gücləndirilməsidir.

Rusiya Federasiyasının tərkibində türk xalqlarının yaşaması və ayrı-ayrı türk mənşəli subyektlərin mövcudluğu Rusiyanın bütövlükdə türk dövləti olması anlamına gəlmir. Türk Dövlətləri Təşkilatı məhz türk dövlətlərinin ortaq maraqları və milli kimliyi əsasında formalaşmış platformadır. Buna görə də onun fəaliyyətində əsas prinsip türk dövlətlərinin birliyinin qorunması və möhkəmləndirilməsi olmalıdır. Qeyri-türk dövlətlərinin təşkilata cəlb edilməsi isə bu mahiyyətə uyğun deyil”.

Vasif

"Zorakılığa məruz qalmış uşaq zorakı olacaq deyə..."

”Zorakılığa məruz qalan uşaq həmişəmi zorkılıq törədən şəxsə çevrilir? Əksəriyyət, xüsusilə də bəzi mütəxəssislər bu tip yanaşma ilə uşağa qarşı əvvəldən doğru olmayan diqanozla bir növ ”müalicə” reabilitasiay planı qurur”.

Adalet.az xəbər verir ki, bunu ”Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib. ”Mahiyyətdə isə, onların bəziləri qurban obarızında ömürlük qala bilər, yaxud zo-



rakılıqla mübarizədə ən aktiv iştirakçıya çevrilə bilər.

İstənilən halda, uşağın İntelektual, emosianal, davranış və mühitlə bağlı doğru ölüçləri müəyyən etdikdə daha uğurlu gələcəyi təmin etmək olar. Zorakılığa məruz qalmış uşaq zorakı olacaq deyə stiqma yaratmaq onu təkrar zorakılığa məruz qaymaqdır”, - deyə o, bildirib.

Sübhan

“Türkiyənin sosial şəbəkə seqmentində Prezidentin adından saxta fikirlər yayılır”



”Türkiyənin sosial media seqmentində Azərbaycan Respublikası Prezidentinin adından həqiqətə uyğun olmayan fikirlərin yayıldığı müşahidə edilir”.

Adalet.az xəbər verir ki, bu, Azərbaycan Respublikası Media və Yayım Şurasının açıqlamasında əksini tapıb.

Qeyd edilib ki, dövlət başçısının səsləndirmədiyi ifadələrin ona aid edilməsi və rəsmi mövqeyi kimi təqdim olunması ictimaiyyəti yanıltmağa xidmət edən kobud dezinformasiya nümunəsidir.

”Bir daha vurğulayırıq ki, Azərbaycan Respublikası Prezidentinin çıxışları, bəyanatları və fəaliyyəti barədə məlumatların ilkin və rəsmi mənbəyi dövlət başçısının rəsmi internet informasiya ehtiyatı və sosial şəbəkə hesablarıdır. Bu mövzuda məlumatların hazırlanması və yayılması zamanı məhz həmin mənbələrə istinad olunmalı, digər resurslarda təqdim edilən ifadə və fikirlər rəsmi mənbələrdən təsdiqlənmədən dövlət başçısına aid edilməməlidir.

Azərbaycan Respublikası Media və Yayım Şurası media subyektlərini və sosial şəbəkə istifadəçilərini məlumatların dəqiqliyinin yoxlanılmasına məsuliyyətlə yanaşmağa, təqdim olunan məlumatları paylaşmazdan əvvəl rəsmi mənbələrlə dəqiqləşdirməyə və dezinformasiyanın yayılmasına yol verməməyə çağırır”, - açıqlamada qeyd olunub.

“Şəki Yaylası”ndakı faciənin səbəbləri açıqlandı



Sentyabrın 8-də Şəki rayonu, Baş Kəldək kəndi ərazisində yerləşən ”Şəki Yaylası” Ailəvi İstirahət Mərkəzində iki şəxsin hündürlükdən yıxılaraq ölməsi faktı ilə bağlı Şəki rayon prokurorluğunda cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

Adalet.az xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb.

Bildirilib ki, istintaq zamanı hadisənin bütün hallarının araşdırılması məqsədilə çoxsaylı şahidlərin ifadələri alınıb, məhkəmə-tibbi, əməyin təhlükəsizliyinin kompleks tədqiqi, tikinti-texniki, trasoloji və fiziki-kimyəvi ekspertizalar təyin edilərək müvafiq rəylər əldə olunub, aidiyyəti dövlət qurumlarına və digər təşkilatlara sorğular verilib, habelə digər zəruri prosessual hərəkətlər həyata keçirilib.

”Aparılmış istintaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olan Ramiz Hüseynovun istirahət mərkəzini idarə etdiyi müddətdə işə vicdansız və laqeyd münasibət göstərərək üzərinə düşən vəzifələri lazımi qaydada yerinə yetirməməsi nəticəsində iki nəfərin ehtiyatsızlıqdan ölümünə səbəb olan səhlənkarlıq etməsinə əsaslı şübhələr müəyyən edilib.

İstintaq tədbirlərilə əldə olunan sübutlar əsasında, həmçinin, müəyyən olunub ki, ”Zipline” kanat yolu üçün nəzərdə tutulmuş qüllənin inşasını bu sahədə müvafiq lisenziyası və xüsusi təhsili olmayan Abasət Paşayevə şifahi qaydada həvalə edən Ramiz Hüseynov öz rəhbərliyi və birbaşa göstərişləri ilə qülləni qanunsuz inşa etdirib, qüllənin üzərindəki dəmir konstruksiyanın deformasiyaya uğraması nəticəsində kanatlarda dalğalanma yaranıb və sürüşməni təmin edən əsas zipline qurğusu kanatdan çıxıb, kustar üsulla hazırlanmış tormozlama və əlavə təhlükəsizlik vasitəsinin plastik boru hissəsinin kanata keçirilməsi səbəbindən kanatın titrəməsi nəticəsində həmin qurğunun parça hissəsi cırılıb, nəticədə, kanatdan istifadə edən Ucal Bayramov və Coşqun Məmmədzadə hündürlükdən yıxılaraq aldıqları xəsarətlərdən hadisə yerində vəfat ediblər.

Cinayət işi üzrə əməl Cinayət Məcəlləsinin 314.3-cü maddəsindən Məcəllənin 124.2 (ehtiyatsızlıqdan iki və ya daha çox şəxsi öldürmə) və 314.3-cü (iki şəxsin ölümünə səbəb olan səhlənkarlıq)maddələrinə tövsif edilib.

Noyabrın 2-də Ramiz Hüseynov Cinayət Məcəlləsinin 314.3-cü, Abasət Paşayev isə həmin Məcəllənin 124.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara müvafiq ittihamlar elan edilib.

İstintaq orqanının vəsatətləri və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatları əsasında Şəki rayon məhkəməsinin qərarları ilə təqsirləndirilən şəxslərin hər ikisi barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə ibtidai istintaq davam etdirilir”, - deyə məlumatda qeyd edilib.

Azərbaycan və Ukrayna polisindən birgə əməliyyat...

Hüquq-mühafizə orqanlarının əməkdaşları adından Azərbaycan vətəndaşlarını aldadaraq pul vəsaitlərini ələ keçirən kiberdələduzluq şəbəkəsinin beynəlxalq axtarışda olan təşkilatçıları saxlanılaraq ölkəyə gətirilib.

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin (KMBİ) Ukrayna polisi ilə birgə həmin ölkənin ərazisində keçirdiyi növbəti əməliyyat da kiberdələduzluğun beynəlxalq miqyasda təşkil olunduğunu və Azərbaycan vətəndaşlarının xaricdən idarə edilən mütəşəkkil şəbəkələrin hədəfinə çevrildiyini ortaya qoyub.

Keçirilən tədbir nəticəsində Azərbaycan vətəndaşlarının pul vəsaitlərini ələ keçirmək məqsədilə Ukraynadan idarə olunan mütəşəkkil kiberdələduzluq şəbəkəsinin fəaliyyəti ifşa edilib.

Araşdırmalarla müəyyən olunub ki, şəbəkənin fəaliyyəti Ukraynanın bir neçə şəhərində müxtəlif xidmət ofisləri adı altında yaradılmış "Call Center"lər vasitəsilə təşkil olunub. Cinayətkar şəbəkəyə yeni üzvlərin cəlb olunması məqsədilə "Telegram" platformasında informasiya texnologiyaları və müştəri xidmətləri sahəsində yüksək əməkhaqqı vəd edən iş elanları yerləşdirilib. Nəticədə bəzi ölkə vətəndaşları Ukraynada qanunsuz fəaliyyət göstərən həmin mərkəzlərə cəlb ediliblər. "Call Center"lərdə şəbəkə üzvləri xüsusi hazırlanmış danışıq ssenariləri əsasında Azərbaycan vətəndaşlarına zəng edərək müxtəlif psixoloji manipulyasiya üsullarından istifadə ediblər. Onlar özlərini hüquq-mühafizə orqanlarının, mobil operatorların, bankların və investisiya şirkətlərinin əməkdaşları kimi təqdim edərək vətəndaşlara



hesablarında şübhəli əməliyyatların aparıldığı, pullarının təhlükədə olduğu, bank kartlarının bloklanacağı və ya adlarından qanunsuz maliyyə əməliyyatlarının həyata keçirildiyi barədə yalan məlumatlar veriblər. Digər hallarda isə vətəndaşların kiberdələduzluq əməllərinin qurbanına çevrilməsi üçün yüksək gəlir vəd edən saxta investisiya təkliflərinin adından istifadə olunub.

Şəbəkə üzvləri yaratdıqları qorxu və təşviş vəziyyətindən, yaxud asan qazanc əldə etmək istəyindən istifadə edərək vətəndaşları tələsik qərar verməyə, vəsaitlərini guya təhlükəsiz hesablara köçürməyə, bank kartı məlumatlarını, SMS təsdiq kodlarını və digər məxfi şifrələrini açıqlamağa sövq ediblər.

Ukrayna Daxili İşlər Nazirliyi ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində keçirilən tədbirlərlə Kiyev şəhərində fəaliyyət göstərən qanunsuz "Call Center"lərdə işləyən 11 nəfər, o cümlədən şəbəkənin əsas təşkilatçıları kimi beynəlxalq axtarışa verilmiş Nəriman İskəndərov, Elsun Əliyev, Elşad Musayev və Elşən Şükürov saxlanılaraq Azərbaycana gətiriliblər.

Məlum olub ki, Ruslan Zakirov, Yasəf Bayramov, Elsevər Məmmədov, Dmitri Duşin və Ruslan Matveyev xaricdəki şəbəkə üzvləri ilə "Telegram" vasitəsilə əlaqə saxlayaraq kiberdələduzluq yolu ilə əldə edilən vəsaitlərin leqallaşdırılmasında iştirak ediblər. Onlar talanmış pulları istifadələrində olan bank kartı hesablarında cəmləyərək razılaşdırılmış faiz məbləğini götürdükdən sonra qalan hissəni kriptovalyutaya çevirərək xaricə göndəriblər.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Dəstə başçıları barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Saxlanılan digər şəxslərlə bağlı isə istintaq araşdırmaları aparılır.

"Şuşa artıq Qafqazın aparıcı yaşayış məntəqələrindən birinə çevrilməkdədir"

"Bu həftə Azərbaycan tarixinin ən önəmli günlərindən biri olan Şuşanın işğaldan azad olunması- Şuşa şəhəri günü qeyd ediləcək. 6 il öncə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində böyük fəxarət və qürur hissi ilə Şuşa şəhərinin işğaldan azad olunduğunu bəyan etdi. Həmin gün Azərbaycan tarixinə həmçinin Zəfər günü kimi də düşdü".



Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

"İşğal müddətində baxımsız şəhərə çevrilən Şuşa artıq Qafqazın aparıcı yaşayış məntəqələrindən birinə çevrilməkdədir. Şuşa bərpa olunur və yenidən qurulur. Öz tarixinə Zəfərdən sonra yenidən qovuşan Şuşa öz doğma sakinlərini də qarşılamaqdaddır.Zəfərdən sonra Şuşada neçə nəfər daimi məskunlaşıb?Şuşa şəhəri daxil olmaqla Şuşa rayonunda məskunlaşma davam etdirilir. Növbəti Şəhər Gününə hazırlaşan Şuşa rayonu üzrə indiyədək 420 ailə və ya 1579 nəfər daimi məskunlaşıb. Onlardan 377 ailə və ya 1411 nəfər Şuşa şəhərində yaşayır. Hazırda sözügedən rayonun Böyük Qaladərəsi kəndində 78, Kiçik Qaladərəsi kəndində isə 90 vətəndaşımız məskunlaşıb."Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramına" uyğun olaraq məskunlaşmaya start verildi. İkinci Proqram çərçivəsində isə Şuşa rayonu daxil olmaqla işğaldan azad olunan ərazilərimizdə kütləvi məskunlaşma həyata keçiriləcək", - deyə o, bildirib.

Vasif ƏLİHÜSEYN

Koronavirusa yenidən yoluxma riski nə qədərdir?

İranda COVID-19-a yoluxma hallarının artdığı, hətta xəstəlikdən ölüm faktlarının qeydə alındığı bildirilir. Məlumata görə, yayılan virusun alt variantı əvvəlkilərlə müqayisədə daha sürətlə yoluxmaya səbəb olur. Bu vəziyyət Azərbaycanda da infeksiyanın yayılma ehtimalı ilə bağlı suallar doğurur.

Adalet.az xəbər verir ki, məsələ ilə bağlı səhiyyə eksperti Adil Qeybulla bildirib ki, pandemiya başa çatsa da, COVID-19 tamamilə aradan qalxmayıb. Onun sözlərinə görə, Avropa ölkələrində, Azərbaycanda, İranda və dünyanın digər bölgələrində vaxtaşırı yoluxma ocaqları yaranır.

Ekspert pandemiya dövründə vaksinasiyadan yayınma, peyvənd əleyhinə təbliğat və saxta vaksinasiya sənədlərinin də infeksiyanın yayılmasına təsir göstərdiyini qeyd edib. O vurğulayıb ki, peyvəndlənmə yoluxma zəncirinin qırılmasında mühüm rol oynayıb.



Adil Qeybullanın sözlərinə görə, "Omikron" ştammının müxtəlif mutasiyaları hələ də yayılmaqdadır. Virusun gələcəkdə tamamilə yox olacağı, yoxsa qrip kimi hər il mövsümi şəkildə yayılacağı isə məlum deyil.

Ekspert xatırladıb ki, koronaviruslar 1960-cı illərdən insanlarda mövcuddur. SARS-CoV-1 və MERS epidemiyalarından sonra SARS-CoV-2 virusu COVID-19 pandemiyasına səbəb olub.

Onun sözlərinə görə, hava-damcı yolu ilə yayılan infeksiyanın istənilən ölkəyə keçmə ehtimalı var. Buna görə də COVID-19-un Azərbaycanda yayılması riskini istisna etmək mümkün deyil. Hazırda virusun dünyanın heç bir ölkəsində tamamilə yox olduğunu demək olmaz.

Jurnalistə xəsarət yetirən mühafizəçi necə davranmalı idi?



Xəbər verdiyimiz kimi, APA TV-nin müxbiri Sənan Bəhrəmli Bakının Nizami rayonunda yerləşən taxta bazarında baş vermiş güclü yanğın hadisəsini işıqlandırarkən özünü mühafizəçi kimi təqdim edən şəxs tərəfindən hücuma məruz qalıb.

Adalet.az xəbər verir ki, təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev hadisəyə münasibət bildirib. O, qapıda duran şəxsin jurnalistə xəsarət yetirməsinin yolverilməz olduğunu deyib:

"Jurnalisti döyümək nə deməkdir?! Mühafizəçi peşə fəaliyyətini həyata keçirən jurnalistə qarşı hər hansı bir məhdudlaşdırma, müdaxilə, maneə və fiziki qüvvə tətbiq edə bilməz. Bu qəti yolverilməzdir. Əks halda məsuliyyət yaradır. Bununla yanaşı, heç bir qurumun, müəssisənin, təşkilatın rəhbərliyinin təlimatları, göstərişləri, daxili qaydaları dövlətin qanunlarından üstün ola bilməz".

Ekspert bu cür hallarda mühafizəçinin davranış qaydalarını belə izah edib:

"Mühafizəçi soyuqqanlı davranmalıdır. Hadisə ilə bağlı jurnalistə müvafiq dövlət qurumlarının ərazidə çalışdığını, təhlükəsizliklə bağlı giriş-çıxışın məhdudlaşdırıldığını bildirməlidir. Hadisə ilə bağlı mövqe öyrənmək üçün jurnalistlərə həmin qurumun əməkdaşlarına müraciət etməli olduqlarını izah etməlidir".

Vasif

Dərsə gəlməyən şagirdlər attestat ala bilməyəcək?



Elm və təhsil nazirinin müavini Firudin Qurbanov X-XI siniflərdə geyim qaydalarına riayət etməyən və dərsə gəlməyən şagirdlərə attestat verilməsi prosesinə aydınlıq gətirib.

Adalet.az xəbər verir ki, o bu barədə APA-ya müsahibəsində münasibət bildirib. Nazir müavini qeyd edib ki, şagirdlərin yekun attestasiyası və biliklərinin qiymətləndirilməsi Nazirlər Kabinetinin 12 dekabr 2016-cı il tarixli 498 nömrəli qərarı ilə tənzimlənir: "Biliyi hər hansı səbəbdən asılı olmayaraq qiymətləndirilməyən şagirdə ümumi və ya tam orta təhsil haqqında attestat verilmir".

Angela Merkel yenidən hakimiyyətə qayıdır?

Almaniyanın Xristian-Demokrat İttifaqı (XDİ) 2027-ci ilin əvvəlində ölkənin yeni prezidentini seçəcək Federal Məclisin tərkibinə keçmiş kansler Angela Merkelin namizədliyini irəli sürməyi planlaşdırır.



Bu barədə DPA agentliyinə Şlezviq-Holşteyn parlamentindəki XDİ fraksiyasının rəhbəri Tobias Kox məlumat verib.

Merkellə yanaşı, XDİ-nin Şlezviq-Holşteyn üzrə seçicilər siyahısına Almaniyanın təhsil naziri Karin Prien, federal torpağın baş naziri Daniel Günter, eləcə də Almaniya həndbol millisinin keçmiş kapitanı Patrik Vintsek daxil edilib. Ümumilikdə, federal torpaqlar yaxın vaxtlarda öz nümayəndə heyətlərinin tərkibini müəyyənləşdirməlidirlər. XDİ/XSS bloku və Almaniya Sosial-Demokrat Partiyasından (SDP) ibarət hakim koalisiya hələlik dövlət başçısı postuna vahid namizəd barədə razılığa gəlməyib.

Almaniyanın yeni prezidenti 2027-ci il yanvarın 30-da Federal Məclis tərəfindən seçiləcək. Bu qurum 630 Bundestaq deputatından və federal torpaqların parlamentləri tərəfindən irəli sürülən eyni sayda nümayəndədən ibarətdir. Almaniyanın hazırkı prezidenti Frank-ValterŞtaynmayer qanunvericiliyə əsasən, üçüncü müddətə namizədliyini irəli sürə bilmədiyi üçün vəzifəsini tərk edəcək.

Qeyd edək ki, Angela Merkel 2005-ci il noyabrın 22-də Almaniyanın ilk qadın federal kansleri seçilib və 2021-ci il dekabrın 8-dək, ümumilikdə 16 il bu vəzifədə çalışıb. O, dörd seçki dövrü ərzində Almaniya hökumətinə rəhbərlik edib və ölkə tarixində ən uzun müddət kansler postunda qalan ikinci şəxs olub.



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

Tərif bu millətin evini yıxdı...

Bizim ən böyük "xəstəlik"lərimizdən biri tərifdir! Düşünürük ki, insanlar arasında ən yaxşı ünsiyyət vasitəsi elə tərifdir! Ən azından ona görə ki, kimisə tərifləyəndə başın heç vaxt "ağrımaz" və qulağın dinc olar! Hara gedirsən əksər insanların bir-birlərini tərifladiyini eşidirsən və görürsən! Televiziya kanallarında bir də görürsən ki, beş-altı müğənni yığışıb bir-birlərini tərifləyir.

Hansı ki, onların heç birinin istedadı, şirin səsi, səhnə mədəniyyəti yoxdur. Ağızlarını açan kimi toydan, maşından, evdən danışırlar. Bu onu tərifləyir, o da bunu! Belə verilişlərə baxanda adamın lap əti tökülür və adamın gözlərini "mazol" eləyən müğənnilərdən lap zəhləsi gedir. Müğənni oxumur ey, sanki danışır və qarğanın səsi onun səsindən yaxşıdı. Amma yanındakı "müğənni" deyir ki, sənin bal səsin var! Lap yalançının...

Bax, adam onda yanıb tökülür ey! İslam Rzayevə də de bal səsin var... Qədir Rüstəmova da de bal səsin var... Arif Babayevə də de bal səsin var. Bir toy müğənnisinə də de bal səsin var... Axı camaat kor, kar, lal deyil! Və heç kim də çörəyi qulağına yemir! Yersiz tərif qədər adamın evini yıxan ikinci bir şey yoxdur! El arasında belə bir deyim var: "Tərif yıxan evi fələk yıxmır".

Bəzi şairlər, yazıçılar da belədir! Hərənin öz əhatə dairəsi, öz "kruqu" var! Və onlar da başlayırlar birbirlərini tərifləməyə! Ancaq yazdıqları şeirlər, hekayələr, povestlər bir qəpiyə dəyməz! Burda Ramiz Rövşənin bir fikri yada düşür: "Qızıl kəlmə şeirləri yandırdılar, bir qəpiklik şeirləri tərifləyib ağladılar..." Bax, bu gün poeziyamızda və nəsrimizdə bu "xəstəlik" var, özü də sağalmayan xəstəlik!

Bir də gördün bir şairin, yaxud da bir yazıçının orta səviyyəli əsərini tanınmış yazarlar tərifləyib göyün yeddinci qatına qaldırırlar. Sən də onlara inanıb göyün yeddinci qatına qaldırılan şairin o əsərini tapıb oxuyursan, görürsən ki, hər şey adidir və qeyri-adi heç nə yoxdur.

Əgər o yazıçının pulu, imkanı varsa, hamı onu tərifləyəcək! Bir vaxtlar vəzifədə ola bir yazıçı vardı və insafən də pis yazıçı deyildi, çox istedadlı adama da kömək edirdi! Bax onda tənqidçilər onun tərifini göyün yeddinci qatına qaldırırdı! Amma indi onu yada salan yoxdu, çünki həmin vəzifə, həmin pul yoxdu! İndi ondan da yaxsı yazır ha! Bəs həmin məddahlar harda itib-batıblar!? Onlar başqa bir "yağlı" pullu adamlar axtarırlar. Vəzifədə olan adamı o qədər tərifləyirlər ki, deyirsən, yəqin bu adam peyğəmbərdi, mələkdi! Həmin adam da onu tərifləyənlərə inanır! Vəzifədən çıxanda onu tərifləyənlər yıxıb-sürüyür, hətta yeddı arxa dönənin söyürlər! Heç qoymurlar ey, bir müddət keçsin! Vəzifədə olanda növbəyə durub tərif dedikləri kimi, vəzifədən çıxanda da növbəyə durub onu söyürlər!

Bunu kim edə bilər??? Əlbəttə, yaltaq və ikiüzlü, min üzlü adamlar! Onlara adam da demək olmaz! Onlar şeytan, iblisdirlər! Burdan belə bir məntiqi nəticəyə gəlmək olar ki, səni həddindən çox tərifləyənlər sənə işi düşən yaltaqlardır. Çünki onlar sənin dostun yox, düşmənindir! Bax, özünüzü belə məddahlardan və yaltaqlardan qoruyun!!!

Dünyada öldürülən jurnalistlərin sayı açıqlandı

Dünyada öldürülən jurnalistlərin sayı 2024-2025-ci illərlə müqayisədə 20% artaraq 189-a çatıb.

Adalet.az xəbər verir ki, bu barədə məlumat UNESCO-nun hesabatında qeyd olunub.

Bildirilir ki, 2024-2025-ci illər arasında media nümayəndələrinin və kontent yaradıcılarının qətlə yetirilməsi hallarının sayı 2014-2015-ci illərdən bəri ən yüksək olub.

Sənəddə deyilir ki, təkcə ötən il son səkkiz ildə digər illərdən daha çox jurnalist öldürülüb. Bu ölümlərin əksəriyyəti silahlı münaqişələrdə, o cümlədən pilotsuz təyyarələrin hücumlarında baş verib.

Ən çox jurnalist ölümü ərəb ölkələrində, eləcə də Latın Amerikası və Karib dənizi ölkələrində qeydə alınıb: orada müvafiq olaraq 97 və 37 media nümayəndəsi öldürülüb.

UNESCO-nun məlumatlarına görə, son iki ildə ən çox jurnalist Fələstində öldürülüb - ən azı 62 media işçisi.

Sənəddə həmçinin vurğulanır ki, son iki ildə Ukraynada 12, Rusiyada isə iki jurnalist həlak olub.

Sumqayıt çörəyi ucuzlaşdı...



Bu gün bir çox çörəklərin və çörək məmulatlarının qiyməti əvvəlki vaxtlara nisbətən xeyli bahadır. Sovet dönəmində 90 qəpiyə üç çörək almaq olardı! Amma indi 90 qəpiyə bir çörək düşür.

Elə çörək var ki, biri 1 manat, 1 manat 50 qəpiyədir! Yenə şükürlər olsun ki, ölkəmizdə çörək boldur! Burda böyük şair Səməd Vurğunun bir misrası yada düşür:" Çörək bol olarsa, basılmaz vətən !" Bütün başqa ərzaq və qida məhsulları olmadan keçinmək olar, ancaq çörəksiz yox! Heç nə olmasa, təkcə çörək olsa , insan acından olmaz! Elə bil ki, mətləbdən bir qədər uzaq düşdük! Sumqayıt çörəyindən danışırdıq.

Qara, kəpəkli çörəkdən! Bu çörək digər çörəklərdən həm qiymətinə, həm də keyfiyyətlinə görə fərqlənir! Əvvəllər bu 700 qramlıq çörəyin qiyməti 1 manat idi. Sonra get-gedə bahalaşdı və gəlib qiymət 1 manat 25 qəpiyə çatdı. Son günlər isə bu bərəkətli çörəyin qiyməti ucuzlaşıb, 1 manat 14 qəpik olub. Təzə qiyməti görən alıcılar ucuzlaşmaya görə çox sevinir! Təki çörək bol və ucuz olsun! Bunun ilk növbədə hamıya xeyirli var!!!

55 nömrəli marşrut...



Bu gün Bakıda bir çox marşrutlarda fəaliyyət göstərən avtobuslar fiziki və mənəvi cəhətdən köhnəlib. Başqa sözlə demiş olsaq həmin nəqliyyat vasitələri istismar müddətini başa çatdırıb.

Bu isə o deməkdir ki, həmin avtobuslarda sərnişinlərə nümunəvi xidmət göstərilmir! Belə marşrutlardan biri də Bakıxanov qəsəbəsindən Yeni Günəşliyə işləyən 55 nömrəli avtobuslardır! Heç şübhəsiz ki, onlar köhnə olduğuna görə, tez- tez xətdə sıradan çıxır və yarıyolda qalır. Elə məhz sərnişinlər də bundan narazılıq edirlər.

Onlar deyirlər ki, bu marşrutda işləyən avtobuslarda yayda istidən, qışda soyuqdan əziyyət çəkirik. Yaxşı olar ki, bu avtobuslar yeniləri ilə əvəzlənsin, yoxsa biz əziyyət çəkirik. Üstəlik də maşınlar sıradan çıxanda aradakı interval uzanır. Həmin marşrutun dispetçeri isə deyir ki, yaxın zamanlarda xəttə yeni avtobuslar buraxılması nəzərdə tutulur. Bir sözlə, çalışacağıq ki, sərnişinlərə yaxşı xidmət göstərək!!!

Sürücü sükan arxasında yatdı...



Heç kimə sirr deyil ki, bəzi sürücülər yorğun halda sükan arxasında əyləşir , uzaq məsafəyə ya sərnişin, ya da yük aparır! Bu zamanda sürücü sükan arxasında yatanda ağır qəzalar qaçılmaz olur!

Bu yaxınlarda Bakı- Qazax yolunun Kürdəmirdən keçən hissəsində Bakıya xurma gətirən yük maşının sürücüsü sükan arxasında yatıb və nəticədə nəqliyyat vasitəsi idarəetmədən çıxaraq aşıb! Xurma yola tökülüb!

Sürücü və maşındakı sərnişin ağır xəsarət alıb! Ona görə də yorğun halda sürücülər sükan arxasında əyləşməməli, yorğunluq hiss etdikdə avtomobili yolun təhlükəsiz yerinə çəkib saxlamalıdır! Bu barədə Baş Dövlət Yol Polisi İdarəsi mütəmadi olaraq sürücüləri maarifləndirir və onlara xəbərdarlıq edir!

Bir daha yol polisi bildirir ki, sükan arxasında hər bir sürücü diqqətli olmalı, yol hərəkəti qaydalarına əməl etməlidir!Bax onda belə ağır qəzalar ən azından çox olmaz!

Emil FAİQOĞLU



"Putin Donald Trampı dinləsə də, Donbasın işğalı fikrindən vaz keçməyəcək..."

"Çində noyabr ayının ortalarında Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq (APEC) sammiti keçiriləcək. Sammitə Rusiya və ABŞ Prezidentləri də qatılacaqlar. Rusiya Prezidenti Vladimir Putin 2017-ci ildən buy ana ilk dəfə Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq samiitində iştirak edəcək. Sammit çətçivəsində Rusiya, ABŞ və Çin liderləri - Vladimir Putin, Donald Tramp və Si Cinpin arasında üçtərəfli görüş planlaşdırılır. Rusiyada bəzi şərhçilər Çindəki gələcək görüşü "yeni Yalta" adlandırıblar. Yəni rusiyalı ekspertlərin fikrincə, 3 böyük dövlətin lideri guya Çində dünyanın bölüşdürülməsini müzakirə edəcəklər".



Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloq bildirib ki, İkinci Dünya Müharibəsinin bitişinə az qalmış ittifaq dövlətlərin - ABŞ, Böyük Britaniya və SSRİ liderləri Krımın Yalta şəhərində müzakirələr aparmış, müharibə sonrası dağılan Avropanın gələcəyini müəyyənləşdirmişdilər:

"Ancaq bu dəfə Böyük Britaniyanı Çin əvəz edəcək. Pekinin üçtərəfli görüş vasitəsilə Çinin supergüc statusunu və diplomatik çəkisini nümayiş etdirmək, eyni zamanda özünü etibarlı qlobal qüvvə kimi təqdim etmək istəyir. Əlbəttə, əgər 3 lider dünyada və bölgədə sabitliyin formalaşdırılması üçün razılığa gəlsələr, bu hamının xeyrinə olar. Ancaq Rusiya və Çinin gözləntiləri ABŞ-ınkından fərqlidir. Kreml Ukraynanın parçalanmasına, Pekin isə Tayvanın Çinə birləşməsinə ABŞ-ın mane olmamasını istəyir. Bu isə sülh və sabitlik deyil, dünyada xaosun davam etməsi deməkdir".

Onun sözlərinə görə, digər tərəfdən Ukraynanın gələcək taleyinin müzakirəsində Avropa da iştirak etmək istəyir:

"Çünki, Ukrayna mövzusunun birbaşa Avropaya dəxli var. Donald Tramp üçtərəfli görüşdə Rusiya-Ukrayna müharibəsinin dayandırılması əhəmiyyətindən danışacaq. Vladimir Putin Donald Trampı dinləsə də, Donbasın işğalı fikrindən vaz keçməyəcək. Si Cinpin isə üçtərəfli görüşdə Ukrayna mövzusina maraq göstərməyəcək. Pekin Ukraynanın gələcəyinə görə məsuliyyət daşımaq niyyətində deyil. Si Cinpin müharibənin zorla dayandırılması və Vladimir Putinin Rusiyada mövqelərinin zəifləməsini istəmir. Pekin Rusiya-Ukrayna müharibəsində neytral olduğunu iddia etsə də, Moskvaya qarşı birbaşa tənqiddən çəkinir və Putinin müharibə iqtisadiyyatını dəstəkləməyə kömək etmək üçün Rusiya neft və qazını almağa davam edir. 1945-ci ildə keçirilən Yalta konfransı Avropanın gələcəyini müəyyənləşdirdi. Çində üç liderin görüşü isə Ukraynanın və ya Tayvanın gələcəyini müəyyənləşdirə bilməyəcək. Liderlər müxtəlif mövzularda fikir mübadiləsi aparıb dağılışacaqlar. Donald Trampın Çindəki müzakirələrdəki mövqeyinə sammitdən əvvəl Konqresə keçiriləcək ara seçkilərinə nəticəsi də təsir edəcək".

Vasif ƏLİHÜSEYN

24 gün meteor yağışı müşahidə ediləcək

Noyabrın 6-dan 30-dək Leonid meteor yağışı müşahidə ediləcək.

Bakı Dövlət Universitetinin (BDU) Fizika fakültəsinin Astrofizika kafedrasından Adalet.az-a verilən məlumata görə, meteor yağışının maksimumu noyabrın 18-də Bakı vaxtı ilə saat 03:45-də gözlənilir.

Bildirilib ki, bu zaman saatda təxminən 15 meteorun müşahidə olunacağı proqnozlaşdırılır. Azərbaycan ərazisində Leonidləri müşahidə etmək üçün ən əlverişli dövr noyabrın 17-dən 18-nə keçən gecə saat 02:00-dan sübhədək olan müddətdir. Maksimuma yaxın saatlarda Ayın batması zəif meteorların görünməsi üçün də nisbətən əlverişli şərait yarada bilər. Qeyd olunub ki, Leonidlər yüksək sürətləri ilə seçilir. Onların Yer atmosferinə daxilolma sürəti təxminən 71 km/s, yaxud saatda 255 min kilometr təşkil edir. Leonidlərin radiantı, yəni meteorların səmada zahirən çıxdığı nöqtə Şir (Leo) bürcündə yerləşir. Meteor yağışının adı da məhz bu bürclə əlaqədardır. Leonidlər astronomiya tarixində güclü meteor fırtınaları ilə də tanınır.

Xüsusilə 1833, 1866, 1966, 1999-2002-ci illərdə qeydə alınan intensiv hadisələr böyük elmi marağa səbəb olub.

Əraqçi: Hörmüz boğazı açılandan sonra nüvə danışıqları mümkündür

İranın Hörmüz boğazı ilə bağlı şərtləri qəbul olunsa, Atom Enerjisi üzrə Beynəlxalq Agentliklə (AEBA) əməkdaşlıq və nüvə danışıqları mümkündür.

Adalet.az xəbər verir ki, bu barədə İranın xarici işlər naziri Abbas Əraqçi "Al Jazerra" telekanalına müsahibəsində bildirib.

"İran Nüvə Silahının Yayılmaması haqqında Müqavilənin (NPT) üzvüdür və həmişə NPT çərçivəsində öz öhdəliklərinə sadiq qalıb. Amma agentliyin (AEBA-red.) nəzarətində olan nüvə obyektlərimiz hərbi hücuma məruz qalıb. Bu, amerikalılar və İsrail tərəfindən keçilən böyük bir qırmızı xətt idi. Təbiidir ki, bu məsələ agentliklə münasibətlərimizin pozulmasına səbəb olub", - Əraqçi "Telegram" kanalında müsahibədən sitat gətirib.



Onun sözlərinə görə, İranla AEBA arasında qeyri-müəyyənliklər var: "Hücuma məruz qalmış obyektlərin yoxlanılmasına gəldikdə isə, agentliyin heç bir protokolu yoxdur. Bu obyektlərin necə yoxlanılmalı olduğunu müəyyən edən üsul da mövcud deyil. Buna görə də agentliklə aramızda ortaq anlaşmanın yaranacağı, narahatlıqlarımızın aradan qaldırılacağı və yenidən normal əməkdaşlıq imkanının yaranacağı bir nöqtəyə çatmaqdan çox uzağıq.

Bu, Hörmüz boğazının açılması mərhələsini geridə qoyduqdan sonra müzakirə oluna biləcək mövzulardan biridir". İranın XİN başçısı bildirib ki, AEBA nüvə razılaşmasında müəyyən rol oyanaya bilər: "Lakin biz iki razılaşmadan danışırıq; Hörmüz boğazının açılmasının öz şərtləri var və bunun nüvə məsələsinə heç bir aidiyyəti yoxdur.

İkinci mövzu, İranın nüvə proqramı ilə bağlı razılaşmadır ki, onun da özünəməxsus şərtləri var. Əvvəlcə etimad yaradılmalıdır".

O bildirib ki, Hörmüz kimi, nüvə razılaşması da böyük mürəkkəbliklərə malikdir: "Biz 2015-ci ildə iki il yarım danışıqlar apardıq və bunun nəticəsi 104 səhifəlik bir sənəd olub. İndi bəlkə də daha qısa danışıqlar aparmaq mümkündür, lakin bu danışıqlar asan danışıqlar olmayacaq.

Əgər etimad yaranarsa, amerikalılar şərtlərimizi qəbul edərlərsə və Hörmüz boğazı açılarsa, mənim fikrimcə, bizim və onların razılaşacağı mövzularda gələcək danışıqlara yol açacaq bir etimad mühiti yaranacaq".

Xatırladaq ki, Əraqçi Hörmüz boğazının da hansı şərtlərlə açıla biləcəyini açıqlayıb.

Avropanın ən çox axtarılan narkobaronuna görə rekord mükafat təklif edildi

Niderland beynəlxalq kokain ticarətində əsas fiqur hesab edilən və illərdir istintaqdan gizlənən Jos Leijdekkersin tutulmasına səbəb olan məlumata görə rekord mükafat elan edib.

Adalet.az xəbər verir ki, Afrikanın Syerra-Leone bölgəsində olduğu düşünülən Leijdekkers, onun siyasi dairələrlə əlaqələrinə dair iddialar ətrafında davam edən fərziyyələrin mövzusudur, həm Hollandiyada, həm də Belçikada aldığı ağır həbs cəzaları ilə yadda qalıb.

Niderland hökuməti Avropanın ən çox axtarılan narkotik ticarətçilərindən biri olan Jos Leijdekkersin tutulmasına səbəb olan məlumata görə mükafatı 2 milyon avroya qədər artırıb. Niderland Prokurorluğunun 2 noyabr bazar ertəsi günü verdiyi açıqlamada bildirilir ki, beynəlxalq kokain ticarətində əsas oyunçu hesab edilən "Bolle Jos" (Fat Jos) kimi tanınan Leijdekkersin tutulması təhlükəsizlik qüvvələri üçün əsas prioritetdir.

Əvvəllər 200.000 avro olaraq təyin edilən mükafatın on qat artırıldığı və şübhəlinin tutulmasına səbəb olan məlumat verənlərin şəxsiyyətinin gizli saxlanılacağı açıqlanıb. Hollandiya hakimiyyəti 35 yaşlı Leijdekkersin Qərbi Afrika ölkəsi Syerra-Leonedə olduğuna düşünür. Jos Leijdekkers Avropada mütəşəkkil cinayətkarlıq və narkotik qaçaqmalçılığı ilə bağlı araşdırmalarda ən çox axtarılan şəxslərdən biridir. Rotterdam Məhkəməsi Leijdekkersə 2024-cü ildə təxminən 7000 kiloqram kokain daşınmasında, silahlı soyğunçuluqda və qətl sifarişində iştirak etdiklərinə görə qiyabi olaraq 24 il həbs cəzası verib.

Belçikada keçirilən ayrı bir məhkəmə prosesində Leijdekkers 79 illik həbs cəzası alıb. Hollandiya hakimiyyəti qaçağın beynəlxalq narkotik qaçaqmalçılığından on milyonlarla avro qazandığını düşünür.

Leijdekkersin Sierra Leonedə olması iddiaları, ölkədəki yüksək vəzifəli siyasi



xadimlərlə birlikdə olduğunu göstərən foto və videoların ortaya çıxmasından sonra diqqət çəkib. Sierra Leone prezidenti Julius Maada Bionun həyat yoldaşı Fatima Bio tərəfindən sosial mediada paylaşılan şəkillərdə, prezidentin qatıldığı dini mərasimdə Leijdekkersə bənzəyən bir şəxs təsvir edilib. Bu görüntülər narkotik qaçaqmalçısının ölkədəki siyasi dairələrlə əlaqələrinin ola biləcəyi ilə bağlı fərziyyələri gücləndirir. Həmçinin, Leijdekkersin Prezident Bionun qızı ilə yaxın əlaqələri olduğu iddia edilir. Lakin təkcə foto və videolar siyasi qoruma iddialarını təsdiqləmir. Hollandiya hakimiyyəti, Leijdekkersin Sierra Leonedə 2024-cü ilin ortalarından bəri mövcudluğundan xəbərdar olduqlarını bildirib. Prokurorluq onun tutulması üçün beynəlxalq əməkdaşlığın davam etdiyini açıqlayıb. Leijdekkersin harada olduğu və ya səyahət planları və beləliklə, onun tutulmasına səbəb olan məlumat verən hər kəsə mükafat təklif ediləcəyi bildirildi.Səlahiyyətlilər məlumat verənlərin şəxsiyyətlərinin və paylaşdıqları məlumatların Sierra Leone hakimiyyəti də daxil olmaqla üçüncü tərəflərlə paylaşılmayacağını açıqlayıblar.

Leijdekkersin adı 2019-cu ildə Amsterdamda yoxa çıxan Naima Cillalin taleyi ilə bağlı istintaqda da hallanır. Avropolun məlumatına görə, Cillal Amsterdamda nəqliyyat vasitəsinə mindikdən sonra yoxa çıxıb. İstintaq zamanı ələ keçirilən şifrələnmiş mesajlarda Cillalin yoxa çıxmasında Leijdekkersin əhəmiyyətli rol oynadığını göstərən dəlillər olduğu bildirilir. Marengo istintaqı zamanı ələ keçirilən telefonda Cillala məxsus olduğu güman edilən fotoşəkillər tapılıb. Bu görüntülərə əsasən, Avropol Cillalin işgəncəyə məruz qalıb öldüyü ehtimalını nəzərdən keçirir. Lakin Cillalin ölümü və Leijdekkersin hadisədəki rolu ilə bağlı iddialar ayrıca istintaqın bir hissəsi kimi nəzərdən keçirilir.

Vasif ƏLİHÜSEYN

Dünyanın sonu, yanğınlar və böhranlar: Nostradamusun 2027-ci il üçün proqnozu

Bəzi insanlar 2027-ci ilin meşə yanğınları, iqtisadi böhranlar və hətta dünyanın sonu ilə nəticələnə biləcəyini iddia edirlər - bu, guya 1566-cı ildə vəfat etmiş məşhur görücü Nostradamusun proqnozlarından irəli gəlir.

Adalet.az-ın məlumatına görə, Nostradamusun peyğəmbərliklərinin müasir şərhləri həmişə gerçəkləşmir. Lakin onun bəzi davamçıları bu barədə mübahisə etməyə davam edirlər. Bir şərhdə ekstremal hava şəraiti və meşə yanğınları barədə xəbərdarlıq edilir. Bunlar XI əsrin 27-ci dördlüyündə qeyd olunur və bu da bəzilərinin bu hadisələri 2027-ci illə əlaqələndirməsinə səbəb olur. Mistikin əsərindən başqa bir parça mümkün iqtisadi böhran barədə xəbərdarlıq kimi izah olunur. Bu, həmçinin 2028-ci ildən əvvəl mümkün maliyyə çöküşü ilə əlaqələndirilir. Bu nəzəriyyə ABŞ-ın milli borcunun 40 trilyon dolları keçdikdən sonra ortaya çıxıb. Məqalədə həmçinin qeyd olunur ki, Nostradamus öz peyğəmbərliklərində nə 2027-ci ili, nə də 2026-cı ili açıq şəkildə qeyd etməyib. Məsələn, 27 rübaidən bəziləri əvvəllər onun davamçıları tərəfindən Yaxın Şərq və Fransanı əhatə edən genişmiqyaslı dəyişiklikləri proqnozlaşdıran kimi şərh olunub. "The Times of India" Nostradamusun Müqəddəs Malaxinin "Papaların peyğəmbərliyi" ilə müqayisə edən bir nəzəriyyə haqqında yazıb. Bu nəzəriyyə Papa Leo XIV-ün 2027-ci ildə son papa ola biləcəyi ilə bağlı fərziyyələri gücləndirib. "Sonuncu dövrdə taxta çıxan böyük aslan (ingilis dilində Leo) / Od və daşqınla bürüyən bir dünyaya rəhbərlik edəcək, / Yer insanların ayaqları altında titrəyəndə və köhnə inanc toz halına gələndə" peyğəmbərlikdə deyilir.

Qeyd etmək lazımdır ki, mistikin əsərlərinin əvvəlki şərhlərində Nostradamusun 2025-ci il üçün dünyanın sonunu da proqnozlaşdırdığı iddia edilib.

Əmlakın könüllü verilməsi hansı hallarda dələduzluq hesab olunur?

Ali Məhkəmədən izah

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasında külli miqdarda ziyan vurmaqla törədilmiş dələduzluq cinayəti üzrə məhkum edilmiş şəxsin kassasiya şikayətinə baxılıb.

Adalet.az xəbər verir ki, işin hallarına əsasən, daşınmaz əmlakın alqı-satqısı ilə məşğul olmuş şəxs ər-arvad arasında yaranmış boşanma və əmlak mübahisəsindən istifadə edərək qadına məxsus mənzili, avtomobili və pul vəsaitlərini aldatma yolu ilə ələ keçirib.

Belə ki, 2021-ci ildə Bakı şəhərində yerləşən mənzilin satışına vasitəçilik etmək üçün ona müraciət edən şəxsin həyat yoldaşı ilə boşanma prosesində olduğunu və tərəflər arasında əmlak bölgüsü ilə bağlı mübahisə yarandığını öyrənib.

Bundan sonra həmin şəxs qadınla ayrıca görüşərək guya ərinin onu aldadıb mənzilini və avtomobilini ələ keçirmək niyyətində olduğunu bildirib.

Qadının etimadını qazanan şəxs əmlakların məhkəmə mübahisəsi başa çatanadək müvəqqəti olaraq başqa şəxslərin adına rəsmiləşdirilməsini təklif edib. O, məhkəmə prosesi yekunlaşdıqdan sonra həmin əmlakların yenidən qadının mülkiyyətinə qaytarılacağını vəd edib.

Qadın bu vədlərə inanaraq mənzilin başqa şəxsin adına rəsmiləşdirilməsinə razılıq verib. Lakin sonradan həmin mənzil onun məlumatı və iştirakı olmadan üçüncü şəxsə 100 min manata satılıb. Mənzilin satışından əldə olunan vəsait isə qadına qaytarılmayıb.

Oxşar üsulla qadına məxsus, bazar dəyəri 26 min manat olan "Hyundai IX-35" markalı avtomobil də əvvəlcə yaxın qohumunun adına rəsmiləşdirilib, daha sonra etibarnamə əsasında başqa şəxsə satılıb. Avtomobilin satışından əldə olunan vəsait də mülkiyyətçiyə verilməyib.

Bundan əlavə, təqsirləndirilən şəxs mənzilin rəsmiləşdirilməsi, notariat xərcləri və məhkəmədə qadının xeyrinə qərar çıxarılmasına köməklik göstərilməsi adı ilə müxtəlif vaxtlarda ümumilikdə 9800 manat pul alıb. Nəticədə zərərçəkmiş şəxsə ümumilikdə 163 800 manat maddi ziyan vurulub.

Cinayət işi üzrə həmçinin müəyyən edilib ki, həmin şəxs digər vətəndaşdan torpaq sahəsinə çıxarış alınmasına köməklik göstərmək adı ilə 5000 manat, başqa bir vətəndaşın qızını işə düzəltmək vədi ilə 2000 manat, avtomobil satmaq adı ilə isə 1800 manat pul alaraq verdiyi vədləri yerinə yetirməyib.

Birinci instansiya məhkəməsinin hökmü ilə şəxs Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə təqsirli bilinərək 7 il müddətinə azadlıqdan məhrum edilib, əsas zərərçəkmiş şəxsin xeyrinə 163 800 manat maddi və 5000 manat mənəvi zərərin ödənilməsi qərara alınıb. Bakı Apellyasiya Məhkəməsi isə hökmü dəyişdirilmədən saxlayıb.

Məhkum kassasiya şikayətində əsas zərərçəkmiş şəxslə bağlı cinayət epizodu üzrə özünü təqsirli bilməyərək mənzilin qadının razılığı ilə faizli borc alınması məqsədilə başqa şəxsin adına rəsmiləşdirildiyini, mənzil və avtomobilin satışında isə yalnız vasitəçi kimi iştirak etdiyini bildirib. O, digər cinayət epizodları üzrə təqsirini qəbul edərək apellyasiya instansiyasının qərarının ləğv olunmasını və işə yenidən baxılmasını xahiş edib.

Ali Məhkəmənin Cinayət kollegiyası kassasiya şikayətinin dəlillərini araşdıraraq qeyd edib ki, dələduzluq cinayətinin əsas xüsusiyyəti zərərçəkmiş şəxsdə həqiqətə uyğun olmayan təsəvvür yaratmaqla və ya onun etimadından sui-istifadə etməklə əmlakın ələ keçirilməsidir.

Məhkəmə kollegiyasının mövqeyinə görə, zərərçəkmiş şəxsin əmlakın başqa şəxsin adına rəsmiləşdirilməsinə razılıq verməsi həmin əmlakın sonradan onun iradəsindən kənar satılmasına və satışdan əldə olunan vəsaitin başqaları tərəfindən götürülməsinə razılıq kimi qiymətləndirilə bilməz.

Hazırkı işdə qadının razılığı əmlakların müvəqqəti olaraq başqa şəxslərin adına keçirilməsi və sonradan geri qaytarılması barədə verilmiş vədlər əsasında formalaşıb. Buna görə də belə razılığın mövcudluğu aldatma və etibardan sui-istifadə yolu ilə əmlakın ələ keçirilməsini istisna etmir.

Ali Məhkəmə vurğulayıb ki, araşdırılmış sübutlar məhkumun rolunun yalnız vasitəçilik fəaliyyəti ilə məhdudlaşmadığını təsdiqləyir. O, mənzilin başqa şəxsin adına rəsmiləşdirilməsini təşkil edib, sonrakı satış prosesində iştirak edib və borc məbləği ilə faiz ödənişi çıxıldıqdan sonra qalan pul vəsaitini əldə edib.

Avtomobilin satılması ilə bağlı şahid ifadələri də məhkumun alıcı ilə əlaqə saxladığını, satış qiymətini müzakirə etdiyini, rəsmiləşdirməni təşkil etdiyini və satışdan əldə olunan vəsaiti götürdüyünü göstərib. Avtomobilin qadının tapşırığı və mənafeyi naminə satılmasını təsdiqləyən sübutlar isə müəyyən edilməyib.

Məhkəmə kollegiyası bildirib ki, əmlakların müvəqqəti olaraq başqa şəxslərin adına keçirilməsi barədə vədlər verilməsi, həmin vədlərlə zərərçəkmiş şəxsin etimadının qazanılması, əmlakların sonradan onun iradəsindən kənar özgəninkiləşdirilməsi və əldə olunan vəsaitin məhkum tərəfindən götürülməsi bir-biri ilə əlaqəli şəkildə qiymətləndirilməlidir.

Ali Məhkəmə hesab edib ki, aşağı instansiya məhkəmələri tərəfindən sübutlar qanunvericiliyin tələblərinə uyğun araşdırılıb və qiymətləndirilib, məhkumun hərəkətlərinin dələduzluq kimi tövsif edilməsi düzgün olub.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

PAYIZI ŞƏRƏFLƏNDİRƏN ZƏFƏR

Söhbət böyük qələbəmizdən gedir

Vaxt, zaman öz işindədir. Heç kimi gözləmir, heç kimdən izin istəmir. Necə deyərlər, sular axır, gözümüz baxır. Elə mən də bu axan suyun, yəni zamanın bir nöqtəsində özümə yer seçib müşahidə edirəm. Dərk etməyə, yaddaşıma hopdurmağa, bildiklərimlə müqayisə aparmağa çalışıram. Olmuşlarla indi olanları və olacaqları bir araya gətirmək istəyirəm. Öncə bu günümüzə, daha doğrusu, hər bir insanın içərisində olduğu fəslə diqqəti çəkmək istəyirəm. Adətən biz payıza biraz fərqli yanaşırıq. Onu qışın astanası sayırıq və hətta bəzən bu fəsli qınayırıq da. Xüsusilə yarpaq tökümü ilə bağlı...

Etiraf ertməliyəm mən özüm də sevməmişəm payızı. Onun yarpaq tökümünü ömrün payızı ilə əlaqələndirmişəm. Bu nə qədər uğurlu bir müqayisədir, ya əksinə, deyə bilmərəm, amma bütün hallarda ömrün payızı həm niskil, həm kövrəklik, həm də biraz özünəqapanma təlqin edir adamda. Bax, bu səbəbdən payızı qışın həm bünövrəsi, həm də onu gətirən, onu qidalandıran, bəhrələndirən bir fəsil saymışam. Bu boya tünd də olsa mənimçün belədir. Lakin...

30 il acısını yaşadığım, yurdda yurdsuz olduğum, vətəndə vətənsiz yaşadığım unudulmayacaq bir tarixdi. O tarixin hər anı, hər günü mənə və mənim kimi minlərlə insana nələr yaşatmadı ki. Sadəcə içimizdə bir qəribə işıq közərirdi. O işıq da bizə hər söhbətimizin hər işimizin əvvəlində pıçıldayırdı:

- Lazım gəlsə... İnşallah... Tezliklə... və s. Bax bu sözlər 30 il dilimizi qabar etdi. Amma içimizdəki işığı sönməyə qoymadı. Və günlərin birində...

Həmin o dediyim "günlərin birində" gəlib payız fəslinə düşdü. Sanki payız yaza çevrildi, yay donu geydi. Təkcə üz-gözümüz yox, ürəyimiz də güldü. Ruhlar da sevindi. Sahiblərini gözləyən bağlar da, dağlar da, çaylar da, bulaqlar da, yollar, izlər də, hətta oradakı duman, çən də sevindi. Bu boyda sevinc, bu boyda şadyanalıq dünyanın heç bir yerində yaşanmamışdı. Özü də payızda!

Bəli, 2020-ci ilin payızında, yəni sentyabrın 27-dən noyabrın 8-nə kimi bütün Azərbaycan gecə-gündüz ayaq üstə dayandı. Dünyanın dörd bir tərəfində "Azərbaycan" adına sevinənlər də ayaq üstə dayandılar. Çünki Azərbaycan ordusu tarix yazırdı. Azərbaycan əsgəri 30 il yağmalanan torpaqlarımızı geri alırdı. Bayrağımız Şuşada, Zəngilanda, Füzulidə, Hadrutda, Qubadlıda, Cəbrayılda. Xocavənddə... dalğalanırdı. Bayrağımız Xudafərinə sancılmışdı. Bu xoşbəxtlik payıza təsadüf edirdi və biz artıq ömrün payızını yox, həsrətin, kədərin, ağrı-acının, vətəndə vətənsizliyin son payızını yaşayırdıq!.. Həmin vaxt içimdə Xankəndinə sancılacaq bayrağımızın tərənnümü puçurlayırdı.

Bu payız ömrümün Baharı oldu,
Gözü aydın olsun torpağın, daşın!..
QƏLƏBƏ!- əbədi vüqarı oldu -
Sildi Qarabağım gözünün yaşın!..

Səksəndi bu yurdun kövrək ürəyi,
Açdıq müjdə ilə nurlu sabahı!
Çıxardıb əynindən işğal köynəyin -
Xanın kəndi oldu İLHAM şəhəri!

Axır ki, duruldu yurdun səması -
Dualar selləndi şəhid adına!
Əsgər oğulların Vətən anası -
Təbəssüm sarıdı yaralarına!

Qürura bələndi Vətən büsbütün ,
Ürəyim fərəhdən dalğa yarırdı...
Bayraq da yerinə qayıtdığıyçün -
Sonsuz fəxarətlə dalğalanırdı!!!

Bəli, Azərbaycan əsgəri tarix yazdı. Dəmir yumruq o tarixin silinməyən möhürü oldu. Hər kəs xəyalına gətirmədiyini gerçəklikdə gördü və şahidinə çevrildi. Və artıq birmənalı olaraq hər kəsin ürəyində növbəti qələbənin, yəni əbədi qələbənin işığı şölə saçdı. İnandıq ki, 44 günə sərhədlərimizi bərpa edən ordumuz məhz Ali Baş Komandanın rəhbərliyi altında antiterror əməliyyatı ilə Xankəndinə də bayrağımızı sancacaq. Biz Laçında da, Ağdamda da, Kəlbəcərdə də, Ağdərədə də var olduğumuzu göstərəcəyik. Və göstərdik də!

Bəli, bu bir yaşanmış tarixdir. Baxmayaraq ki, bu tarixin təsdiqi, doğum günü payız fəslinə düşür. Demək "hər fəslin öz gözəlliyi və özəlliyi var" deyənlər yanılmayıblar. Bizim Zəfər günü-



müzün doğum tarixi də özəlliyi və gözəlliyi olan payızla bağlıdır. Bərəkətli payızın sevinci yurdumuzdan, xalqımızdan heç vaxt əskik olmasın! Şəhidlərimizin Cənnətdə olan ruhu şad olsun, qazilərimizin isə canları sağlam olsun!

Və P.S. ***Bu gün hər birimizin içində hələ də 1988-ci ilin qarlı-çovğunlu günlərində xüsusi amansızlıqla evlərindən qovulmuş, doğulduğu yurddan didərgin salınmış və bu günə qədər də Zəngəzur niskili ilə yaşayan doğmalarımızın yaraları sızıldayır.***

Bu doğma yara dərmanını arayır, təbibinin qərar verəcəyi anı gözləyir. Bu anı şəhid ruhları da, şəhid ağrısını sinəsində daşıyan analar da yaşayır. Və bilirlər ki, gec-tez Zəngəzur yaramız da sağalacaq. Nə qədər ki, ordumuz və Dəmir Yumruğumuz var, biz Zəngəzurun da büsatını görəcəyik, şadlığını, şadyanalığını yaşayacağıq. Bu həm də şəhid analarının müqəddəs dualarından biridir.

Başını söykəyib gecənin üstə,
Səhərin ilməsin çözür bir ana...
Ömründən ağrılı keçənin üstə
Gözündən damanı düzür bir ana...

Niskil göyəribdi qırışlarında,
Dilinin ucunda "Şəhid" bitibdi...
Yurdun döyüş gedən qarışlarında -
Qəlpə yarışında gülüş itibdi...

Saçının sol üzün sığallı tutub,
Amma sağ üzünü ahla hörübdü...
Çoxdan yuxuların sayın unudub, -
Oğlunu Şuşadan dönən görübdü...

Bayrağa bükdüyü şəkillə onun
Söhbəti uzanır həmin anacan...
Oğul göstərərək Zəfərin yolun -
Deyir: Biz qalibik, şükr et, anacan!

Bayrağa bükdüyü şəkillə söhbət
Uzanır "Qırx dörd gün əfsanəsi" tək...
O, möhlət istəyir Allahdan, möhlət -
Bayraq Zəngəzurda ucalsın, görək!..



Əntiqə KƏRİMZADƏ


Ana obrazları ilə sevilən aktrisa

Doğru deyiblər xarakter insanın cizgilərinə yansıyır. Mülayim xasiyyətli adamın cizgiləri mütləq ki, daha kövrək, daha zərif olur. Necə deyərlər, məlul baxışları göz oxşayır. Bu insanlar sırasında tanınmış teatr və kino aktrisası Elmira Şabanova da yer alır.

O, 1940-cı il noyabrın 1-də Bakıda ziyalı ailəsində anadan olub. Onun ziyalı ailəsində doğulmağı, əlbəttə, həyatın bütün anlarında aktrisanın taleyində özünü biruzə verib.

E.Şabanova orta məktəbi bitirdikdən sonra 1958-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsinə qəbul olub. Aldığı biliklə kifayətlənməyən aktrisa 1969-cu ildə isə həmin institutun rejissorluq fakültəsini bitirib. Sözsüz ki, aldığı təhsil olun kino və teatr fəaliyyətində özünü göstərir

Hələ institutun 1-ci kursunda rejissor Rüfət Şabanovla ailə qurub. E.Şabanova 2 filmə çəkildikdən sonra həyat yoldaşı aktrisaya filmlərdə çəkilməyi qadağan edib. Bu qadağalara rəğmən, aktrisa yenidən kinoya qayıdır və xüsusilə 80-ci illərdə bir-birinin ardınca kino, radio və televiziyada maraqlı obrazlar yaradır.



Müsahibələrinin birində atası və həyat yoldaşının qadağalarına etiraz edə bilmədiyinə görə çox ağladığını deyirdi.

Bir zaman gəlir ki, Elmira Şabanova təhsil aldığı ali məktəbdə müəllim kimi fəaliyyət göstərir. O, 1962-1997-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda müəllim və dosent kimi çalışır.

Uzun illər pedaqoji fəaliyyətlə məşğul olan aktrisa 1977-ci ildən etibarən yenidən kino sənətinə qayıdıb. Aktrisa səhnənin onun üçün önəmli məkan və müqəddəs yer olduğunu dəfələrlə müsahibələrində qeyd edib.

O, "Azərbaycanfilm" kinostudiyasında istehsal olunan 30-a yaxın bədii filmdə çəkilib. Aktrisa "Qəm pəncərəsi" filmində Həmidə xanım, "Təhminə"də Aliyə, "Fəryad"da İsmayılın anası, "Ötən ilin son gecəsi"ndə Həmidə və digər yaddaqalan obrazları canlandırıb.

Elmira Şabanova Azərbaycan kino sənətində əsasən ana obrazları ilə tamaşaçıların rəğbətini qazanıb. Onun yaratdığı obrazlar səmimiliyi və təbiiliyi ilə seçilir. Daha çox həlim xasiyyətli ana rollarını canlandıran aktrisa, eyni zamanda ağıllı davranışları ilə həmişə tamaşaçıların diqqətini çəkib.

Ömrünü bu sənətə həsr edən aktrisa tamaşaçıların diqqəti ilə yanaşı, dövlətin də qayğısını görüb. Belə ki, o, 2000-ci ildə Əməkdar artist, 2006-cı ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb.

2003-cü ildə Prezident mükafatına layiq görülüb.

Aktrisa teatrdakı fəaliyyətindən çox, kinoda yaratdığı obrazları ilə yadda qalıb. Məhz buna görə demək olar ki, Elmira Şabanova daha çox kino aktrisasıdır. Ancaq teatrdakı fəaliyyəti də danılmazdır.

Xalq artisti Elmira Şabanova Azərbaycan teatr və kino sənətinin inkişafına verdiyi töhfələrlə tamaşaçıların yaddaşında qalıb.

Oğurladığı lüks saatı poçtla geri qaytardı



Tokioda mağazadan 46 milyon yen (təxminən 495,500 AZN) dəyərində elit saat oğurlayan naməlum şəxs daha sonradan onu poçtla geri qaytarıb.

Adalet.az xəbər verir ki, bu barədə "Kyodo" agentliyi məlumat yayıb. Göndərmə məntəqəsi olaraq Ayti prefekturası göstərilən saatın olduğu bağlamaya üzrxahlıq məktubu da əlavə edilib. Həmin oğurluq hadisəsi oktyabrın 29-da Tokionun məşhur "Nakano Broadway" küçəsindəki ticarət mərkəzində yerləşən elit saatlar mağazasında baş verib. Belə ki, polisin məlumatına görə, axşam saatlarında ticarət məntəqəsinə bir kişi daxil olub. O, işçilərdən İsveçrə brendi olan "Audemars Piguet"in istehsal etdiyi saatı qolunda sınamaq üçün ona vermələrini xahiş edib, bundan sonra isə saatla birlikdə hadisə yerindən qaçıb.

"MƏTBUAT DİRÇƏLİŞ, OXUCU PEŞƏKARLIQ, JURNALİSTİKA İSTEDAD, QƏLƏM AZADLIQ İSTƏYİR"


Jurnalist, publisist Məzahir Əhmədoğlu ilə müsahibə

(əvvəli ötən saylarımızda)

İnkubator cücələri kimi buraxıblar efirə. İstedadsız, amma pulu olan bu cür insanların efirlərə, mədəniyyətə soxulması deqradasiya yaratdı. Bir çox sahələrdə, musiqidə, bəstəkarlıqda bayağılıq baş alıb gedir. Bəstəkarlar İttifaqının sədri Firəngiz xanımı yaxşı tanıyıram. Bir sədr kimi müdaxilə edə bilər, yəqin ki, ya müdaxilə edilir alınmır, ya da təsir etmək olmur. Heç nəyə layiq olmayan adamları indi hər sahədə görmək olur. Kimin nəyə layiqliyi çatmırsa, ora can atır. Müxtəlif yollarla o ada, o şöhrətə, o vəzifəyə, medala can atır, nail olur da. Əndrabadi bir vəziyyət yaranıb. Bu da gəncliyə pis nümunə olur, pis vərdiş yaradır. Bəlkə zamanla dəyişə, gerçəklər üzə çıxar deyə ümüd edirik. Onu da zaman göstərəcək.

- Yüksək keyfiyyətli müsahibə, reportaj, köşə, məqalələrin yer aldığı qəzet və saytlara demək olar ki, az rast gəlinir. Çoxunu şirinquş yazılar adlandırırsız. Niyə sanballı yazılara nisbətdə bu tip yazılar əsas səhifələri zəbt edir?

- Artıq qəzet, jurnal sayı azalıb. Gündəlik çıxan qəzetlər də yoxdur.



lıq üçün də çox oxumaq, çox bilmək və yaxşı yazmaq istedadı gərəkir. Yazıya başlayanda bütün enerjimi ortaya qoyuram və başlıqdan nəticəyə doğru öncədən düşünüb yazıram. Sözü azaltmaq üçün, fikri geniş şəkildə deyil, konkret abzaslar, tezis, termin şəklində verirəm. Uzunçuluq edib oxucunu yormaq istəmirəm.

- "Psittakiformes" yazısında imzası və dəsti xətti ilə seçilən peşəkar jurnalistlərin üslubunun azalması zövqlü oxucunu yolundan azdırmaz, zövqlü oxucu qəzeti özü tələb edəcək. Amma...

- Amma mənə oxucudan zəng gəlir: "Məzahir müəllim daha az yazırsız, əvvəlki kimi deyilsiz, sizin yazıları neçə illədir ki, yığıram". Bir digər oxucu başqa fikir bildirir.Əlbəttə ki, bu fikirlər müəllifi ruhlandırır. Ancaq mən indi elə bir vəziyyətdə deyiləm ki, "Uembl arayışı", Barter", "İntihar edənlərdən xahiş olunur ki", "Çətin söhbət", Nadir Cabbarlı barədə və digərləri kimi hekayə yazam. Qəzet sayı və köşklərdəki vəziyyətdən asılı olmayaraq diqqətli, mütaliəli oxucu həmişə müəllifi axtaracaq. Tapmayanda isə oxucu pərt olur. İndi sosial şəbəkədə səhifə açmışam, hərdən yazılarımı orada paylaşıram. Nəinki publisist, hətta istehsalat yazılarımda da diqqətli oluram. Kitablarım da oxunulur. Dəfələrlə çağırış elədim ki, mətbuatı dirçəldəyin, oxucu peşəkarlıq istəyir. Bəzi peşəkarların da xislətində başqa niyyətlər yaşayır. Özünü pis etmək istəmirlər. Tənqid edirəm, amma bağışlamağım da var. Mənə pislik edənləri də bağışlamışam. Şəxsiyyəti bura qədər inkişaf edib deyib anlayış göstərmişəm.



Məşhur kinooperator Kənan Məmmədov, Məzahir Əhmədoğlu və Xalq artisti Fəxrəddin Manafov

- O illərin ən təmiz, ən şərəfli, ən müqəddəs fakultəsi olan jurnalistika məbədimiz bizlərdən həmişə narahatdır. "Yuxu" adlı yazınızda keçir bu misralar. Ardınca Vaqif Bayatlı Odərin belə bir fikrini əlavə edirsiz ki, "neyləyək ki,indi dəlləklər gəzir karetalarda"...fakültəyə özünüzü hələ də borclu sayırsız?

- Bəli, hələ də mənə doğmadır, fərqlidir jurnalistika fakültəmiz. Bizim dövrdə jurnalistika, hüquq və şərqşünaslıq fakültələrinin dərsləri bir yerdə keçilirdi. Bizim dekanlığımız isə əvvəlki Yefim Saratov, indiki Rəsul Rza küçəsində ikimərtəbəli sarı bina idi. Hamı oxuyurdu, müəllimlərə də yüksək dəyər vardı. Mənim də müəllimlərlə dostluğum, yoldaşlığım olurdu. Etiraf edim ki, dərsə az gedirdim. Jurnalistika fakültəsini bizə o vaxt Şirməmməd Hüseynov, Nəsir İmanquliyev, Seyfulla Əliyev, Famil Mehdi, Tofiq Rüstəmov, Nəsir Əhmədli, Cahangir Məmmədli, Akif Rüstəmov ədəbiyyatdan Hökumə xanım, Bəxtiyar Vahabzadə kimi böyük müəllimlər sevdirib. Fakültədə mübahisə etdiyim müəllimlər də olub. Məntiq, siyasi- iqtisad fənn müəllimi ilə "siz düz hərəkət etmirsiz" deyib kəskin mübahisə etmişəm. Fakültədə Südabə xanım vardı, lobarant idi. Məni görən kimi "mənim balam gəldi", - deyib qucaqlayıb bağrına basırdı. Dar, şəraitsiz o fakultə mənə hər halı ilə doğma idi.

Sonuncu dəfə fakültə ilə əlaqəm kitabım ilə bağlı oldu. Tələblərdən biri diplom müdafiəsi kimi siyahıdan kitabımı götürübmüş və müdafiə zamanı da dəvət edildim. Bütün müəllimlər tanıdı, amma Şirməmməd müəllim xatırlaya bilmədi. Əvvələr tez-tez gedirdim, güman ki, sonradan gec-gec getdiyim üçün xatırlaya bilmədi. Cahangir müəllimlə çox görüşmüşəm. Hazırda fakültə ilə ortabab belə əlaqəm yoxdur, amma o fakültədəki inteligensiyanı, auranı həmişə xoş xatirə olaraq anıram. Tələbə vaxtı dostlarım da çox olub. Gürcüstanlı tələbələr hətta bizim evdə dəfələrlə qonaq olublar. Ölkənin keçmiş baş prokuroru Zakir Qaralovla da tanış idik. O da tələbə vaxtı bizə gəlib. Amma sonradan kim məni axtardısa onunla əlaqə saxladım. Zakir Qaralovun xalasıoğlu məndən onunla görüşüb görüşmədiyimi soruşdu. Dedim "mən kiməm ki, baş prokurorla görüşüm. O məni axtarsa onunla görüşərəm də". *(gülür)* Dedi tələbə vaxtı o qədər köməkliyin dəymişdi, niyə axtarmır ki? Dedim nə bilim, olur belə hadisələr... Bütün bunları mən çoxdan unutmuşam.

- Ən yaxşı yüngülləşmə üsulu məqsədə çatmaqdır. Həyatda məqsədə çatmaq üçün "Gözəlliyi uydurmaq" lazımdır?

- Gözəliyi həmişə, xüsusilə yaradıcı adamların uydurması vacibdir. Cəmiyyətin inkişafına təkan vermək üçün xüsusi vasitələr var. Bu gözəlliyi publisistik yazılar, filmlər, tamaşalar, musiqi, rəssamlıq, heykəltəraşlıq və digər sənət sahələri ilə uydurmaq olar. Xüsusilə bədii şəkildə, yəni olduğundan artıq uydurmaq olar. İnsanlar meyillənsin, onlarda motivasiya yaransın. Kənd təsərrüfatında , digər peşələrdə də olsa belə ümidli, inamlı yazılarla kəndlini, fermeri, sənətkarı o işə cəlb etmək, motivasiya yaratmaq lazımdır ki, o da yarada bilsin, ruhdan düşməsin. Yəni, yaxşı mənada bu gözəlliyi uydurmaq bütün sahələrdə əmək vərdişlərinin yaranmasına, dəyərləndirilməsinə səbəb olar.



Məzahir Əhmədoğlu Göyçay şəhərində keçirilən Novruz şənliyində. 1989-cu il.

- Bəzən təsadüfən bu fakültəni seçənlər olur. Jurnalisitika təsadüfləri sevir? Yoxsa istedad və təcrübə mütləqdir?

- İstedad jurnalistə mütləq lazımdır. Çünki bəzən jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirənlər mətbuatda imzasını tanıtdıra bilmədi. Elm, nəzəriyyə öyrənmək ayrı, onu tətbiq etmək başqadır. Fakültəyə balla təsadüfi düşənlər var ki, heç xəbər mətni belə yaza bilmir. Qabiliyyət imtahanına salınan esse bacarığı da bunu tam göstərmir. İndi çoxuna süni intellekt proqramları yardımçıdır. Yaza bilmədikləri mətnləri onların vasitəsilə həll edirlər, amma bu heç vaxt sənin sahib olacağın istedad demək deyil. İstedad həm də mütaliəyə bağlıdır. Daha çox mütaliə lazımdır. Hər gün mütaliə etməsəm, rahat olmuram. Bəzən mütaliəyə yeni kitab tapmasam, təkrar oxuduğumu mütaliə edirəm. Elə yazılarım var ki, həmin yazını yazdığıma inana bilmirəm. Sonra xatırlayıram ki, mən Məzahir Əhmədoğluyam. *(gülür)*

- Gənc jurnalist və yazarlardan daimi izlədiyiniz, yazı üslubunu bəyəndiyiniz var? Sizin peşəkar kimi bu ixtisası seçən və seçmək istəyənlərə nə məsləhətləriniz olar?

- Jurnalist ixtisasını seçmək istəyənlər özünü hazır biləndən sonra seçim etsinlər. Əvvəlcə təcrübə keçsinlər. İnşa, esseden getmir söhbət. Bir faktı götürüb yazaraq qələmi sınasınlar. Xəbər, daha sonra korrespondensiya yazsınlar. Səmimi deyim ki, hazırda elə bir jurnalist tanımıram ki, bu janrda tələblərə uyğun yazını tam işləyib verə bilsin. Çoxluq müsahibəyə yönəlir, amma bu janr da çətindir, asan deyil. Bu fakültə üçün yüksək dünyagörüş, müxtəlif sahələrdən məlumatlı olmaq gərəkir. Sadəcə dildə, ixtisas olaraq gözəl səslənir deyə, yaxud aparıcı olmaq istəyirəm deyib jurnalistikaya üz tutmaq düzgün deyil. İxtisaslaşmanı da jurnalistikada önəmli hesab etmirəm. Digər ixtisas sahiblərindən kifayət qədər mütəxəssis var ki, jurnalist kimi çalışır. Məsələn Zamin Hacı , Günel Anarqızı, Nadir Bədəlov, Xalid Kazımlı və digərləri başqa ixtisasları bitirsələr də jurnalistikada imza yarada, tanına biliblər. Bir çox titullu jurnalistlərdən, yazarlardan üstündürlər... Bayaq övladlarım barədə də jurnalistikaya həvəslərinin olub olmadığını soruşmuşdunuz.

Bu sualınıza cavab olaraq qısaca gerçək faktı deyə bilərəm. Oğlum Tuncay maliyyə-kredit ixtisası aldı, qızım Aysel isə ingilis dili mütəxəssisi oldu. Heç biri jurnalistikaya getmədi. Sonradan qızım bir neçə yazı yazdı, istədi qələmini sınasın, amma mən o yazıları çap etmədim. Baxmayaraq, onun uşaqlar üçün ingilis dilində yazdığı kitab ciddi maraq doğurmuşdu...

Günel SABİRQIZI

O məsələlər gündəmdən çıxır. Həmçinin bu sadalanan janrlarda yazmaq istəyən peşəkarlar da azalıb. İndiki jurnalistika arzuladığımız, görmək istədiyimiz mətbuat standartlarına uyğun gəlmir. Fərdlərin ümidinə qalıb. Şəxsən çalışıram ki, bu gün də keyfiyyətli yazım, ancaq janrlar itməsə yaxşıdır.

- Və sizin publisistik yazılarda özünəməxsus yanaşma tərzi, bir neçə janr və yaxud mövzunun yığcam yazıda əhatlənməsi, hadisələrin maraqlı keçiş xətti var. Hətta çox yazılarınızda kütləvi oxucunun anlamayacağı sözlər işlədilir.Bəzən bu sözlər məzmunca yazının açarı olur. Bu üsul onları araşdırmağa, maarifləndirməyə təhrik üsuludurmu?

- Bu belədir, ədəbiyyatda da var, yazıçı yaxud şairdə də var. Məsələn, Ramiz Rövşənin elə dərin, fəlsəfi misraları var ki, oxucunu cəlb edir. Oxucu bəzən onu dərk edə bilmir, getdikcə oxuyaraq dərk edir, anlayır. Əsl jurnalistin də, publisistin də əsas missiyası oxucuda yüksək zövq, dünyagörüş formalaşdırmalı və öz səviyyəsinə çatdırmalıdır. Mən əvvəldən jurnalistikada sıravi olmaq istəməmişəm. Peşəkarözünküləşdirilməsi məsələsinə toxunursuz. Sizin və digər tanınan qələm sahiblərinin üslubunu yamsılayanlar olubmu?

- Bəli, məni də, digər özünəməxsus üslublu jurnalistləri yamsılamaq istəyənlər olub, amma bacarmayıblar. Baza olmayandan sonra alınmayacaq. Uzaqbaşı təkrarçılıq ediləcək, yenə də alınmayacaq. Rosinant görkəmləri üzə çıxır, axı bu istedadın sahibi deyillər. İstedad sənin deyilsə alınan deyil. Təvazökarlıq ifadəsindən xoşum gəlmir. Bu sözün bətnində nəsə bir qeyri -səmimilik, eqoizm də yaşayır deyə. Odur ki, bunları qeyd edirəm. "Reallığın etirafı" nda demokratiyanın verdiyi hüquqlardan sui-istifadə edib jurnalistikanın anasını ağladanlardan, belə gedirsə xeyli müddət öz miskin amplualarında qalanlardan yazmışam. Nəticədə zövqlər korlanır,insanlar yorulur və kağızlar heyf olur. Peşəkar jurnalistika hamıya lazımdır, onların yanına cılız adamları, istedadsızları qoşub xahişlə, adamla "ucaltmaq" faktı var, bax, bu adamı incidir, sənətə ləkədir.

- Yazılarınızda bir qeydi həmişə xüsusilə vurğulayırsız ki, qəzet sayının, satışının və köşkünün



Nicat KOLAN

"Bir ömrün arxasınca qalan ülviyyət..."

Yaşamaq sadəcə nəfəs almaq, günləri bir-birinin ardınca yola salmaq deyil... Yaşamaq həm də bir ömür boyunca insanların qəlbində yer etmək, xoş xatirələrə çevrilmək, özündən sonra iz qoymaqdır. İnsan dünyaya gələndə onun üçün bir ömür başlanır, dünyadan köçəndə isə bəzən əslində ikinci ömrü başlayır - onu tanıyanların yaddaşında, xatirələrində, ürəklərində yaşamaq ömrü...

Çünki bəzi insanlar təkcə öz ömürlərini yaşamır, bütöv bir mənəvi dünyanın daşıyıcısına çevrilirlər. Onların yaddaşında illərin təcrübəsi, söhbətlərində həyatın hikməti, davranışlarında isə insanlığın ən gözəl çalarları yaşayır. Belə şəxsiyyətlər dünyadan köçəndə yalnız bir doğmanı deyil, sanki bütöv bir aləmi itirirsən. Onların yoxluğu ilə bir dövrün səsi, söhbətlərin istiliyi, doğmalığın nəfəsi də əskilir.

"Bir alim öldü, bir aləm öldü" - deyiblər...Azərbaycan ədəbiyyatına ağır itki üz verib. Ədəbiyyatşünas alim, professor Qurban Bayramov haqqın dərgahına qovuşdu.1946-cı il mayın 30-da Ağdamın Əlimədətli kəndində dünyaya göz açan Qurban Fərman oğlu Bayramov ömrünü sözə, ədəbiyyata və elmə həsr etmişdi. Filologiya üzrə fəlsəfə doktoru, professor, tanınmış ədəbiyyatşünas və tənqidçi kimi Azərbaycan ədəbi mühitində özünəməxsus mövqeyə sahib idi. Uzun illər AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda çalışan alim elmi fəaliyyətinin mühüm bir hissəsini Səməd Vurğun yaradıcılığının araşdırılmasına həsr etmiş, vurğunşünaslığın inkişafına dəyərli töhfələr vermişdi.

"Vurğun poeziyası" və "Lirik qəhrəman və zaman" kimi əsərləri onun bu sahədəki tədqiqatlarının mühüm nümunələrindəndir. Bununla yanaşı, Azərbaycan ədəbiyyatının müxtəlif nümayəndələrinin yaradıcılığına dair araşdırmaları ilə də zəngin elmi irs qoyub...Eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin üzvü, Respublika Qarabağ Ağsaqqallar Şurasının üzvü , Azərbaycan Ziyalılar Hərəkatı Ali Şurasının üzvü idi...

Qurban müəllim Allahın ona bəxş etdiyi ömür payını kişi kimi, ləyaqətlə yaşayanlardan oldu. Onun özünəməxsus bir dünyası vardı. Bu ömrü təkcə elmin, sözün, ədəbiyyatın keşiyində dayanmaqla deyil, insanlara münasibəti, səmimiyyəti və nəcib davranışı ilə də mənalandırdı.

O, alim adını yalnız elmi fəaliyyəti ilə deyil, şəxsiyyəti ilə də doğruldan insanlardan idi. Onunla ünsiyyətdə olanlar yaxşı bilirlər ki, Qurban müəllimin nüfuzu yalnız biliyindən və elmi sanbalından qaynaqlanmırdı. Sadəliyi, təvazökarlığı, insanlara doğma münasibəti onu ətrafındakılara daha da yaxın edirdi.

Qurban Bayramov həm də özünəməxsus yumor hissi olan, zarafatı sevən, söhbətinə duz qatmağı bacaran bir insan idi. Onun zarafatlarında heç vaxt kimisə incitmək, xətrinə dəymək niyyəti olmazdı. Elə bir səmimiyyətlə zarafat edərdi ki, qarşısındakı insan incimək əvəzinə onunla birlikdə gülərdi.

Bəlkə də, onun ən gözəl xüsusiyyətlərindən biri elə bu idi: insanlara xoş ovqat bəxş etməyi, bir anın içində könülləri açmağı bacarırdı.

Onunla ünsiyyətdə olanda alimlə deyil, doğma bir insanla söhbət etdiyini hiss edirdin. Onun söhbətlərindəki istilik, zarafatlarındakı incəlik yaddaşlarda silinməz iz buraxırdı. İndi isə həmin söhbətlərin yerini dərin bir nisgil alır.

Sonradan anlayırsan ki, bəzən ən qiymətli xatirələr böyük hadisələrdən deyil, bir insanın adi söhbətindən, zarafatından, təbəssümündən yaranır. Bəzən bir şəxsiyyətin dəyərini anlatmaq üçün uzun-uzadı sözlərə ehtiyac qalmır. Onun haqqında danışanların üzündə yaranan təbəssüm, yaddaşlarda qorunan xoş xatirələr hər şeyi deyir...

Bu ilin may ayında dəyərli professorun 80 illik yubileyi münasibətilə onun haqqında bir təbrik yazısı qələmə almışdım. Yazıya görə mənə minnətdarlığını bildirəndə elə bir söz dedi ki, həmin an bu sözlərin yaddaşımda belə dərin iz qoyacağını bəlkə də düşünmürdüm: "Sənin qələmində bir işıq var, onu söndürmə. Sən bu nəslin ədəbi yolunu davam etdirməlisən". Bu sözlər mənim üçün adi bir tərifdən qat-qat artıq idi. Sözün, qələmin və ədəbiyyatın qədrini bilən bir alimin mənə ünvanladığı bu fikir bu gün qəlbimdə əziz bir xatirə, həm də mənəvi əmanət kimi yaşayır.



İnsanın həyatda qazandığı ən böyük sərvət nə mal-mülk, nə də tutduğu vəzifədir. Əsl sərvət onun arxasınca deyilən xoş sözlər, yoxluğunda duyulan boşluq, xatirəsini yaşatmaq istəyən insanların sevgisidir. Qurban müəllimin son mənzilə yola salındığı gün bir daha şahidi olduq ki, o, təkcə bir ailənin, bir nəslin deyil, onu tanıyan çoxsaylı insanların qəlbində özünə xüsusi yer etmişdi. Həmin gün səslənən vida sözləri də bu sevginin, illərin dostluğunun və səmimi münasibətlərin ifadəsi idi...

Dəfn mərasimində uşaqlıq dostu İsa Qaraşovun söylədiyi bir neçə kəlmə isə sanki hamımızın ürəyindən keçənləri ifadə edirdi: "Əziz dost, sən rahat uyu...Bil ki, hər zaman qəlbimizdə əziz bir insan kimi yaşayacaqsan, səni heç vaxt unutmayacağıq..."

Bu sözlərdə illərin dostluğu, bir ömrün xatirələri, ayrılığın ağrısı və unudulmayacağına verilən söz vardı. Bəlkə də, insan üçün bundan böyük təsəlli yoxdur: dünyadan köçsə də, sevdiklərinin yaddaşında yaşamaq, adı çəkiləndə üzlərdə təbəssüm, ürəklərdə nisgil oyatmaq...Qurban müəllim də məhz belə insanlardan idi. Onun yoxluğu hiss olunacaq, söhbətləri, zarafatları, səmimi münasibəti daim xatırlanacaq...

Ömür sona yetir, amma insanın qoyub getdiyi iz zamanla silinmir. Qurban müəllim də özündən sonra zəngin elmi irs, gözəl xatirələr, onu sevən insanların qəlbində əbədi yaşayacaq bir doğmalıq qoyub getdi.

İndi onun səsini eşitməyəcəyik, zarafatlarına qoşulub gülməyəcəyik, amma xatirəsi hər zaman bizimlə olacaq. Bəzi insanlar həyatdan köçsələr də, yaddaşlardan köçmürlər...

Babasının adını daşıyan Qurban müəllim, böyük bir nəslin adını, sanbalını və mənəvi bütövlüyünü yaşadan ağsaqqal kimi yaddaşlarda qalacaq.

"Əziz Qurban müəllim, ömür yolun sona çatsa da, səninlə başlayan xatirələr bitməyəcək. Sən artıq dünənimizin əziz xatirəsi, sabahımızın isə unudulmaz adı oldun. Ruhun şad olsun!"



Sabir ABDİN

O, HƏMİŞƏ TƏLƏSİRDİ

(Şair dostum İsmayıl İmanzadənin əziz xatirəsinə)

İsmayıl müəllimi mən çoxdan tanıyırdım. Əvvəlcə imzasını tanımışam, sonra da özünü. Onunla ilk tanışlığımız Mingəçevir şəhərində olub. 2000-ci ilin sonlarında Mingəçevir şəhər prokurorunun müavini təyin edilmişdim. Şəhər tədbirlərində onunla tez-tez görüşürdük. Mən onu çox alicənab, zəhmətkeş, əsl ziyalı və istedadlı bir şair kimi tanıdım və tez bir zamanda aramızda dostluq əlaqələri yarandı.

1993-cü ildə Cəbrayıl rayonunun işğalından sonra minlərlə soydaşımız kimi, o da doğma yurdundan didərgin düşmüş, Mingəçevirə pənah gətirmişdi.


Uzun illər idi ki, Mingəçevir şəhərində məskunlaşan İsmayıl müəllim bir müddət Mingəçevir Şəhər İcra Hakimiyyətinin orqanı olan "Səda" qəzetində baş redaktorun müavini, "Mingəçevir" qəzetində redaktor işləyib. 1999-cu ildən isə Yazıçılar Birliyi Mingəçevir bölməsinin sədri, "Bənövşə" ədəbi-bədii dərgisinin təsisçisi və baş redakoru olub. Onun 30-a yaxın kitabı və çoxlu publisistik yazıları işıq üzü görüb.

İsmayıl müəllim Yazıçılar Birliyinin Mingəçevir bölməsində vaxtaşırı ədəbi-bədii tədbirlər keçirər, bəzən Bakıdan və digər bölgələrdən də qələm adamlarını həmin tədbirlərə dəvət edərdi. İsmayıl müəllim bu ədəbiyyat ocağına çox istedadlı qələm adamlarını cəlb etmişdi. Ayrıca məkanları da var idi. Orada tez-tez kitab təqdimatları, ədəbi müzakirələr, şair və yazıçılarla görüşlər keçirilərdi. Qısa bir zamanda mən də onların sıralarına qatıldım və 2002-ci ildə məhz İsmayıl müəllimin tövsiyəsi ilə mənim "Mənə dəniz verin" şeirlər kitabım çap olundu. Həmin kitabın redaktoru da məhz İsmayıl müəllim idi.

Mingəçevir şəhərində işlədiyim və yaşadığım 4 ilə yaxın müddətdə İsmayıl müəllimlə vaxtaşırı görüşər və söhbətlərimizin əsas mövzusu, əsasən ədəbiyyatdan, poeziyadan olardı. O, çox maraqlı həmsöhbət idi. Onunla söhbətlərimizdən heç vaxt yorulmazdım və darıxmazdım. Bir-birimizə şeirlər də həsr etmişdik, mən onun bir şeir kitabına ön söz də yazmışdım.

Sonradan, yəni 2004-cü ilin iyun ayından mən fəaliyyətimi rayon prokuroru kimi Füzuli rayonunda davam etdirməli oldum. Ora təyinat almağıma ən çox sevinənlərdən biri də İsmayıl müəllim idi. Həmişə deyirdi ki, işğal altında olan doğma Cəbrayılımın lap yaxınlığındasan, oralardan muğayat ol, qoyma o torpaqları xiffət çəkməyə. Arada Horadiz şəhərinə gələr və mənim qonağım olardı. Hər gəlişində də onunla Haramı düzünə qalxar və birlikdə onun işğalda olan dədə - baba yurdunu uzaqdan da olsa seyr edərdik. Həmin vaxtlar onun necə də haldan hala düşməsini sözlə ifadə etmək çox çətindir. Ancaq o zamanlar hər ikimiz də tam əmin idik ki, tezliklə işğal altında olan torpaqlarımız, o cümlədən Cəbrayıl elimiz də düşmən işğalından azad ediləcək. Onun Vətən sevgisi, işğalda qalan yurd yerlərimizin ağrı-acıları və torpaq həsrəti ilə bağlı xeyli şeirləri və publisistik yazıları var idi.

2006-cı ilin baharında İsmayıl müəllimin növbəti "Gedirəm üzü payıza" şeirlər kitabı çap olunmuşdu. Yadımdadır, həmin kitabı o, şəxsən özü mübarək avtoqrafı ilə həmin ilin 21 martında Horadizdə, xidməti otağımda mənə təqdim etdi. Onun



yeni kitabının işıq üzü görməsinə çox sevindim. Mənə həsr etdiyi "Sənə atılan daş" şeiri də həmin kitabda çap olunmuşdu. Həmin gün xeyli söhbətləşib dərdləşdik.

Mən həmin kitabı həvəslə oxudum və çox təsirləndim. Elə həmin ilin payızında İsmayıl müəllimə "Tələsmə üzü payıza" adlı bir şeir yazdım və ona göndərdim.

Bu şeirdə İsmayıl müəllimin yurd - yuva həsrətinə, ağrı və acılarına toxunmuşdum. Həmin şeiri o çox bəyənmişdi.

Mən Bakıda yaşadığım illərdə də onunla həmişə görüşlərimiz və telefon danışıqlarımız olub. Həmişə də bir-birimizin yaradıcılığı ilə maraqlanmışıq. O, vaxtaşırı Mingəçevirdə çap olunan qəzet və yurnallarda, almanaxlarda xəbərim olmadan mənim şeirlərimi çap etdirərdi. Çap olunmuş hər bir kitabım barədə yazılar yazardı.

İsmayıl müəlim 20 iyun 2026-cı ildə, ömrünün 81-ci ilində uzun sürən xəstəlikdən vəfat etdi. Böyük hörmət və ehtiramla Mingəçevir şəhərində dəfn edildi. Bu acı xəbərdən mən günlərlə özümə gələ bilmədim. Ölümündən bir neçə gün qabaq onunla telefonla danışığımız olmuşdu. Kef-əhvaldan sonra mənə tezliklə sağalacağını və birlikdə Böyük Mərcanlı kəndinə səfər edəcəyimizi bildirdi.

İsmayıl müəllim təkcə istedadlı ədib deyil, həm də fədakar ziyalı, qayğıkeş rəhbər idi. Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsinin sədri kimi gənc istedadların üzə çıxarılmasına, ədəbiyyatımızın inkişafına və ictimaiyyət arasında layiqincə təmsil olunmasına böyük əmək sərf etmiş, həmişə qələm əhlinin yanında olmuşdu.

Köçkünlük həyatı onun taleyinin ən ağrılı səhifəsinə çevrilmişdi. İllərlə qəlbində gəzdirdiyi nisgil, həsrət və qayıdış arzusu yazılarında, şeirlərində öz əksini tapırdı. O, işğal altındakı torpaqların ağrısını yaşayan, bu ağrını sözə çevirən istedadlı qələm sahiblərindən idi. Onun ən böyük arzusu doğma Cəbrayıla - Böyük Mərcanlı kəndinə qayıdaraq ömrünün son illərini ata-baba yurdunda keçirmək idi.

İkinci Qarabağ müharibəsindəki Zəfərdən sonra onun şeirlərinə nikbin ruh, qürur dolu misralar, doğma yurda qayıtmaq hissləri əlavə olunmuşdu. 1993-cü ildə doğma yurdu tərk edərkən evinin açarlarını da özü ilə götürən şair, onu əziz bir xatirə kimi saxlayırdı.

Tanınmış söz ustadı və böyük ziyalımız İsmayıl müəllimin əziz xatirəsi onu tanıyanların xatirəsində, ədəbiyyat tarixində əbədi yaşayacaq.

...O, həmişə tələsirdi. Yenidən ata - baba ocağına dönmək, hər daşını, qayasını, kol-kosunu yaddaşına həkk etdiyi Böyük Mərcanlı kəndində çıraq yandırmağa tələsirdi. Orada birdəfəlik yaşamağa tələsirdi. Yeni yeni kitablarının işıq üzü görməsinə, hələ yazılmamış yazılarını yazmağa tələsirdi. Ölümünün üzünə, özünə də tələsdi İsmayıl müəllim.

Ruhun şad olsun, əziz dost!

İsmayıl müəllimə həsr etdiyim "Tələsmə üzü payıza" adlı şeirimi sizlərlə bölüşməyimi özümə borc bilirəm.

TƏLƏSMƏ ÜZÜ PAYIZA

("Gedirəm üzü payıza" kitabının müəllifi şair dostum İsmayıl İmanzadəyə)

Niyə tələsirsən üzü payıza?
Payız çiçəklərin hələ açmayıb.
Şirin arzuların qalıb gözündə,
İsti yuvasından hələ uçmayıb.

Niyə tələsirsən üzü payıza?
Şair ürəyindən hər payız keçər.
Payız arzuların hələ yol gəlir,
Bahar gözlərinə hər payız köçər.

Niyə tələsirsən üzü payıza?
Arazın suları yenə də ildir.
Əkdiyin ağaclar, güllər, çiçəklər
Yolunu gözləyir gör neçə ildir.

Niyə tələsirsən üzü payıza?
Düşmən əlindədir evin - eşiyin.
Səndən uzaqlarda qalıb Cəbrayıl,
Yolunu gözləyir doğma beşiyin.

Tələsmə, sən allah, üzü payıza?
Gəl gedək, o yurda qoşa, şairim!
Göylərin üzünə söykə üzünü,
Yaşa məhəbbətlə, yaşa şairim.

Təbrizə Pünhanın şeirlərindəki onomastik vahidlərin semantikasına dair



Akif İMANLI
Filologiya elmlər doktoru, professor

İstedadlı şair Təbrizə Pünhanın yaradıcılığında onomastik vahidlərdən istifadənin müşahidə edilməsi təbii haldır. Onomastik vahidlər dedikdə, bura antroponimlər (şəxs adları), oykonimlər (yaşayış yeri adları), oronimlər (yer səthinin relyefində olan hər hansı elementlərin, yəni oroqrafiya obyektinin xüsusi adı daxildir. Məsələn, Talış dağları, Qafqaz dağları və s.)

Hər bir şair özünə təxəllüs götürməkdə sərbəstdir. Təbrizə xanımın təxəllüsü "Pünhan"dır ki, bu söz fars dilində gizli deməkdir. Şairlərin götürdükləri təxəllüs köməkçi ad kateqoriyasına daxildir. Köməkçi ad, yəni təxəllüs, adətən adla birlikdə işlənir. Misal üçün Səməd Vurğun, o baxımdan Təbrizə Pünhan. Müşahidələr göstərir ki, Azərbaycan şəxs adları müxtəlif səbəblərdən yaranır ki, bunlardan biri də toponimlərdir. Məsələn, Altay, Savalan, Təbriz və s.

Şəxs adlarının mənası probleminə toxunan professor A.Qurbanov "Azərbaycan dilinin onomalogiyası" kitabında (Bakı: "Maarif", 1988) yazır ki, "şəxs adlarının mənası mövcuddur və bu məna xüsusiyyəti adlarda uzun tarixi inkişafla əlaqədar formalaşmışdır... Tarixən dünyaya gələn uşağa ad verilərkən mütləq müəyyən bir məna, məzmun düşünülmüş və bu əsasda ad seçilmişdir" (səh. 189).

Təbrizə adı, göründüyü kimi, Azərbaycanın qədim paytaxtı olan Təbriz adından yaranmış və məişətimizdə təsadüf olunan nadir antroponimlərdəndir. Təbrizin mənşəyi və etimologiyası haqqında müxtəlif fikirlər vardır. Xalq etimologiyasına görə şəhərin təmiz havası və şəfalı mənzərəsi nəzərə alınaraq fars dilində "qızdırma qovan", "xəstəlik qaçıran" mənası verən bu yerə Təbriz adı qoyulmuşdur. Guya Təbriz sözü farsca "qızdırma, isitmə" anlamında olan "təb" leksemindən yaranmışdır. C.N.Zeynaloğlunun "Müxtəsər Azərbaycan tarixi" kitabında (Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1992) belə bir qeyd vardır: "Təbriz. Əsl adı Davris - Təvriz - Tabriz idi, Təbriz deyildi və farsların iddia etdikləri "təbriz"in "qızdırma tökən" ilə heç bir əlaqəsi yoxdur" (səh. 63). Təəssüf ki, adıçəkilən kitabda Təbrizin yeni etimoloji izahı verilməmişdir.

Professor Vilayət Əliyev "Azərbaycan toponimiyası" adlı dərs vəsaitində (Bakı: "Nurlan", 1999, səh. 169-170) Təbriz və onun etimologiyasına aid maraqlı məlumata rast gəlinir: "Həmdullah Qəzvini yazır ki, şəhəri 791-ci ildə xəlifə Harun ər-Rəşidin arvadı Zübeyda xanım tikdirmişdi. Rəvayətə görə, qızdırmaya tutulmuş Zübeyda Xatun Təbriz ərazisində müalicə olunmuş və burada şəhər saldıraraq onu Təbriz adlandırmışdır. Təbriz fars dilindəki teb - "isti, qızdırma, yüksək hərarət" və riz - "tökmək, axıtmaq, yəni xatunun qızdırmasını tökdüyü, qızdırmadan xilas olduğu yer" adlandırmışdır. Təbriz oykonimini mənşə etibarilə fars dilinə aid etmək istəyənlər həmin rəvayətdən istifadə etmişlər.

Təbrizin mənşəyi haqqında digər müəlliflər də fikir söyləmişlər. Məsələn, A.E.Qrantovski yazır ki, H.Nyunberqə görə, e.ə. VIII əsr assur mənbələrində xatırlanan Tarvi (Təbrizin ən qədim forması) qəbilə bildirən toponimdir. Onun qənaətinə görə, Təbrizin ilkin forması Tarviça, yaxud Tarvaiça ola bilər, çünki bu variant e.ə. VIII əsr assur mənbələrində Tarvakisa şəklində qeyd olunmuşdur. Göründüyü kimi, bu izahda Təbrizin etimoloji mənası aydın olmur, yəni qəbilə hansı xalqa məxsusdur və tavri nə deməkdir?

Təbriz şəhərinin tarixini araşdıran alimlərdən biri də S.M.Onullahi olmuşdur. Onun qeydlərindən bəlli olur ki, e.ə. 714-cü ilə aid assur kitabəsinə görə, Tarun-Tarmakis şəhəri Tovri (indiki Suxrab) dağının ətəyində yerləşirdi; deməli, şəhərin adı dağın adı ilə bağlı olaraq meydana gəlmişdir. "Tovri"nin sonuna cəmlik bildirən -z şəkilçisi sonralar əlavə edilmişdir. Yenə də mətləb aydın olmur.

Belə görünür ki, Tovriz//Təbriz sözünün semantikasını aydınlaşdırmaq üçün ya "tovri", ya da ümumiyyətlə, Təbriz oykonimi ciddi şəkildə elmi araşdırmaya cəlb olunmalıdır. Hələlik, Təbriz oykoniminin tarvi qəbilə adından yaranaraq etnooykonim olduğunu qəbul edə bilərik. Biz hörmət əlaməti olaraq istedadlı şairimiz Təbrizə Hüseyn qızı Rəsulovanın yalnız adının mərkəzində dayanan Təbrizə sözünün semantikası üzərində dayandıq. Fikrimizcə, rəsmi adlardan ibarət olan Rəsulova Təbrizə Hüseyn qızı modelli antroponimik vahidlər iki komponentli Rəsulova Təbrizə kimi antroponimik birləşmələrə nisbətən daha çox konkretdir. Yeri gəlmişkən qeyd edim ki, yüksək vətənsevərlik hissinin hökm sürdüyü ailələrdə belə adlar övladlarına verilir. Elə zənn edirəm ki, Təbrizə Hüseyn qızı Rəsulova antroponimik vahidində maraq doğuran Təbrizə adı və onun etimoloji izahıdır ki, buna az-çox toxunduq.

Hüseyn qızı ifadəsindəki Hüseyn adı, tədqiqatçıların fikrinə görə, ərəb dilində "yaxşı" mənası verən Həsən adı ilə eyni kökdəndir. Azərbaycan məişətində geniş yayılan Hüseyn, Hüsü, Hüsni, Hüsniyyə kimi adlar onunla (Həsənlə) eyni kökdəndir. Hüseyn Həsənin əzizləmə forması olmaqla, təxminən "yaxşıcığaz" anlamına gəlir.

Təbrizə xanımın soyadı Rəsulovadır. Soyadın kökü Rəsuldur. Rəsul (Rasul) ərəbcə "elçi, səfir, nümayəndə" mənasını verir.

Bədii ədəbiyyat həyatı əksetdirmə sənəti olduğundan insan düşüncəsinin məhsulu kimi təbii zərurətdən yaranmışdır. Bədii mətnlərdə hadisələr müəyyən ideya ətrafında cərəyan edir və bu proses daxilində istər-istəməz obrazlar silsiləsi (antroponimlər) bədii mətnlərə orqanik üzv kimi daxil olur. Bu baxımdan Təbrizə Pünhanın poeziyası da onomastik vahidlərin zənginliyi ilə diqqəti cəlb edir. Öncə, antroponimlərin semantikasına fikir verək. "Bütün gözlər dikilmişdi // Ancaq Heydər Əliyevə". Bu misrada iki antroponim vardır: Heydər və Əli. Heydər ərəb mənşəli sözdür. Mənası "şir, aslan; cəsur, igid" deməkdir. Əliyev soyadının kökü olan Əli ərəbcə "ali, ulu, yüksək" mənasındadır.

Nizamini tanıyıb baş əyir bütün bəşər // Üzeyir musiqisi bütün dünyanı gəzər.

Nizami ərəbcə "nizam" (qayda, intizam) sözü ilə eyni kökdəndir; həm də "şeir poeziya" bildirən "nəzm" ilə eyni kökdəndir.

Üzeyir sözünün mənası ərəbcə "güclü, qüvvətli"dir. Bu adın digər çalarları da vardır: "nadir, qiymətli, əziz".

Nizami, Füzuli, Əssar olmuşam // Mənəm bu dünyanı yenə mat qoyan.

Füzuli - füzul "ülum" və "fünun" kimi "fəzl"in cəmidir. Füzulinin xalq arasında başqa mənası "ədəbə müxalif" deməkdir.

Həm şaham, həm şair Xətaiyəm mən,
Cahana sığmayan Nəsimiyəm mə,
Üzeyir, Cabbarlı, Cəlil, Sabirəm,
Xan qızı Natəvan, Məhsətiyəm mən.
Cavidəm, Müşfiqəm, Xəlil Rzayam,
Ölməz Şəhriyaram, o tay, bu tayam.

Xətai - ərəbcə "xəta" sözündəndir. Mənası "günahkar, günah iş görən"dir. Şah İsmayılın təxəllüsüdür. Şah İsmayılın bu təxəllüsü götürməsi bir rəvayətlə əlaqələndirilir. Deyilənlərə görə, Hürrün qəbrini açmaqda xəta etdiyi üçün özünə belə bir təxəllüs götürmüşdür. Digər mülahizələrə görə Şah İsmayıl Xətai təxəllüsilə özünün Xatay türk tayfasına mənsub olduğunu bildirmişdir.

Nəsimi - məşhur şairimiz Seyid Əli İmadəddinin təxəllüsüdür. Nəsimi ərəbcə "xəfif və lətif nəsim küləyinə mənsub olan" deməkdir.

Cabbarlı - Cabbar (Cəbbar) Allahın gözəl adlarından (Əsmayi-hüsna) olan Cabbarın ərəb dilində bir neçə mənası vardır: 1. Qüvvət, qüdrət,əzəmət sahibi; 2. Cəbr edən, zülm edən, qəsb edən; 3. Sınıqçı; 4. Allah.

Cəlil ərəbcə "böyük, uca, yüksək; hörmət sahibi" deməkdir.

Sabir ərəbcə "səbirli, dözümlü, dəyanətli" mənasını verir.

Natəvan XIX əsrdə yaşamış, xaqlımızın istedadlı şairi Xurşidbanunun təxəllüsüdür. Mənası "bacarıqsız, taqətsiz, əlindən bir iş gəlməyən"; "gücsüz, qüvvətsiz, iqtidarsız"; "zəif, aciz" deməkdir.

Məhsəti. Tədqiqatçıların fikrinə görə, Məhsəti farsların "böyük, dahi" mənasındakı "məhəst" sözündəndir.

Cavid - fars dilində "cavid", "cavidan" əbədi, daimi deməkdir.

Müşfiq - ərəbcə "şəfqətli, rəhmdil, ürəyiyumşaq" mənasındadır.

Xəlil - ərəbcə "dost", Rza - ərəb dilində "razılıq, məmnuniyyət" deməkdir.

Şəhriyar//Şəhryar fars dilində "hökmdar, padşah" anlamındadır.

Mehdi Hüseyn. Mehdi - ərəbcə "doğru yola gələn, düz yol tutan", Hüseyn - ərəb dilində "gözəl, göyçək" mənasını verir.

Mir Cəlal - Cəlal ərəb dilində "böyüklük, ululuq, əzəmət, şan-şöhrət" mənasındadır. Mir farsca əmir sözünün ixtisarı olmaqla 1. Rəis, başçı, rəhbər; 2. Bəzi adam adlarının əvvəlinə artırılaraq onların seyid nəslindən olduqlarını göstərir. Seyyid isə ərəb dilində 1. Ağa, cənab; 2. Nəsilcə guya Məhəmməd peyğəmbərin nəslinə mənsub olan deməkdir.

Səməd Vurğun - Səməd ərəb mənşəli sözdür. Mənası: 1. Əbədi yaşayan, əbədi, daimi; 2. Möhkəm, bərk; 3. Əbədi mövcud olan.

Bəxtiyar - fars dilində "xoşbəxt" anlamındadır. Sözün birinci hissəsi olan bəxt "tale", yar isə "dost, yoldaş, sevgili" mənasındadır.

Rəsul Rza. Rəsul ərəbcə "elçi, səfir, nümayəndə", Rza isə yenə ərəb dilində "razılıq, məmnunluq, razı, qane olmaq" mənalarındadır.

Mikayıl - dini əfsanəyə görə, işi avand olsun deyə Allah özünə dörd icraçı mələk təyin edib: Əzrayıl, İsrafil, Mikayıl, Cəbrayıl. Bu mələklərin vəzifə bölgüsünə görə, İsrafil yalnız bircə dəfə dünyanın axırında zurnasını çalacaq, insanları məhşər ayağına, cavab verməyə çağıracaq. Əzrayıl istirahət bilmədən çalışır, eyni zamanda dünyanın müxtəlif yerlərində minlərcə adamın canını birdən alır. Mikayıl dörd mələyin içində ən xeyirxahıdır. Allahın əmri ilə o, insanlara ruzi yetirir, pay verir. İnsanlar onu sevir, övladlarına onun adını verirlər. Başqa xalqlardakı Mixail, Maykl, Mişel də həmin adın variantlarıdır. Qədim yəhudi dilindən tərcümədə "Allah kimi olan, Allaha bənzər" deməkdir.

Məmməd Araz. Məmməd Məhəmməd (Muhammməd) adının Azərbaycan dilində deyiliş və yazılış formasıdır. Mənası "həmd olunan, hamının tərif etdiyi, şərəfli, şanlı" deməkdir. Məhəmməd // Məmməd adı islam dininin banisi Məhəmməd ibn Abdullaya aiddir. Araz isə şair Məmmədin təxəllüsüdür. Araz Cənubi Qafqazda uzunluğu 1072 km olan və Kürün ən böyük qolu Araz çayının adındandır. Mənası qədim şumercə "dağıdan çay", ərəbcə "axan, qaçan", yunanca "səsli-küylü" olduğu güman edilir.

Həmzələr əlində at yəhərlənir // Dərənin bəyləri düzdə hərlənir.

Həmzə adının mənası ərəb dilində "iti, yandırıcı"dır.

Samın, Zalın, Rüstəmin bu yurddadır adları // Rəvayətdən xəbərsiz bizim talış dağları

Rüstəm - çox qədim İran, Midiya adlarındandır. Pəhləvi dilindən tərcümədə "enlikürək, sağlamcüssəli" mənasını verir.

Firdovsi "Şahnamə" əsərinin baş qəhrəmanlarından biri Zal oğlu Rüstəmdir. Zal fars dilində "qoca, yaşlı, ağsaqqal, ixtiyar" anlamındadır. Firdovsinin "Şahnamə" əsərindən bəlli olduğu kimi, Rüstəm anadan olarkən tükləri ağ olduğu üçün atası onu Zal adlandırmışdır.

Ərəb sözü olan Sam insanları və heyvanları tələf edən səmum küləyinin adıdır. Yəni Sam adının semantikasında bu məna durur.

Coşan sel aparıb Sara gəlini // Quşlar Xançobana xəbər uçursun.

Sara və Xançoban məşhur əfsanədən gələn adlardandır. Sara fars mənşəli söz olmaqla "xalis, saf" mənasındadır. Xanın fars dilində üç mənası vardır: 1. Süfrə, xonça; 2. Oxuyan, oxuyucu. 3. Karvansara. Fikrimizcə, fars dilindəki bu mənaların Xançoban antroponiminə heç br aidiyyatı yoxdur. Xançoban - xanın çobanı anlamına gəlir.

Firdovsi İranın şah tarixini // Altmış min beytlə otuz il yazdı.

Əbülqasim Firdovsi (934-1020) "Şahnamə"nin müəllifi, İran (fars) şairidir. Firdovsi sözünün mənası "cənnətə aid olan, behiştlə əlaqədar olan"dır. Araşdırıcıların fikrinə görə, bu söz ərəbcə "cənnət" mənasında olan "firdaus" sözündən yaranmışdır. Sözün əsli isə hindlilərin qədim sanskrit dilindən gəlir.

Dayanmışam küçəmizin tinində / Düşünürəm Rəna, Pərviz, Əzizə.

Bu misralarda işlənən şəxs adlarının semantikasına fikir verək:

Rəna ərəb mənşəli apelyativdən yaranan antroponimdir. "Gözəl, qəşəng, incə" mənasındadır.

Pərviz farslardan gələn söz olmaqla mənası "bəsləyən, böyüdən"dir.

Əzizə adı ənənəvi olaraq ərəbcə "əziz, sevimli, istəkli" mənasını verən Əziz oğlan adından yaranan qız adıdır.

Adəm, Həvva zamanından bax bəri // Daş dəni yox, dən də daşı üyüdüb.

Adəm adının mənası lüğətlərdə "adam; dinlərə görə yer üzündə ilk insan, ilk peyğəmbər adı" kimi qeyd olunur.

Həvva da ərəb mənşəli "diri, canlı, həyati" anlamında olan qadın adıdır.

Araşdırıcıların fikrini nəzərə alsaq qeyd etməliyik ki, Adəm və Həvva adları "Quran"dan gəlir. İslama qədər mövcud olan digər peyğəmbərlərin, onların qohumlarının adları müəyyən fonetik dəyişikliyə uğrayaraq ərəb dilinə keçmişdir ki, Adəm və Həvva da belə adlardandır. Azərbaycan ad sistemində Adəm və Hava - oğlan və qız adları halıyədə mövcuddur.

Bu dünyanı ikiəlli tutanlar // Qalmadı Əl-Müəyyədtək sultanlar.

Müəyyəd ərəb sözüdür. 1. Qüvvətləndirilmiş, əsaslandırılmış; 2. Kömək edən mənasındadır. Əl-Müəyyəd antroponimindəki "Əl" ərəb dilndə müəyyənlik bildirən artikuldur, adın mənasını dəyişmir.

(ardı gələn sayımızda)

Bu ölkədə analoq telefon dövrü bitir

Böyük Britaniyada köhnə mis kabel infrastrukturuna əsaslanan ənənəvi analoq telefon xətlərinin istifadəsi başa çatır.

Adalet.az-ın məlumatına görə, "BT Group" çətiri altında fəaliyyət göstərən şəbəkə operatoru "Openreach" xəbərdarlıq edib ki, 31 yanvar 2027-ci ildə analoq şəbəkə tamamilə bağlanacaq.

Şirkətin açıqlamasına görə, hazırda təxminən bir milyon analoq xətt istifadə olunur və onların 300 mini müəssisələrin payına düşür. Təhlükə yalnız ev telefonları ilə məhdudlaşmır, vaxtında rəqəmsal infrastruktura köçürülməzsə, kart ödəniş terminalları (POS), liftlərdəki təcili əlaqə telefonları, yanğın siqnalizasiyaları və təhlükəsizlik sistemləri də fəaliyyətsiz qala bilər.

"Openreach"in rəsmisi Ceyms Lilli bildirib ki, rəqəmsal miqrasiya prosesini ləngidən təşkilatlar ciddi əməliyyat və təhlükəsizlik riskləri ilə üzləşəcəklər.

"Openreach" artıq 1 oktyabrdan köhnə mis xətlər üçün tarifləri ikiqat artırıb və fevral ayından növbəti qiymət artımı gözlənilir. Son tarixə qədər rəqəmsal şəbəkəyə keçməyən istifadəçilər avtomatik olaraq yalnız əsas zənglərə icazə verən müvəqqəti xidmətə keçiriləcəklər ki, bu da rəqəmsal alternativlərdən xeyli baha başa gələcək.

Ev telefonunu saxlamq istəyən abunəçilər isə xidmətdən istifadəni davam etdirə biləcəklər, lakin cihazlar artıq xəttə deyil, genişzolaqlı internet routerinə qoşularaq İP-telefoniya sistemi ilə işləyəcək.

Böyük Britaniya ilə yanaşı, Avropa İttifaqı da 31 dekabr 2035-ci ilə qədər bütün üzv ölkələrdə mis kabel şəbəkələrini tamamilə istismardan çıxarmağı hədəfləyir. Norveç və İspaniya isə artıq analoq sistemlərdən tam imtina edib.

30 nəfər ayıların qurbanı oldu

Rusiyada 2026-cı ilin əvvəlindən indiyədək ayı hücumları nəticəsində 30 nəfər həyatını itirib.

Adalet.az xəbər verir ki, bu barədə Rusiya Federasiyasının Tomsk vilayəti üzrə İstintaq Komitəsi məlumat yayıb. Məlumata görə, noyabrın 1-də Pervomayski rayonunun Orexovo kəndi yaxınlığındakı meşəlik ərazidə 62 yaşlı kişinin meyiti aşkarlanıb. Onun bədənində çoxsaylı xəsarətlər qeydə alınıb.

Beləliklə, bu ilin əvvəlindən Rusiyada ayı hücumları nəticəsində ölənlərin sayı 30-a çatıb. Bu cür hadisələr daha çox Buryatiya, Kamçatka və Tomsk vilayətlərində qeydə alınıb.

Hərkəsin daxilində açılmalı bir tövbə qapısı var



Əyyub ƏYYUBOV
iqtisad elmləri doktoru,
professor

Bədii sözün fəlsəfi dərinliyi, milli-mənəvi dəyərlərə bağlılıq və insanın öz mənəvi dünyasına səyahəti ədəbiyyatın hər zaman aktual olan mövzularındandır. Əsl poeziya yalnız duyğuları ifadə etmir, həm də insanı düşündürür, onu özü ilə üz-üzə qoyur, həyatın və varlığın mənası haqqında suallar qarşısında dayanmağa sövq edir. Bu baxımdan, tanınmış şair, hüquqşünas və mütəfəkkir qələm sahibi Rafiq Ələkbərin "Bu qapı bəlkə tövbədir?" adlı yeni şeirlər toplusu dərin fəlsəfi məzmunu, irfani düşüncə tərzi, ictimai-mənəvi çağırışları və Vətən sevgisini özündə birləşdirən dəyərli ədəbi nümunə kimi diqqəti cəlb edir. "Bu qapı bəlkə tövbədir?" toplusu adından başlayaraq insanı metafizik bir düşüncəyə, ontoloji (varlıqsal) bir sorğusual müstəvisinə dəvət edir.

Ədəbiyyat və fəlsəfə tarixi boyunca "qapı" metaforası keçidi, transformasiyanı, gizlinlə aydınlığın, maddi ilə mənəvinin sərhədini simvolizə etmişdir. "Tövbə" isə sadəcə dini-əxlaqi bir kateqoriya deyil, insanın öz daxili mahiyyətinə, ilkin saflığına - fitrətinə qayıdış aktıdır. Şair kitabı belə bir fəlsəfi sualla adlandırmaqla, müasir insanın mənəvi böhranına, deqradasiyaya uğrayan dəyərlərə qarşı bir özünəqayıdış sorağı təklif edir.

Kitabı vərəqlədikcə şeirlərin birbirinə bağlı mənəvi bir səfər kimi düzüldüyünü görürük. Bu səfər insanın öz nəfsi və şeytanla mübarizəsindən başlayır, arınma yağışından keçir, ilahi hökmün möcüzəsini dərk etməyə yüksəlir və nəhayət, oddan yoğrulmuş milli yaddaşa, Vətənin itkin yurdlarına gəlib çatır. Bu yolun hər mərhələsi, əslində, eyni sualın - "Bu qapı bəlkə tövbədir?" sualının fərqli cavablarıdır.

1. Ontoloji saflıq və mənəvi daxili fəryad

Baxın, şair "Deyəsən, açıram bağlı qapını" şeirində insanın mənəvi dualizmini (ikililiyini) və saflıq arzusunu necə bədii-fəlsəfi şəkildə ifadə edir:

"Ey Tanrım, məni də qoru, insanam,
Mən yarım mələyəm, yarı insanam.
Aydan arı, sudan duru insanam,
Dupduru çeşməmə lil su qatmayın".

Bu misralar klassik irfani təfəkkürün modern poetik əksidir. İnsan yaradılışca həm torpağa, həm də asimana mənsubdur. Şairin özünü yarı mələk, yarı insan kimi görməsi varlığın ikili mahiyyətini göstərir. Burada vurğulanan "dupduru çeşmə" obrazı insanın yaradılışdan gələn saf mahiyyətidir; bu saflığın yad təsirlərlə, sosial- mənəvi aşınmalarla bulanmaması üçün edilən fəryad isə sənətkarın cəmiyyət qarşısındakı mənəvi məsuliyyətidir.

Bu saflıq mübarizəsinin ən dramatik səhnəsini şair "Ruhum bağ salıbdır o bir Allaha" şeirində yaradır. Şeir İblisə ünvanlanmış cəsarətli bir xitabdır. Müqəddəs mətnlərdən məlum olan motivi xatırlayaq: İblis oddan yaradılması ilə öyünmüş, təkəbbürü üzündən ilahi dərgahdan qovulmuşdu. Rafiq Ələkbər bu qədim süjeti milli müstəviyə köçürür: şeytanın öyündüyü oda qarşı o, özünün Od yurdunun - Azərbaycanın övladı olduğunu bəyan edir.

Burada iki od üz-üzə gəlir: təkəbbürün, kin və qəzəbin odu ilə ilahi eşqin odu. Şairin qənaətinə görə, ilahi məhəbbətlə yanan qəlb insanı cəhənnəm odundan uzaq tutur; ruhunu Allaha bağlamış insanı şeytan yandıra bilməz. Bu, Nəsimidən, Füzulidən gələn irfani eşq fəlsəfəsinin müasir



poetik ifadəsidir. Tövbə qapısı da elə budur: təkəbbür odundan eşq oduna keçid. Şeirin son bəndində bu fikir zirvəyə çatır:

"Məni eşq yandırdı ilahi odla,
Cəhənnəm odundan uzağam daha.
Sən məni yandıra bilməzsən, şeytan,
Ruhum bağ salıbdır o bir Allaha..."

2. Sosial-əxlaqi tənqid və vicdan ontologiyası

Akademik müstəvidə yanaşsaq, Rafiq Ələkbərin poeziyası yalnız estetik həzz vermir, həm də cəmiyyətin mənəvi anatomiyasını çıxarır. "Küləyin səmti tərəfə" şeiri bu baxımdan sosial-fəlsəfi təhlilin zirvəsidir:

"Əməldə şeytana uyub,
Həyat boyu tor toxuyub,
Ölənə rəhmət oxuyub,
Dirinin dilin kəsənik"

Bu misralar riyakarlığın, mənəvi dualizmin və cəmiyyətdəki etik deformasiyaların dərin tənqididir. Şair burada Kant fəlsəfəsindəki "kateqorik imperativ" prinsipini, yəni mütləq əxlaq qanununu xatırladır. Diri ikən dəyər verməyib, ölümündən sonra tərif yağdırmaq - mənəviyyatsızlığın ən acı formasıdır. Rafiq Ələkbər poetik sözün kəsəri ilə oxucunu öz vicdan məhkəməsində mühakimə olunmağa çağırır.

Şairin vicdan sorğusu "Bu yağış nə qədər yuyacaq bizi" şeirində daha da dərinləşir. Yağış burada qədim arınma simvoludur: göydən enən su torpağı, yolları, qəbirüstü daşları yuyur.

Lakin şair acı bir sual qoyur: bu qədər yağış yağdığı halda insan niyə təmizlənmir? Çünki yağış qəlbdəki kini, həsədi, paxıllığı yuya bilmir.

Şeirin sonunda şair Tanrıya yalvarır ki, onu da zamanın süzgəcindən keçirib yağışa döndərsin, yağışa qovuşub dünyanı arındıranlardan biri olsun. Bu, fərdi tövbənin ictimai missiyaya çevrilməsidir: insan yalnız özünü deyil, ətrafını da saflaşdırmağa çağırılır. Şeirin son bəndi belədir:


"Zaman süzgəcindən süzülmək üçün,
Məni də yağışa döndər, İlahi.
Ya da ki, yağışa qovuşmaq üçün,
Onu geyindirib göndər, İlahi".

3. Yaradıcılığın ilahi qaynağı və sözün ölümsüzlüyü

Rafiq Ələkbər poeziyasının mühüm qatlarından biri də şairlik missiyasının fəlsəfi dərkidir. "Tanrı hökmləri bir möcüzədir" şeirində şair yaradıcılığı şəxsi məharət kimi deyil, ilahi lütf kimi təqdim edir: misralar onun qələmindən sanki özü düşür, şair isə onları toplayan, hifz edən bir vasitədir. Bu baxış Şərq poetikasındakı ilham anlayışına, sözün qaynağının ilahi olduğu inancına söykənir. Şeirin ilk bəndində bu fikir belə ifadə olunur:

"Tanrı hökmləri birmöcüzədir,
Bəzən möcüzədən mən də doğuram.
İti qələmimdən hərflər düşür,
Onu səbətimə dərhal yığıram."

Şeirdə həyatın mənası ilə bağlı ağır suallar da səslənir: insan nə üçün ümidini itirməli, mələkləri inciyən bir yolu seçməlidir? Şair cavabı yorulmaz axtarışda görür: ömrü boyu axtarışdan yorulmayan insan öz xoşbəxtliyini də, mənasını da tapır. Dünya kiçildikcə, böyük şəhərlərin parıltı-



sı artdıqca şair yenə doğma kəndinə, öz məhəllələrinə qayıdır. Mələklərin ona vəd etdiyi ölümsüzlük isə sözün ölümsüzlüyüdür: əsl şairin yolu göylərə, əbədiyyətə uzanır.

4. Tarixi yaddaş və Vətən konsepsiyası

Rafiq Ələkbər yaradıcılığında Vətən anlayışı sadəcə coğrafi məkan deyil, minilliklərin süzgəcindən keçib gələn tarixi yaddaş, zəngin mədəni kodlar toplusudur. Müəllifin "Vətən" poemasından gətirilən bu misralar milli özünüdərk konturlarını cızır:

"Zərdüşt - müqəddəsim, od - səcdəgahım,
Babəktək yenilməz yurdum, Vətənim.
Mənim əzəl yerim, axır pənahım,
Ağsaqqal baxışlı Qorqud Vətənim".

Müəllif bu misralarda Azərbaycanın mənəvi-tarixi xəritəsini çəkir: Zərdüştün işıq və qaranlıq mübarizəsindən Babəkin azadlıq ruhuna, Dədə Qorqudun müdrikliyindən Füzulinin məhəbbət fəlsəfəsinə, Nəsiminin əyilməz iradəsinə qədər uzanan bir genetik yaddaş xətti... Bu, poeziyanın tarixi-mədəni varislik missiyasını necə şərəflə daşıdığının bariz göstəricisidir.

Vətən mövzusu kitabda təkcə tarixi şəxsiyyətlər vasitəsilə deyil, gündəlik həyatın müqəddəs detalları ilə də açılır. "Təndir" şeiri buna parlaq nümunədir. Şair həyətlərdə təndirlərin azalmasından narahatdır və soruşur: bəlkə od payımızı unutmuşuq? Onun fikrincə, Tanrı bu torpağa od ruhu verib; yurdumuzun ürəyi də, süfrəmizdəki çörək də oddan doğulub. Təndir burada sadəcə məişət əşyası deyil - Zərdüştdən bu günə qədər uzanan od müqəddəsliyinin, ailə ocağının, bərəkətin və milli yaddaşın rəmzidir.

Təndirin sönməsi kökün unudulması, onu yaşatmaq isə yaddaşı qorumaq deməkdir. Şeirin son bəndini xatırladım:

"Tanrı bu torpağa od ruhu verib,
Bəxtini yazmaqsa yaddan çıxıbdır.
Təndirdə həm od var, həm də bərəkət,
Bizim çörəyimiz oddan çıxıbdır".

"Mənim" şeirində isə Vətən coğrafiyası bütöv bir taleyə çevrilir. Şair Kərkükü, Göyçəni, Təbrizi öz daxili xəritəsinin ayrılmaz hissəsi kimi sadalayır; Təbrizi hikmət mənbəyi, öz həyat yolunu isə müqəddəs bir ziyarət yolu kimi görür. İtkin yurdların həsrəti, dənizdən-dənizə uzanan arzular şairin taleyinə hopub. Burada Vətən artıq yalnız sevgi obyekti deyil, şairin öz kimliyidir: ömür başa çatanda belə, onun izi və son ümidi bu torpaqla bağlı qalacaq. Şeirin ikinci bəndi bu baxımdan xüsusilə təsirlidir:

"Kərkükdür, Göyçədir, Təbrizdir hikkəm,
Mənim öz yolum var, mənim öz Məkkəm.
Düzlər döşəyimdir, dağlar mütəkkəm,
Meşələr yorğanım olacaq mənim".

Kitabı bütövlükdə nəzərdən keçirdikdə onu bir-birinə bağlayan mərkəzi obrazın od olduğunu görürük. Bir tərəfdə İblisin təkəbbür odu, digər tərəfdə ilahi eşqin odu; bir tərəfdə Zərdüştün müqəddəs alovu, digər tərəfdə ana təndirindən çıxan bərəkətli çörəyin istisi. Şair bizi seçim qarşısında qoyur: hansı odla yanmalı, hansı odu yaşatmalı? Mənim fikrimcə, kitabın adındakı sualın cavabı da buradadır: tövbə - təkəbbür odundan üz döndərib eşq və bərəkət oduna qayıtmaqdır.

Bir elm xadimi kimi deyə bilərəm ki, Rafiq Ələkbərin "Bu qapı bəlkə tövbədir?" kitabı mənəvi böhranlar əsrində yaşayan müasir insan üçün bir ruh saflaşması, bir silkələnmə vasitəsidir. Şair öz poetik fəlsəfəsi ilə göstərir ki, hər kəsin daxilində açılmalı olan bir mənəvi tövbə qapısı var və o qapıdan keçmədən həqiqi saflığa, həqiqi Vətən və Tanrı sevgisinə çatmaq mümkün deyil.

Mən dəyərli şairimizi, hüquqşünas-ziyalımızı bu fundamental ədəbi töhfə münasibətilə ürəkdən təbrik edirəm. Ona yeni-yeni yaradıcılıq uğurları, tükənməz fəlsəfi ilham və möhkəm cansağlığı arzulayıram.

Qələminiz hər zaman haqqın, saflığın və sözün xidmətində olsun!

Tək səyahət üçün ən yaxşı şəhərlər

Təkbaşına səyahət etmək son illərdə sürətlə məşhurlaşsa da, düzgün istiqamət seçmək xüsusilə ilk dəfə yola çıxanlar üçün asan deyil. Beynəlxalq yük saxlama platforması "Radical Storage" tərəfindən hazırlanan "Tək Səyahət İndeksi" ("Solo Travel Index") Avropanın ən çox ziyarət edilən 48 şəhərini tək səyahət edənlər üçün qiymətləndirib.

Adalet.az xəbər verir ki, araşdırma gündəlik yaşayış xərcləri, təhlükəsizlik reytinqləri və hostellərin sayı daxil olmaqla, 11 fərqli meyar əsasında aparılıb.

Təhlil olunan bütün meyarlar üzrə Çexiyanın paytaxtı Praqa Avropada tək səyahət üçün ən rahat və təhlükəsiz şəhər seçilib. Praqada orta büdcəli səyahətçinin gündəlik xərci (gecələmə, qida, nəqliyyat və əyləncə) 134,3 avro olaraq hesablanıb.

Siyahının ikinci pilləsində Polşanın tarixi Krakov şəhəri yer alıb. Ucuz hostel imkanları ilə seçilən İstanbul isə ən yaxşı 3-cü şəhər olub.

Avropada tək səyahət üçün ən yaxşı 10 şəhər:

1. Praqa (Çexiya),
2. Krakov (Polşa),
3. İstanbul (Türkiyə),
4. Lissabon (Portuqaliya),
5. Qdansk (Polşa),
6. Berlin (Almaniya),
7. Porto (Portuqaliya),
8. Sevilya (İspaniya),
9. Barselona (İspaniya),
10. Riqa (Latviya).

Reytinqin ən son pilləsində İsveçrənin Sürix şəhəri qərarlaşıb. Günlük 168,1 avroya çatan yüksək yaşayış, qida və nəqliyyat xərcləri Sürixi tək seyahət edənlər üçün Avropanın ən az uyğun şəhərinə çevirib. İslandiyanın paytaxtı Reykyavik və İtaliyanın Venesiya şəhəri də yüksək qiymət amilinə görə antireytinqin ilk üçlüyündə yer alıblar.

Araşdırmada vurğulanır ki, tək səyahət edənlər xərcləri bölüşə bilmədikləri üçün büdcə amili həlledici rol oynayır. Siyahının ilk 10 şəhərində orta gündəlik xərc 153 avro təşkil etdiyi halda, sonuncu 10 şəhərdə bu rəqəm 252 avroya çatır.

Avropada tək səyahət üçün ən əlverişsiz 10 şəhər:

1. Sürix (İsveçrə),
2. Reykyavik (İslandiya),
3. Venesiya (İtaliya),
4. Orhus (Danimarka),
5. Köln (Almaniya),
6. Cenevrə (İsveçrə),
7. Frankfurt (Almaniya),
8. Nitsa (Fransa),
9. Marsel (Fransa),
10. Dublin (İrlandiya).



Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru

HEÇ BİR VAXT UNUDULMAYAN ELDAR BAXIŞ

(Onu tanıdığım qədər)

”Mən poeziyaya möcüzə kimi baxsam, ancaq o dini kitablardakı möcüzə kimi baxaram. Mən poeziyadan çəkdiyimi heç nədən çəkmirəm. Mən şeir yazmıram, and olsun o bir olan Allaha, səmimi deyirəm bunu, mən öz rahatlığım üçün yazıram, canımı qurtarıram şeirdən, şeir məni qoymur yaşamağa, mən də istəyirəm kəpənək kimi atılım-düşüm, ağac kimi tərpənim, su kimi axım” (ELDAR BAXIŞ)

1996-cı ilin 22 may günü 49 yaşına bir ay qalmış o, dünyanı tərk etdi. Doğrusu, belə hündür qamətli, sapsağlam bir kişinin-istedadlı bir şairin qəfil ölümü onu tanıyanların hamısını sarsıtdı. Bir televiziya verilişində onu yataqda, ölümün cəngində göstərirdilər. Şair Qulu Ağsəs böyük bir ürək yanğısı ilə görkəmi tamam dəyişmiş, gözlərində həyat eşqi sönmüş Eldar Baxışın son durumundan söz açırdı.

Eldar Baxışın yoxluğu indi artıq dərəcədə hiss olunur və poeziyadan bir işıqlı səsin, öz sözünün, öz qəlbinin, öz taleyinin şairi olan bir insanın var olmaması hər şeydən əvvəl, ədəbiyyat üçün ağır itgi idi.

O, Qubadlı rayonunun Diləli Müskanlı obasında, bir kəndli ailəsində doğulmuşdu. ADU-nun tarix fakültəsini bitirmişdi. Məndən iki kurs yuxarıda oxuyurdu. Biz onu elə tələbəlik illərindən şair kimi tanıyırdıq. ”Azərbaycan” jurnalının 1978-ci ilin avqust nömrəsində - ”Ədəbi gənclik” rubrikasında üç cavan şairin-Vaqif Cəbrayılzadənin, Vaqif Bəhmənlinin və Eldar Baxışın şeirləri gen-bol təqdim olunmuşdu. O, şeirə böyük bir ənənədən-sevgidən gəlmişdi, bəlkə də şeir yazmasaydı, yaxı bir tarixçi olacaqdı.

Allah insaf versin Sarı Aşığa,
Allah insaf versin Məmməd Araza,
Allah insaf versin Əli Kərimə,
Məni qoymadılar işimi görəm.

Bütün ömrü boyu o, hamının anlayacağı tərzdə yazdı və sübut elədi ki, Azərbaycan şeirini tapmaca, krossovord, müəmma oyununa qatışdırmaq olmaz.

Eldar Baxış deyirdi: ”Mən bir adi adam kimi-kəndçi balası, şəhərli balası, yer oğlu, göy oğlu kimi şeir yazan gündən qalmışam beş daş arasında. Birinci daş mən özüməm. İkinci daş mənim qələmimdir. Üçüncü daş kağızdı. Dördüncü daş Tanrıdı (daş dediyimə görə Tanrı məni bağışlasın. Ona görə ki, ağacı, quşu yaratdığı kimi, daşı da Tanrı özü yaradıb). Beşinci daş bu gidi dünyadı. Dəyirman daşı buğdanı, arpanı necə əzirsə, bu daşlar da mənim duyğumu, düşüncəmi eləcə əzir”. Amma bu daşlar Eldar Baxışı heç də o dediyi kimi əzə bilmədi. Bircə Ölüm olmasaydı. ”Ölüm” sözü ilə Eldar Baxışı yan-yana qoymaq bəlkə də bu dünyanın ən ədalətsiz işi olardı. ”Ölüm” dedim, Eldar Baxışın ”Balıq ölümü” poemasını xatırladım. Bu poema qısa bir ömür sürmüş, amma o az, yarımçıq ömrüylə də xatirələrdən, yaddaşlardan silinməyən Səməd Behrəngiyə həsr edilmişdi.

Azərbaycanın başı üstündə qara buludlar oynayırdı və belə bir vaxtda Eldar bir sıra söz adamları kimi müstəqillik savaşına qatıldı. Azad və sərbəst adam olduğu üçün qırmızı bayraqların dalğalandığı bir vaxtda ”Yaşılım, yaşılım, hara gedirsən?” şeirini yazdı.

Ağac yaşılım, hara gedirsən?
hara gedirsən yarpaq yaşılım?
Ot yaşılım, hara gedirsən?
hara gedirsən, kəpənək yaşılım?
Getmə, qayıt geri, başına dönüm.

Zori Balayanın ”Ocaq” kitabı çıxanda ona etiraz edən ilk şeiri o zaman dillər əzbəri idi:

O nədir yazmısan, Zori Balayan,
Kür-Araz deyirsən-kəkələyirsən.
Xırda budaqların üstə oturub,
Böyük budaqları silkələyirsən.



Dünya nə haydadır, sən nə haydasan,
A köhnə palazı sırıyan oğlan.
İrəvan dilində xoruzlanırsan,
Moskva dilində zarıyan oğlan.

Sən Zori Balayan, mən Eldar Baxış,
Baxıram, eləcə zoğallayırsan.
Keşiş zurna çalır, sən də keşişin
Qara zurnasını sığallayırsan.

Hələ yüzdən biri, mindən biridir
Bu mənim dərdimin, mənim sərimin.
samvel Azərbaycan xalq şairidir,
Ancaq adı yoxdur Əli Kərimin.

O nədir yazmısan, Zori Balayan,
”Bala” da bizimdir, ”zor” da bizimdir.
Ölmək istəyirsən gəl Qarabağa,
Kəfən də bizimdir, gor da bizimdir.

Belə deyirdi: ”Dünyada olan bütün insanların milləti var. Mən türkəm, sən ingilissən, o birisi fransızdı, bir başqası yapondu-yaxud peyğəmbərləri götürək: tutaq ki, İsa peyğəmbər cühuddu, Məhəmməd peyğəmbər ərəbdi. Hamımızın milləti var, amma Tanrının milləti yoxdu. Bəlkə buna görə də Tanrı göy üzündədi, biz yer üzündə.

Bəlkə buna görə Tanrı hamıdanməndən, səndən, bizdən, sizdən, peyğəmbərdən, imamdan böyükdü, uludu. Bəlkə buna görə min-milyon ildi əlləşirik, vuruşuruq, dua oxuyuruq, dəstəmaz alırıq, namaz qılırıq, oruc tuturuq, ancaq gedib o böyük, ulu Tanrıya qovuşa bilmirik”.

Amma o, elə sağlığında Sözün Tanrısına qovuşmuşdu.Ən yaxın dostlarından olan Vaqif Bayatlı Önər onun ölümündən sonra bu sözləri yazmışdı: ”Eldar Baxış Azərbaycan dilinin yox, türk dilinin şairidir. Türk dili Göyüzünün və Yerüzünün dilidir. Bu mənada Eldar Tanrının, Göyüzünün şairi olmaqla, həm bizim yaşadığımız bu yer üzünün də şairidir. Bu, Eldarın hamı gördüyü kiçik bir hissəsidir”.

Mən Eldarın ”Böyük qorxu”, ”Qələm”, ”Şair dostlar”, ”Deyə bilmədiyim sözlər”, ”Nəsə çatmır, çatmır bu yer üzündə”, ”Səsin nağılı”, ”Kəlbəcər şeirləri”, ”Əl”, ”Rəsul Rzanın ölümü”, ”Yolun iki üzü”, ”Qara qarışqalar” şeirlərini, ”Çaldıran döyüşü”, ”Kənd”, ”Balıq ölümü”, ”Davanın axırıncı günü” poemalarını dönə-dönə oxumuşam və bu şeirlərdəki poetik incələmələr bir yana, sözün içindəki o Azadlıq yanğısı heyrətə gətirib məni O, bütün varlığı ilə Azərbaycana bağlıydı, Livandan, Fələstindən yazanda da bizim dərdlərimizi ora qatırdı. Amma mən onu həm də insan hisslərinin, zərif duyğuların şairi kimi sevirdim. ”Sənə” silsiləsindən olan şeirlərində həm də onu sırf lirik şair kimi tanıdım.

Onun orijinal bayatılarından, ”Oyun havaları” silsiləsindən yazdığı ”Heyvagülü”, ”Gəlinatlandı”, ”Koroğlu nağarası”, ”Tərəkəmə”, ”Yallı” şeirlərindən xalq poeziyasının rayihəsini hiss edirdim:

Mən aşıq, yol açıqdı,
yar gəldi yola çıxdı.
Dizlərin -yurd yeridi,
Əllərim-alaçıqdı.

Mən aşıq, aran yeri,
dağ yeri, aran yeri.
Qibləyə döndərmişəm
sevgilim duran yeri.

Eldar Baxış həm də etiraf şairi idi. Dərd-sərini şeirdə deyirdi:

Bu sayda adam içində,
Bu soyda adam içindç,
Bu boydda adam içində
Dərd deməyə adam yoxdu.

O zaman mənə elə gəlirdi ki, üç şair-Məstan Günər, Ağa Laçınlı və Eldar Baxış şəhərdə yeriyən qaya parçalarıdır. Niyə onlar öz məhvərindən qopub bu dağı, qayası, zirvəsi olmayan şəhərə üz tutublar?

Şəhərdə qalmazdım, belə bilsəydim,
götürüb qaçardım şələ-şüləmi.
Orda da tapardım
burda tapdığım
kitabı, dəftəri,
kağız-qələmi
Kərənti vurardım, bağ bağlayardım,
pencəni yığardım pencənin üstə.
Evə də gəlməzdim axşam düşəndə,
yıxılıb yatardım gecənin üstə.

Ulduzlu göyləri, aylı göyləri
çəkərdim başıma yorğan yerinə.
Bir də durardım ki, dan yeri dönüb
bir ları xoruzun lələklərinə.

Qalxıb bütün günü ot daşıyardım,
papiros çəkərdim kötüyə kimi.
Hortum yarpağını,
gül yarpağını,
gözümə təpərdim tütüyə kimi.

Amma Eldar Baxış öz şeirlərilə ”başına döndüyü” Bakı şəhərinə dağların küləyini, bulaqların saf suyunu, yaşıl meşələrin sərinliyini, dağların gözəlliyini gətirdi. Azərbaycan şeirinə bir dağ havası qatdı.

Və mərhum ədəbiyyatşünas İradə Musayevanın sözünə haqq qazandıram: Eldar Baxış unudulmağa layiq olmayan şairdir.

ƏLBƏTTƏ, HEÇ BİR VAXT UNUDULMAYIB...

Zəfər müjdəli qayıdış

Əbədi, əzəli torpaqlarımız, bu torpaqlarda yurd-yuva quran dinc əhali erməni təcavüzünə məruz qalanda sinəsini düşmən həmləsinə sipər edən qəhrəman Vətən oğullarından biri də Fikrət idi.

Fikrət Abbas oğlu Əzizov (1961-1992) Qaradağ rayonunun Qobustan qəsəbəsində sadə və zəhmətkeş bir ailədə doğulub, boya-başa çatmışdı. O, təhsilini Qobustan qəsəbəsindəki 195 saylı səkkizillik məktəbdə tamamlamış, hərbi xidmətə qədər qəsəbədəki 5 sayli Yük Avtonəqliyyat müəssisəsində çilingər kimi çalışmışdı.

Ordu sıralarında hərbi xidmətini başa vurduqdan sonra Fikrət atasının işlədiyi müəssisədə - Korgöz Tikinti materialları kombinatında (daş karxanasında) Abbas kişinin davamçısı kimi, çörəyini daşdan çıxarmaq yolunu seçir. Çörəyi daşdan çıxarmaq da bir qəhrəmanlıq nümunəsidir. Bu qəhrəmanlıq təbii ki, əmək və zəhmət meydanında qazanılan bir qəhrəmanlıqdır.

Fikrət bizim yaşdımız və məktəb yoldaşımız idi. O, dağ cüssəli, qaynar və həyatsevər təbiətli bir gənc idi. Fikrətin adı çəkiləndə həmişə Nizami Gəncəvinin əsas qəhrəmanlarından biri olan - Bisütunu muma döndərən Fərhad obrazı gözlərimizin önündə canlanır. Fərhad və Fikrət şəxs adları arasında qəribə bir yaxınlığın, oxşarlığın ilkin əlamətlərini də hiss etmək o qədər çətin deyil. Fərhad öz məhəbbəti yolunda hünər göstərən bir aşiq idi. Fikrətin vətən aşiqliyi mükəmməl bir eşq fəlsəfəsi idi. Onun burada təfərrüatı ilə şərh etməyə, incələməyə elə bir ehtiyac da yoxdur.



Fikrət ailəsini, körpə uşaqlarını düşünmədən, ölüm-dirim savaşına atılan bir qəhrəman idi. O, bu amansız döyüşə könüllü atılmışdı. Yaddaşlarda əbədi qalmaq üçün bu yolu seçmişdi. Bu yoldan onu heç kəs çəkindirə bilməzdi.

Nə Fikrətin atasının, nə də onu dünyaya gətirən Tehran xanımın ağıllarına da belə gəlməzdi ki, övladları müharibə və ölüm-dirim səngərinin əsil qəhrəmanına çevriləcək. Yaxşı bir deym var ki, qəhrəmanı zaman yetişdirir. Ancaq qəhrəman elə ana bətnindən də qəhrəman kimi doğulur.

On övlad dünyaya gətirən Tehran xanım da qəhrəman ana idi. Sinəsindəki ”Qəhrəman ana” ordeni ona təsadüfi verilməmişdi. Fikrət onun qəhrəman ana statusuna öz qanı, canı bahasına, 33 il naməlum ərazilərdə qalan şəhid cənazəsi ilə yeni bir əlavə eləməyi bacardı: Qəhrəman oğulun qəhrəman anası!

Fikrətin Ağdam cəbhəsindən Şuşaya, XX əsrin faciəsi olan Xocalıya qədər keçdiyi döyüş yolundan indi də ağız dolusu danışılır. Onun döyüş meydanlarında göstərdiyi fədakarlıqlar hərbi əməliyyatlara dair sənədlərdə özünün təsdiqini tapır. Bu əfsanəvi, ”Vəhşi” ləqəbli döyüşçünün ölümün, amansız işgəncələrin pəncəsindən xilas etdiyi dinc sakinlərin hekayətləri nağıl qəhrəmanlarının şücaətini xatırladır.

Ermənilərə qan udduran, onları qorxu və səksəkə içində saxlayan Fikrəti ələ keçirənə, məhv edənə küllü miqdarda mükafat təsis olunması qəhrəmanın şücaəti haqqında düşmən etirafı kimi, bir çox qaranlıq mətləblərə aydınlıq gətirir.

Fikrətin bir qəhrəman döyüşçü kimi qayıdışı çox üzun çəkdi: o, 33 ildən sonra işğal altında inləyən torpaqlarımız azad ediləndən, ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olunandan, erməni terror dəstələrinin sonuncu nəfəri Azərbaycan ərazisindən çıxarılandan sonra baş verdi. Bu, belə də olmalı idi. Fikrət qarşısına qoyduğu məqsədə çatmadan qayıda bilməzdi. Qayıdış yalnız qələbədən sonra mümkün idi.

Bir il bundan əvvəl - oktyabr ayının 30-da Fikrətin üçrəngli bayrağa bürünən nəşinin gətirilməsi, dövlətin uzun illər öz igid döyüşçüsünü intizarla gözləyən yaxınları, doğmaları ilə görüşdürdü. Fikrət öz doğma ev-eşiyinin bir neçə saatlıq qonağı oldu. Bunu əks etdirən kadrlarda, video-görüntülərdə doğmaların, yaxınların Fikrət üçün axıtdığı göz yaşlarını, insanı duyğulandıran, kövrəldən məqamlara baxmaq bu qəhrəman döyüşçünün taleyi barədə ürək sızladan, eyni zamanda, qürurverici bir təəssürat yaradır.


Dövlət strukturlarının, rayon və qəsəbə ictimaiyyətinin iştirakı ilə keçirilən matəm mitinqində şəhidin döyüş yolundan, şücaətindən geniş bəhs edildi. Təsirli və kövrək notlar üstə çıxışlardan biri də baba Fikrətin nəvəsi - adının yanına Fikrət sözünü yazan Dərya Fikrətin çıxışı idi. Dəryanın babası Fikrətin doğma ev-eşiyinə gəlişini, üçrəngli bayrağa bürünmüş tabutunu gül yağışı ilə qarşılaması da belə təsirli səhnələrdən biri kimi yadda qaldı.

Üzünü görmədiyi, nəvazişini hiss etmədiyi babası haqqında məktəbli qızın vida sözündə kədərlə, dərin hüznlə qürur hissinin qəribə bir vəhdət halına gətirilirdi. O, ötən bir il müddətində babasının ruhunu şad edəcək bir uğura da imza atıb - ali məktəb tələbəsi adını qazanıb.

O, Fikrət həsrəti ilə dünyadan köçən ata-anasının uyuduğu ”Sofi Həmid” qəbirsanlığında hərbi və islami qaydada canından əziz sevdiyi torpağa tapşırıldı. Zəfərlə qayıdan Fikrət əbədiyyət ünvanlı bir qəhrəmandır.

Nur içində uyu əziz dost, zəfərin mübarək!

Qürbət Mirzəzadə,
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, AYB-nin və AJB-nin üzvü



BAYAT



№ 100 (960)

Torpağıma göz dikən gözlər ovulsun gərək, Bu gün Zəfər günüdür, Zəfərimiz mübarək!



Cümşüd AYDƏMİR

Payızdır...

Üşəndim yağışın şırıltısından,
Süsləndim bir qızın pıçıltısından,
Qamaşdım rənglərin parıltısından,
Qızıl payızdır...

Diksindim göylərin uğultusundan,
Şaqqanaq şimşəyin gurultusundan,
Beşikdə körpənin...qığıltısından,
Daha payızdır...

Torpağın üstünə sərilib xalı,
Yarpaq örtüyüdür rəngbərəng şalı,
Gözəllər rəqs edər əli xınalı,
Gözəl,payızdır!...

Donuq baxışlarla baxır harasa,
Bir şəhid atası əlində əsa,
Bir şəhid anası bataraq yasa,
Axı,payızdır...

Zəfər nəğməsi

Sən vətən torpağının ey müsəlləh əsgəri,
Düşmənin bağrın yarıb orda qurdun səngəri,
Səni əzizim kimi qucaqlayım, gəl bəri,
Vətənə sənin kimi,mərd oğullardır gərək,
Bu gün Zəfər günüdür,Zəfərimiz mübarək!

Şəhidlərin qanıyla sulandı ana torpaq,
Analar nalə çəkdi, alışıb yandı torpaq,
Torpağın sinəsindən göyə ucaldı bayraq,
Vətən üçün canından keçən oğullar gərək,
Bu gün Zəfər günüdür,Zəfərimiz mübarək!

Dünya hərb tarixinə şərəflə yazdın adın,
Eşq olsun analara,qəhrəman doğan qadın,
Düşmənlərə görk oldu,gözü kor oldu yadın,
Torpağıma göz dikən gözlər ovulsun gərək,
Bu gün Zəfər günüdür,Zəfərimiz mübarək!

Ömrün saralan çağıdı

Dili şirin,sözü məzə,
Bir söz söylə yeni,təzə,
Seyr eləyək gəzə-gəzə,
Payızın bahar çağıdı!

Nədi üzündəki qübar,
Bir nar dərdim, sənə nübar,
Xəbər verir gülöyşə nar,
Payızın oğlan çağıdı!

Bax,göbələk ətək-ətək,
Papaq yekə,özü gödək,
Asta-asta yığaq, dərək,
Əsil yeyilən vaxtıdı!

Xəfif əsən soyuq külək,
Yarpaqları əsdirərək,
Tökür yerə, xalı sərək,
Ömrün saralan çağıdı!

Mənim şeirlərim...

Mənim şeirlərim agbəniz gozəl,
Mənim yazdıqlarim comərd kişidi...
Hüsnünə yazdığım o beş beyt qəzəl,
Gəlinin belində kəmər kimidi.

Namərdi atından salandı şerim,
Xəbis ürəklərə dağ çəkə bilər.
Sehrdi,möcüzdü,tilsimdi şerim,
Təkənin ”süd”ündən yağ çəkə bilər.

Mənim şeirlərim yaltaqçün deyil,
Yarınmaq,sarınmaq xətası olmaz.
Özundən müştəbeh maymaqçün deyil,
Lovğalıq,gədalıq ədası olmaz.

Mənim yazdiqlarım məhrəmdi mənə,
Vulkan tək içimdən qaynayib çıxır.
Qəzəbi qasırğa,sevgisi Günəş,
Cücərən rişə tək pırtdayıb çıxır.

Mənim istəyim də,arzum da budur,
Uca Şah dağindan güc alsın şerim.
Cəsur babalar tək qəhrəman kimi,
Zamanın fövqünə ucalsın şerim!

Mənim şeirlərim ağbəniz gözəl,
Mənim yazdıqlarim comərd kişidi.
Hüsnünə yazdığım o beş beyt qəzəl,
Gözəlin belində kəmər kimidi.

Bağışla...

Mən qollu-budaqlı palıd ağacı,
Sən mənim kölgəmdə bitən çiçəksən.
Mən palıd ömrümü yaşayacağam,
Sən mənim eşqimlə süslənəcəksən.

Palıdın qış ömrü, yaz ömrü olur,
Ay mənim ömrümün həsrət çiçəyi.
Şaxtaya,küləyə bir sipər olur,
Belədir həyatın doğru, gerçəyi.

İllər gəlib kecir küləklər kimi,
Xəyal qırıqlığı yaşama, gülüm.
Qəfil gedər olsam tərs qonaq kimi,
Məni tərsliyimə bağışla,gülüm.

Ömrün payızıdır...

Dağlara qar yağdı, qəlblərə qubar,
Ömrün payızıdır, qışa var hələ.
Kimlərə qayğıdır, kimlərə nübar,
Amma yaşamağa həvəs var hələ!

Dağlara qar yağdı, boz qayalar da
Büründü gəlin tək ağ libasına.
Dağlara qar yağdı, o gur şəlalə
Döndü qaya boyu buz əbasına...

Dırnağı ucunda dağ təkəsinin,
Şahanə duruşu dağa yaraşıq.
Oğul istəyirəm şəklini çəksin,
Yalda ot qırpanda mamır qarışıq...

Ətrafa səs salıb axan dağ çayı
Şaxtadan səsini çəkib içinə.
Ov iti yanında Hacımət dayı
Şaxtanı, soyuğu almır vecinə.

Qarda ov axtaran Alabaş yenə,
Dovşanın iziylə atılıb-düşür.
Kol-koslar qar altda bax topa-topa,
Alabaş qəfildən dağdan sürüşür.

Dağlar qonaq sevər dağlılar kimi,
Niyyətin saf ola, qəlbin də açıq.
Bu yurda, torpağa bağlılar kimi,
Qoynunda yer verər, qapısı açıq.

Dağlara qar yağdı...üşüdüm elə,
Canımdan min ilin ayazı keçdi.
Dağlara qar yağdı...sevindim elə,
Qəlbimdən uşaqlıq sevdası keçdi.

Dağlara qar yağdı, qəlblərə qubar,
Ömrün payızıdır, qışı var hələ.
Kimisi yoxsuldur, kimisi kübar,
Taleyin hər kəsə payı var belə.

Şəhidlər

Bu torpağa qeyrət dəni səpdilər,
Namus üstə vuruşdular şəhidlər!
'Vətən”deyib canlarından keçdilər,
Haqq yolunda savaşdılar şəhidlər!

Qiyamətə saxlamadı qisası,
Qırdı-qaçdı şər erməni dığası,
Qarabağı azad etdi, qısası
Qanlarıyla tarix yazdı şəhidlər!

Hər bir şəhid daş heykəldi, nər idi,
Biri ata, biri oğul, ər idi,
Döyüşlərdə aslan idi, şir idi,
Ürəklərə adın yazdı şəhidlər!

Şəhid qəbirləri özü vətəndi,
Vətən özü boyda bir abidədi,
Mayakdı,məhəkdi, ali zirvədi,
Sönməyən işıqdı,nurdu şəhidlər!

Çıxıb getdi

Vuruldum sərvinə bir sərvinazın,
Qarışdı ömrümdə payızım, yazım.
İstədim adını qəlbimə yazım,
Düşdü aralığa söz, çıxıb getdi.

Bilmədim kim çəkdi işvəsin, nazın,
Qaldı ürəyimdə arzum, murazım,
İstədim gözünün sehrində azım,
Dəydi eşqimizə göz, çıxıb getdi.

Ürək ha ətdəndir, deyil ki, dəmir,
Gərəkdir nitqimi eyləyəm təmir.
Daha gecikmisən Cümşüd Aydəmir,
Yandırsın dilini köz, çıxıb getdi.

Dağlılar

Şəhərə üz tutub, arana enib,
Qoymayın dağları tənha, dağlılar!
Boş qalan evlərə kim yiyələnib?
Gəlməyin amandı aha, dağlılar!

Ağır döyüşlərdə tərk etmədiniz,
Vuruşduz mərdanə, cəsur dağlılar!
Hər cür çətinliyə sinə gərdiniz,
Olmadız heç zaman məzur, dağlılar!

Dağlar arxa durub dağ adamına,
Arxa çevirməyin onlara siz də.

Bədniyyət insanı kandarınıza
Buraxıb getməyin heç yana, siz də.

Getmə dağ adamı, boş qoyma yurdu,
Sənə əmanətdir bu od, bu ocaq...
Bir vaxt baban burda bir yuva qurdu,
Dağlar açdı sənə mehriban qucaq...

Şəhərə üz tutub, arana enib,
Qoymayın dağları tənha, dağlılar!
Boş qalan evlərə kim yiyələnib,
Etməyin amandı günah, dağlılar!

Gəlişinlə

Dolana-dolana uzanan yollar,
Sənin gəlişinlə qısala bilər.
Həsrətdən saçıma qonan dümağ qar,
Bir anda əriyib yox ola bilər.

Unudub hər şeyi ataq kənara,
Dünya təzələnsin şehli çiçək tək.
Birlikdə yox deyək qaranlıqlara,
Arılar bizimçün şirə çəkəcək.

Gözəllər bir az da gözəlləşəcək,
Təzəbəy geyəndə bəy libasını.
Cavanlar qol-qola ”Yallı” gedəcək,
Qız-gəlin saçanda naz, ədasını.

Hər şey dəyişəcək lap əvvəlki tək,
Özgə bir aləmdən səda gələcək.
Bülbüllər bizimçün qəribsəmiş tək,
Şirin cəhcəhiylə nəğmə deyəcək.

Dolana-dolana uzanan yollar,
Sənin gəlişinlə qısala bilər.
Həsrətdən saçıma qonan dümağ qar,
Bir anda əriyib yox ola bilər.

Xınalıq

Ərənlərin yurdudur,dağ başında papaqdır,
Buludlardan ucada bir adadır Xınalıq.
Hər qaya bir ordudur,igidlərə dayaqdır,
Sanırıq ki, ucada bir Qoca-dır Xınalıq.

Nuh peyğəmbər dilində danışıb mazan*ları,
Kətsimi** söylənilir aşıb çox mizanları,
Qonşu Dağıstan ilə qaynıyır qazanları,
Dostum, adi kənd deyil, tapmacadır Xınalıq.

Tanınır e hər kəsi böyüyə hörmətiylə,
Uşaqlığim keçibdi bu kəndin ümmətiylə,
Soy kökünə bağlıdır hər ev züriyyətiylə,
Dağdan qalxan tüstüdür, bir bacadır Xınalıq.

Hər daşı bir tarixdir, yurd daşımdı oxunur,
Saxta tarix yazanlar yad daşımdı,qoxunur,
Xınalıqda yaşayan qardaşıma toxunur,
Doğmaya əlüstüdür,bir haçadır Xınalıq.

Hər küçədə övliya, hər kücədə piri var,
”Xidır Nəbi” adında çox möhtəşəm biri var,
Burda süfrə açmağın bilsəz necə yeri var,
Göydən yerə sallanan bir türbədir Xınaliq.

Ərənlərin yurdudur, dağ başında papaqdır,
Buludlardan ucada bir adadır Xınalıq.
Hər qaya bir ordudur, igidlerə dayaqdır,
Sanırıq ki,ucada bir Qica-dır Xınalıq.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

№ 42 (2514) 6 noyabr 2026-cı il

Azərbaycan Respublikası
Media və Yayım Şurası



44 GÜNLÜK İKİNCİ QARABAĞ SAVAŞINDA AZƏRBAYCAN XALQININ GÜCÜ



Müharibələr həmişə ölkələrə faciələr, göz yaşı, insan ölümü gətirib. Hələ bununla yanaşı, şəhərlər, qəsəbələr, kəndlər atılan bombalar, mərmilər nəticəsində yerlə-yeksan olub. Təbii ki, heç bir xalq müharibə arzulamaz, amma elə müharibələr var ki, onu etməyə və aparmağa məcbursan.

Azərbaycanın ərazisinin 20 faizi ermənilər tərəfindən işğal olunmuşdu. Və bu işğala da 30 ildən çox beynəlxalq təşkilatlar, dünyanın super gücləri göz yummuşdular. BMT kimi mötəbər bir qurumun çıxartdığı dörd qətnamə havadan asılı vəziyyətdə qalmışdı. Və məlum qurum heç vaxt onun icrası ilə maraqlanmamış, bir-iki bəyanat verməklə öz işini bitmiş hesab etmişdi. Amma buna nə müzəffər Ali Baş Komandan İlham Əliyev, nə də Azərbaycan xalqı heç vaxt dözmürdü. Ən azından ona görə ki, səbrin də bir həddi, bir norması var. Və artıq Azərbaycanın səbir kasası daşmışdı. Üstəlik də ermənilər bütün sərhədyanı yaşayış məntəqələrimizi fasiləsiz olaraq ağır artilleriyadan atəşə tuturdular. Hələ bu da azmış kimi yeni-yeni şəhərləri və kəndlərimizi işğal etməkdən danışırdılar. Hətta deyirdilər ki, erməni tankları Bakıya girəcək, biz orda çay içəcəyik. Bunun cavabını Ali Baş Komandan 44 günlük İkinci Qarabağ savaşında çox yaxşı verdi. Cənab prezident dedi ki, bəli, onların tankları Qənimətlər Parkına gətirildi. Eləcə də xunta rejiminin yüksək vəzifəli şəxsləri indi Bakıdakı təcridxanada çay içirlər.

Beləliklə, Ali Baş Komandanın əmri ilə 2020-ci ilin sentyabrın 27-də Azərbaycan Ordusu əks hücuma keçdi, 44 günlük İkinci Qarabağ savaşı başladı. Biz bu yazımızda böyük Qarabağ savaşında Azərbaycan prezidentinə, ordumuza, əsgərlərimizə arxa durmuş xalqımızın qəhrəmanlıqlarından və onların göstərdiyi şücaətdən söhbət açacağıq.

Əsgərlərimiz öz sözlərini 44 gün ərzində möhtəşəm qələbə ilə dedilər, şəhidlərimiz azad etdikləri torpaqlar uğrunda canlarından keçdilər, qazilərimiz döyüşməkdən yorulmadılar, qaliblərimiz ildırım sürətilə irəlilədilər. Onlara arxa duran isə Azərbaycan xalqı idi. O Azərbaycan xalqı ki 44 günlük İkinci Qarabağ savaşında Ali Baş Komandan İlham Əliyevin və Ordunun ətrafında bir dəmir yumruq kimi birləşdi. Xalq nə qədər bir oldusa, o Dəmir yumruq bir o qədər güclü oldu.

İkinci Qarabağ savaşının ilk günündən son gününədək bir jurnalist olaraq mən əsgərlərimizin, döyüşən ordumuzun, igid ərənlərimizin yanında oldum. Heç vaxt yadımdan çıxmaz, mənim yaxın qohumum, daha doğrusu, bibim nəvəsi Elçin Tehran oğlu Süleymanov sentyabrın 30-da Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olmuşdu. O şəhidin dəfnində minlərlə insan iştirak edirdi. Tək Füzulidən deyildi, qonşu rayonlardan axın-axın insanlar gəlirdi. Hamı istəyirdi ki, heç olmasa cənazəyə çiyin verməsə də əli ilə Elçinin cənazəsinə toxunsunlar və bundan bir təsəlli alsınlar ki, şəhidimizi son mənzilə yola saldılar. O dəqiqələrdə, o anlarda mən xalqımızın necə möhkəm birləşdiyini, bir yerdə olduğunu və möhtəşəm göründüyünün bir daha şahidi oldum.

Bu, Azərbaycan xalqı idi. Ən çətin anda döyüşən oğulların yanında olan Azərbaycan xalqı. Həmin günlərdə mənim bir neçə tanışım vardı. Eşitdilər ki, cəbhə xəttindəyəm Bakıdan bir mikroavtobus müxtəlif ərzaq malları, qidalar, geyimlər, sular, siqaretlər gətirərək hərbi hissələrə verirdilər. Düzdür, hərbi hissələrimiz hər cür ərzaqla təmin edilirdi, amma xalq da, kütlə də əsgərlərimizə öz yardımını edirdi. Onlara isti paltarlar, corablar gətirirdilər. Havalar o qədər soyuq olmasa da, amma bir kömək də, bir yardım da böyük şey idi.

Cahangir adlı dostumun iki oğlu düz üç dəfə cəbhə bölgəsinə yardım gətirdi. Belə insanlar onlarla, yüzlərlə idi. Çünki onlar hər bir kəndimiz azad olunanda sevincindən ağlayır və əsgərlərimizə belə bir yardım göstərməklə özlərində bir rahatlıq tapırdılar. Həmin günlərdə Horadizdəki çörək zavodu düz 24 saat dayanmadan işləyir, ordumuzu isti çörəklə təmin edirdi. Çörək zavodunun direktoru rəhmətlik Süleyman İsmayılov səhərə qədər sexdə qalır, insanlara ürək-dirək verir və tezliklə qələbə çalacağımızı bildirirdi. Hətta həmin dövrdə Horadiz Çörək zavodunun həyətinə ermənilər üç dəfə mərmi atdılar. Xoşbəxtlikdən ölüm-itim olmadı, amma zavodda işləyən bir neçə qadın ehtiyat edib işə çıxmadı, bunun əvəzində rəhmətlik Süleyman müəllimin Bəhmənlidəki bir neçə qadın qohumu könüllü olaraq gəlib 24 saat çörək zavodunda işlədilər. Onlar dedilər ki, biz ölərik, ancaq əsgərlərimizi ac qoymarıq. Bəli, bax, onlar arxa cəbhədə çörək zavodunda ölümdən qorxmayaraq 44 gün "döyüşdülər". Tək ön cəbhədə döyüşmürdülər, həm də arxa cəbhə döyüşürdü.

Həmin dövrdə həkimlərimizin də qəhrəmanlığını bir daha yada salmaq lazımdır. Onlar Ağdamda, Füzulidə, Gəncədə briqada şəklində fəaliyyət göstərirdi. Cərrahlar briqadası xəstəxanada ağır vəziyyətdə gətirilən əsgərlərimizi təcili surətdə əməliyyat edir və onları həyata qaytarırdılar.

Məşhur cərrahlardan biri deyirdi ki, biz 24 saat iş başında olurduq. Təcili tibbi yardım maşınları xəstəxananın həyətinə daxil olan kimi biz hamımız hazır vəziyyətdə idik. Çünki dövlətimiz bu əməliyyatları aparmaq üçün bütün şəraiti biz cərrahlara yaratmışdı.

Füzulidəki Diaqnostika Mərkəzində də ən ağır cərrahiyyə əməliyyatları aparılırdı. Burda həkimlərin bacarığı, istedadı və savadı nəticəsində yüzlərlə əsgərimiz həyata qaytarıldı. Elə əsgər varıydı ki, yarası sağalan kimi yenidən cəbhəyə yola düşürdü.

Bax, 44 günlük İkinci Qarabağ savaşında həkimlərimiz, arxa cəbhə və eləcə də digər insanlar ordumuza belə kömək etdilər. Qüdrətli dövlətin və qüdrətli ordunun arxasında xalq dayananda onu heç vaxt məhv etmək olmur. Azərbaycan Ordusunun arxasında isə Ali Baş Komandan İlham Əliyev və Xalqımız dayanmışdı. Allah Prezidentimizi və Xalqımızı qorusun! Şəhidlərimizin yeri cənnət olsun, qazilərimizə və qaliblərimizə isə ömür versin!

Emil FAİQOĞLU

AZƏRBAYCAN RESPUBLİKASI
MEDİA VƏ YAYIM ŞURASININ MALİYYƏ YARDIMI İLƏ

Isparta - Türkiyənin gül qoxulu şəhəri

Anadolunun minilliklərdən süzülüb gələn tarixi, təbiətin yaratdığı ecazkar mənzərələr və insan zəhmətinin bəxş etdiyi gözəlliklər Türkiyənin cənub-qərbində yerləşən Isparta bütün bunları özündə birləşdirən, hər qarışında tarixin nəfəsini, hər bağında isə təbiətin ətrini yaşadan şəhərlərdən biridir. Qızılgül bağlarının ətrinin uzaqlara yayıldığı, yay aylarında lavanda tarlalarının bənövşəyi rəngə boyandığı, göllərinin sakitliyi və dağlarının əzəməti ilə insanı valeh edən bu şəhər Türkiyənin turizm xəritəsində özünəməxsus yer tutur.

Bəzən Türkiyənin "Gül şəhəri" adlandırılan Isparta yalnız qızılgül və gül yağı istehsalı ilə tanınmır. Onun minillik tarixi, qədim sivilizasiyalardan yadigar qalan abidələri, gölləri, meşələri, dağları, qış turizmi imkanları və zəngin kənd təsərrüfatı ənənələri şəhəri fərqli turizm istiqamətinə çevirir.

İstanbulun tarixi küçələri, Antalyanın mavi sahilləri, Kapadokiyanın qeyri-adi mənzərələri ilə tanış olan turistlər üçün Isparta başqa bir dünyanın qapılarını açır. Burada insan həm qədim Anadolu sivilizasiyalarının izləri ilə qarşılaşır, həm qızılgül bağlarında təbiətin möcüzəsinə şahid olur, həm də göl sahilində zamanın axarını unutduran sakitlik tapır. Ispartanı fərqləndirən də məhz bu müxtəliflikdir.

Şəhərin tarixini araşdırarkən aydın olur ki, onun yerləşdiyi ərazi minilliklər boyu müxtəlif xalqların və sivilizasiyaların yaşayış məkanı olub. Arxeoloji tədqiqatlar bölgədə Neolit, Kalkolit və Tunc dövrlərinə aid yaşayış izlərinin mövcudluğunu təsdiqləyir. Bu faktlar Isparta torpaqlarının qədim Anadolu tarixində mühüm yer tutduğunu göstərir. Antik dövrdə indiki Isparta və ətraf ərazilər Pisidiya adlanan tarixi bölgənin tərkibində idi. Burada yaşayan yerli icmaların mədəniyyəti zaman keçdikcə Frigiya, Lidiya, Fars və Makedoniya siyasi təsirləri ilə zənginləşib. Sonralar bölgə Selevkilərin, daha sonra isə Roma imperiyasının hakimiyyəti altına keçib.



Roma dövründə Pisidiya mühüm yaşayış və ticarət məkanlarından birinə çevrilib. Bu gün Yalvaç yaxınlığında yerləşən Pisidiya Antioxiyası, Uluborlu ərazisindəki Apolloniya və digər qədim yaşayış məntəqələri həmin dövrün tarixi yaddaşını yaşadır. Bu ərazilərə nəzər salarkən insan sanki əsrlərin o tayına boylanır, daşlara həkk olunmuş tarixlə üz-üzə qalır.

Isparta tarixinin mühüm səhifələrindən biri də Bizans dövrü ilə bağlıdır. 1176-cı ildə Səlcuq hökmdarı II Qılınc Arslan ilə Bizans imperatoru I Manuel Komnin arasında baş verən Miryokefalon döyüşü Anadolu tarixində dönüş nöqtələrindən biri hesab olunur. Bizans ordusunun məğlubiyyəti türklərin Anadoluda mövqelərinin möhkəmlənməsinə ciddi təsir göstərib. Döyüşün dəqiq yeri ilə bağlı tarixçilər arasında müxtəlif fikirlər mövcud olsa da, hadisənin Isparta və ətraf bölgələrlə tarixi əlaqəsi xüsusi əhəmiyyət daşıyır.

XIII əsrdə Anadolu Səlcuq dövlətinin hakimiyyəti altında olan bu ərazilər sonradan Anadolu bəyliklərinin siyasi mübarizə meydanına çevrilib. 1301-ci ildə meydana gələn Hamidoğulları bəyliyi bölgənin siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynayıb. Uluborlu və Eğirdir bu bəyliyin əsas mərkəzləri sırasında yer alıb. Həmin dövrdə ticarət, sənətkarlıq və şəhər həyatı inkişaf edib. Məşhur ərəb səyyahı İbn Battutanın XIV əsrdə bu bölgəyə səfəri və öz qeydlərində yerli yaşayış məntəqələri, bazarlar və iqtisadi həyat haqqında məlumat verməsi də həmin dövrün tarixi mənzərəsini anlamaq baxımından maraqlıdır.

XIV əsrin ikinci yarısından etibarən Isparta Osmanlı hakimiyyətinə daxil olub. Osmanlı dövründə şəhər inzibati, ticarət və sənətkarlıq mərkəzi kimi inkişaf edib. Məscidlər, mədrəsələr, bazarlar və ictimai tikililər şəhərin memarlıq simasını formalaşdırıb. Bu tarixi irsin günümüzə qədər gəlib çatan nümunələrindən biri Kutlu bəyin adı ilə bağlı olan Ulu məsciddir. 1417-ci ildə bərpa etdirildiyi bildirilən bu abidə Ispartanı ziyarət edənlərə şəhərin Osmanlı keçmişindən xəbər verir.

1923-cü ildə Türkiyə Cümhuriyyətinin qurulmasından sonra Isparta yeni dövlətin inzibati sistemində vilayət statusu ilə yer alıb. Mustafa Kamal Atatürkün 6 mart 1930-cu ildə şəhərə səfəri isə Isparta tarixinin əlamətdar hadisələrindən biri kimi yadda qalıb. Tarixin müxtəlif mərhələlərindən keçən Isparta bu gün Türkiyənin Aralıq dənizi bölgəsində yerləşən, təxminən 8 933 kvadratkilometr əraziyə malik bir vilayətdir. Antalya, Burdur, Afyonkarahisar və Konya ilə qonşu olan şəhərin coğrafi mövqeyi onun turizm imkanlarını daha da genişləndirir. Dağlar, göllər, meşələr və yaylalar bu torpaqlara xüsusi gözəllik bəxş edir. Eğirdir və Kovada gölləri, Gölcük krater gölü, Davraz və Dedegöl dağları Ispartanı təbiət həvəskarlarının diqqət mərkəzinə gətirən əsas məkanlardandır.

Lakin Ispartanı dünyaya tanıdan ən mühüm sərvətlərdən biri onun qızılgül bağlarıdır. Şəhərdə qızılgülçülük sadəcə kənd təsərrüfatı fəaliyyəti deyil, əsrlər ərzində formalaşmış ənənə, iqtisadi həyatın mühüm sahəsi və yerli mədəniyyətin ayrılmaz hissəsidir. Səhərin ilk işığında qızılgül bağlarına yayılan ətir, çiçəklərin toplanması ilə başlayan zəhmətli proses və bu çiçəklərdən əldə edilən qiymətli gül yağı Ispartanı beynəlxalq ətriyyat və kosmetika sənayesində tanıdan əsas amillərdəndir.

Gül yığımı mövsümündə şəhərə gələn turistlər bu gözəlliyə yalnız tamaşa etməklə kifayətlənmirlər. Onlar bağlarda məhsul yığımını izləyir, gül yağının hazırlanma prosesi ilə tanış olur, qızılgüldən hazırlanan müxtəlif məhsulları əldə edirlər. Beləliklə, adi kənd təsərrüfatı fəaliyyəti turistlər üçün maraqlı təcrübəyə, yerli sakinlər üçün isə əlavə gəlir mənbəyinə çevrilir.

Ispartanı fərqləndirən digər təbii gözəllik isə lavanda bağlarıdır. Xüsusilə Keçiborlu rayonunun Kuyucak kəndi bu sahədə Türkiyənin ən tanınmış turizm məkanlarından biri hesab olunur. İyun ayının ortalarından iyulun ortalarına qədər kəndin ətrafı bənövşəyi rəngə bürünür. Ucsuz-bucaqsız lavanda tarlaları, havaya yayılan xoş ətir və günəşin şüaları altında yaranan rəng çalarları buranı sanki təbiətin yaratdığı bir tabloya çevirir.

Bu mənzərə fotoqrafların, səyahət həvəskarlarının və xarici turistlərin diqqətini cəlb edir. Ancaq Kuyucakın turizm əhəmiyyəti yalnız gözəl mənzərələrlə məhdudlaşmır. Burada lavanda yağı, sabun, çay, bal və digər məhsulların istehsalı ilə tanış olmaq mümkündür. Bu model kənd turizminin inkişafına, yerli istehsalçıların gəlirlərinin artmasına və yeni iş yerlərinin yaranmasına xidmət edir. Isparta təcrübəsi göstərir ki, düzgün tanıtım və təşkilatlanma sayəsində bir kəndin təbii sərvəti bütöv bir bölgənin turizm simvoluna çevrilə bilər.

Şəhərin təbiət xəzinəsinin digər incisi isə Eğirdir gölüdür. Türkiyənin böyük şirin su göllərindən biri olan bu göl öz mənzərəsi, sahil yaşayış məntəqələri və təbii zənginliyi ilə seçilir. Gölün sahilində yerləşən Eğirdir şəhəri sakitlik axtaranlar, təbiət həvəskarları və ailəvi istirahətə üstünlük verənlər üçün cəlbedici məkandır.

Burada qayıq gəzintiləri, balıqçılıq, üzgüçülük, yelkən və digər su idman növləri ilə məşğul olmaq mümkündür. Gölün ərazisindəki Yeşilada və Can Ada isə özünəməxsus mənzərələri ilə turistlərin marağına səbəb olur. Xüsusilə Yeşilada sahil mənzərəsi, balıq restoranları və tarixi atmosferi ilə seçilir. Burada günəşin gölün sularında əks olunmasını seyr etmək, sahil boyunca gəzmək və təbiətin sakitliyini duymaq səyahətin unudulmaz anlarına çevrilə bilər.

Eğirdir gölünün turizm əhəmiyyəti ilə yanaşı, ekoloji dəyəri də böyükdür. Bu təbii sərvətin qorunması, su ehtiyatlarının səmərəli idarə olunması və turizm fəaliyyətinin ekoloji tarazlığı pozmadan təşkili gələcək inkişafın əsas şərtlərindən biridir.

Ispartanı yalnız yay turizmi ilə əlaqələndirmək də doğru olmazdı. Şəhər qış aylarında da turistlərə fərqli imkanlar təqdim edir. Dəniz səviyyəsindən 2635 metr yüksəklikdə yerləşən Davraz dağı Türkiyənin tanınmış xizək mərkəzlərindən biridir. Burada xizək, snoubord və digər qış idman növləri ilə məşğul olmaq mümkündür.

Davrazın əsas üstünlüklərindən biri onun Antalya turizm bölgəsinə yaxınlığıdır. Bu coğrafi amil Aralıq dənizi sahillərində istirahət edən turistlərə qış idmanları ilə tanış olmaq üçün əlavə imkan yaradır. Dağ yalnız qış mövsümündə deyil, yay aylarında da trekking, velosiped, dağ gəzintiləri və idman komandalarının hazırlıq düşərgələri üçün perspektivli məkandır. Beləliklə, Davraz Ispartanı ilboyu turizm istiqamətinə çevirmək baxımından mühüm rol oynaya bilər.

Ispartanı yalnız təbiət və kənd təsərrüfatı ilə tanımaq onun tarixi zənginliyinə kölgə salmaq olardı. Vilayətin ərazisində yerləşən Pisidiya Antioxiyası qədim dövrün mühüm şəhərlərindən biridir. Yalvaç yaxınlığında yerləşən bu arxeoloji məkan Roma dövrünün memarlıq və şəhərsalma ənənələrini nümayiş etdirir. Qədim küçələr, tikili qalıqları və tarixi abidələr bu ərazini açıq səma altında tarix muzeyinə çevirir.

(ardı var)

Sübhan

NİGARIM



Bu gün Nigarımın dünyaya gəlib bizi, yəni onu sevənləri sevindirdiyi gündür. Və bu gün bizimlə birlikdə Nigarın varlığına, təhsildəki uğurlarına sevinən hər kəsin də günüdür. Bizi sevindirən Nigarımıza biz də sevinə-sevinə doğum günün mubarək! - deyirik.

Sən ata adımı nəvəli etdin
Əbədi bir taxtın əvvəli etdin!
Hamıdan dövlətli - dəvəli etdin -
Nigarım!

Nilufər qızımın Nigar gülüsən,
Mənim ürəyimin nübar gülüsən,
Düzünü söyləsəm vüqar gülüsən -
Nigarım!

Səsin həyatımdı, özü balımdı,
Dediyi hər kəlmə, sözü balımdı!
Mənim söylədiyim "Qadan alım"-dı -
Nigarım!

Baxışın mənalı - sudan da duru,
Mənə xatırladır gülüşün "Şur!"-u!
Sən atan Anarın gözünün nuru -
Nigarım!

Hər yeni ad günün tərdi, təzədi,
Bu günün sevinci bizi bəzədi!
Şeirim bu məclisə bir növ məzədi -
Nigarım!

Səni sevənlər adından
baban Əbülfət MƏDƏTOĞLU

Damla: "Bu yanaşma insanlığa sığmır"



Müğənni Damla illər əvvəl işlədiyi işlə bağlı onu qınayanlara irad bildirib.

Adalet.az bildirir ki, o, heç vaxt peşəsindən utanmadığını söyləyib:

"Həmişə deyirəm ki, insanın daxili xarab olmasın. Qəlbi kinli olmasın. İllər əvvəl hansısa əziyyətli işlə məşğul olub pul qazanmışamsa, indi müəyyən bir yerlərə qədər özümü gətirib çıxarmışamsa, keçmiş işimə lağ etmək olmaz. Bu, çox pis hərəkətdir.

Heç kəs demir ki, bu adam zəhmətlə 0-dan bura qədər qalxıb. Hamısı deyir ki, kim olmusan axı?! Bu yanaşma əsla insanlığa sığmır.

Kimsə əziyyət çəkib irəli gedən kimi başlayırıq həmin adamı alçaltmağa. Amma kimsə yazıq vəziyyətə düşən kimi ona yardım etmək istəyirik".

Əntiqə

Aqil Abbas
Qurban Bayramovun
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu tanınmış ədəbiyyatşünas alim
Qurban Bayramovun
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Babək Əliyev və Əbülfət Mədətoğlu **Tofiq Rzayevə** atası
Teyyub Əyyuboğlunun
vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 302
Çapa imzalanmışdır: 05.11.2026